RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 110 (10130) 25 iyun 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan-Türkiyə birliyi və qardaşlığı birgə sərvətimizdir



Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisi Sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

2

## "Arzu edirəm ki, bölgədə heç bir müharibə olmasın"



Prezident İlham Əliyev İran İslam Şurası Məclisinin Sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

2

## "İslam həmrəyliyinin möhkəmləndirilməsi və böyük gücə çevrilməsi məqsədilə birgə səylərin səfərbər olunması üçün əlimizdən gələni əsirgəməyəcəyik"

Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının iştirakçılarına məktub ünvanlayıb

2

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!

Zati-aliləri!

Dost Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuruq. Sizə cansağlığı və uğurlar, xalqınıza isə davamlı tərəqqi və firavanlıq arzulayırıq.

Bu xoş fürsətdən istifadə edərək, dost ölkələrimiz və xalqlarımız arasında bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməyə sadiqliyimizi bir daha təsdiqləyirik.

*Dərin hörmətlə,*

***Nizar AMİDİ,***
***İraq Respublikasının Prezidenti***

# Milli yaddaşın yaddaşındakılar



"Ermənistanın işğalçı qüvvələrinin xalqımıza və şəhərlərimizə qarşı törətdiklərini heç vaxt unutmayacağıq. Onların 65 məscidi dağıtmasını, xalqımızın dini hisslərini təhqir etmək məqsədilə məscidlərdə heyvan, o cümlədən donuz saxlamalarını heç vaxt unutmayacağıq. Biz Xocalı soyqırımını da heç vaxt unutmayacağıq. Lakin gələcəyə baxmağı bacarmalıyıq. Biz qisasımızı döyüş meydanında aldıq və bu kifayətdir. Müharibə dayanmalı idi və onu dayandıran da biz olduq. Güclü tərəf olaraq biz müharibəyə son qoyduq və sülh təklif etdik. Beləliklə, bu gün sülh artıq reallıqdır".

**İlham ƏLİYEV**

Milli yaddaşımızın ürəkparçalayan, qandonduran səhifələrindən birini işğal dövründə baş verən hadisələr təşkil edir.

Özünü "ən qədim xalq", "xristianlığı birinci qəbul etmiş millət", "mədəni xalq" adlandıran haylar 27 illik işğal dövründə törətdikləri vandallıq, barbarlıq və vəhşiliklərlə əsl simalarını ortaya qoydular.

* Dinc əhaliyə qarşı Xocalıda, Qaradağlıda, Ballıca və Başlıbeldə, Bağanıs-Ayrımda soyqırımları törədildi, qocalar, qadınlar, uşaqlar vəhşiliklə qətlə yetirildi.

* Əsir düşmüş mülki vətəndaşlarımıza qarşı qəddarlıqlar törədildi, döyülərək öldürüldülər, əlil və şikəst edildilər, kəlbətinlə qızıl dişlərini çəkdilər.

* Ağdamı "ruhlar şəhəri"nə, qalan yaşayış məntəqələrini isə xarabalıqlara çevirdilər.

İşğaldan sonra dünyanın hər yerindən Qarabağa gələn insanlar bütün bunları öz gözləri ilə gördülər.

Erməni barbarlığının 30 illik işğal dövründə vurduğu ziyanın faktlarda və rəqəmlərdə ifadəsi:

* Birinci Qarabağ müharibəsi zamanı rəsmi məlumatlara görə, 11557 Azərbaycan hərbçisi şəhid olub.

* İtkinlər: Dövlət Komissiyasının məlumatına görə, 3890 nəfər Azərbaycan vətəndaşı itkin düşüb. Onlardan 3171 nəfəri hərbçi, 719 nəfəri mülki şəxsdir. Mülki şəxslərdən 71 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 267 nəfəri isə qadındır.

* 44 günlük Vətən müharibəsi və ondan sonra 3000 nəfərdən çox hərbi qulluqçumuz şəhid olub.

* Mina qurbanlarının sayı: Ümumilikdə Birinci Qarabağ müharibəsindən sonra 3000 nəfərdən çox Azərbaycan vətəndaşı mina qurbanı olub. İkinci Qarabağ müharibəsindən sonra 424 nəfər mina terrorunun qurbanına çevrilib. Onlardan 72 nəfəri həyatını itirib, 349 nəfəri xəsarət alıb. Həlak olanların 57 nəfəri mülki şəxs, 15-i isə hərbçidir. Xəsarət alanlardan isə 171 nəfəri mülki şəxs, 178 nəfəri hərbçidir.

* Ermənistan tərəfindən Qarabağ və Şərqi Zəngəzurda 700-dən çox tarixi abidə dağıdılıb və ya ciddi ziyan görüb.

* Mədəniyyət müəssisələri: 927 kitabxana, 22 muzey (o cümlədən 100 mindən çox eksponat) məhv edilib.

* Arxeoloji və memarlıq abidələri: 58 arxeoloji yaşayış yeri, 26 qala, müxtəlif məbədlər və saraylar vandalizmə məruz qalıb.

* Dini abidələr: İşğal dövründə 60-dan çox məscid dağıdılıb və ya təhqir edilib.

Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində ətraf mühitə qarşı ekosid siyasəti yürüdərək ekoloji tarazlığı ciddi şəkildə pozub:

* Meşələrin məhv edilməsi: 60 min hektardan çox meşə sahəsi qanunsuz olaraq qırılıb və yandırılıb.

* Ermənistanın işğal dövründə təbii resursları qanunsuz istismar etməsi nəticəsində dəyən ziyan 16 milyard manatdan (təqribən 9,5 milyard dollar) çoxdur.

* Su ehtiyatlarının çirkləndirilməsi: Oxçuçay Ermənistanın dağ-mədən sənayesinin tullantıları ilə zəhərlənib.

İqtisadiyyat və infrastruktur:

İşğal olunmuş ərazilərdə 900-dən çox yaşayış məntəqəsi, 6000-dən çox sənaye və kənd təsərrüfatı binası, 695 tibb müəssisəsi, 693 məktəb, 927 kitabxana, 855 uşaq bağçası, minlərlə kilometr kommunikasiya və elektrik xətləri dağıdılıb.

İlkin hesablamalara və beynəlxalq ekspertlərin rəylərinə görə, 30 illik işğal dövründə dəymiş ziyanın ümumi miqdarı 800 milyard ABŞ dollarından çox qiymətləndirilir.

6

## Xəzərin birləşdirdiyi dost və qardaş ölkə

### Azərbaycan-Türkmənistan münasibətlərində strateji mərhələ başlayır

Azərbaycan və Türkmənistan həm də dünyanın mühüm enerji istehsalçıları sırasındadır. Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, hər iki ölkə geniş enerji ehtiyatlarına malikdir və bu sahədə səylərin birləşdirilməsi qarşıya qoyulan əsas məqsədlərdəndir. Bu əməkdaşlıq artıq yalnız neft və qaz ixracı ilə məhdudlaşmır. Avropanın enerji təhlükəsizliyi, "yaşıl enerji" layihələri, Xəzərin dibi ilə mümkün kommunikasiya xətləri, elektrik enerjisinin ixracı və bərpaolunan enerji is-



tiqamətində yeni imkanlar Azərbaycan və Türkmənistanı gələcək onilliklərin strateji tərəfdaşlarına çevirə bilər.

8

## Avropa Məhkəməsinin ədalətsiz qərarı erməni lobbisinin maraqlarına xidmət edir

Avropa Məhkəməsi məqsədyönlü şəkildə Ermənistan vətəndaşı olan və bu ölkədə doğulan bir hərbçinin Azərbaycanın suveren ərazilərində hansı əsasla yerləşməsi məsələsinə aydınlıq gətirməyib. Çünki beynəlxalq humanitar hüququ tətbiq etsəydi, bu şəxslərin işğalçı ordunun üzvləri olduğunu etiraf etməli olacaqdı. Lakin məhkəmə istədiyi qərəzli nəticəni əldə etmək üçün bu faktın üzərindən sükutla keçib. Üstəlik, iş üzrə "sübut" kimi təqdim olunan sənədlərin ərizəçilər tərəfindən deyil, birbaşa Ermənistan dövləti tərəfindən təqdim edilməsi pro-



sesin siyasi koordinasiya olunduğunu təsdiqləyir.

Avropa institutlarının, o cümlədən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin birtərəfli yanaşması Azərbaycan ictimaiyyətinə çoxdan bəllidir.

9

# Azərbaycan-Türkiyə birliyi və qardaşlığı birgə sərvətimizdir

## Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisi Sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı TBMM Sədrinin İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında iştirakının önəminə toxundu.

Gələcəkdə ölkəmizdə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində digər tədbirlərin də keçiriləcəyini deyən Prezident İlham Əliyev islam ölkələri arasında əlaqələri daha da genişləndirməyin əhəmiyyətini vurğuladı.

Qəbula və İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının yüksək səviyyədə təşkilinə görə minnətdarlıq edən Numan Kurtulmuş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Prezident Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Qonaq Bakıda keçirilən tədbirin İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində tərəfdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayaraq, dövlətimizin başçısının tədbir iştirakçılarına ünvanlandığı müraciətin zəngin məzmunlu olduğunu dedi.

Söhbət zamanı Şuşa Bəyannaməsinin əhəmiyyətinə toxunularaq, ölkələrimiz arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası sahədə uğurlu inkişafı qeyd edildi, dünyada Azərbaycan-Türkiyə birliyinin və qardaşlığının nümunəsinin olmadığı bildirildi və bu, birgə sərvətimiz kimi qiymətləndirildi. Ölkələrimiz arasında dostluğun və qardaşlığın Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyin təmin edilməsində mühüm amil olduğu vurğulandı.

Görüşdə qanunverici orqanlarımız arasında mövcud əməkdaşlıq və onun daha da genişləndirilməsinin perspektivləri müzakirə olundu.

# "Arzu edirəm ki, bölgədə heç bir müharibə olmasın"

## Prezident İlham Əliyev İran İslam Şurası Məclisinin Sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də İran İslam Şurası Məclisinin Sədri Məhəmməd Baqir Qalibafın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev son vaxtlar qardaş İran xalqının çox böyük əziyyətlər çəkdiyini vurğuladı, müharibədə həlak olanlara bir daha Allahdan rəhmət dilədi.

Müharibə dövründə Azərbaycan xalqının və dövlətinin İran xalqı və dövlətinin yanında olduğunu deyən Prezident İlham Əliyev özünün İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla telefonla danışıqlarını, həmçinin müxtəlif səviyyələrdə digər təmasları və həmrəylik nümunələrini bunun əyani göstəricisi kimi qiymətləndirdi.

Müharibənin dayandırılmasının Azərbaycan tərəfindən sevinc hissi ilə qarşılandığını vurğulayan dövlətimizin başçısı bununla bağlı ölkəmiz tərəfindən dərhal rəsmi bəyanatın verildiyini xatırladı.

"Arzu edirəm ki, bölgədə heç bir müharibə olmasın", - deyən Prezident İlham Əliyev həm Azərbaycanın, həm də İranın vaxtilə müharibələrdən əziyyət çəkdiklərini qeyd etdi.

Məhəmməd Baqir Qalibafın ölkəmizə əvvəlki səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı onun İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında iştirakının əhəmiyyətinə toxundu.

Prezident İlham Əliyev bu tədbirin islam həmrəyliyinin inkişafına töhfə verəcəyinə ümidvarlığını bildirərək, gələn il ölkəmizin İƏT-in Zirvə görüşünə evsahibliyi edəcəyini dedi və bununla bağlı artıq hazırlıq işlərinin başlanıldığını qeyd etdi.

Azərbaycan Prezidenti İlham Əliyev Məhəmməd Baqir Qalibafın səfərinin, eyni zamanda ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağını vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan-İran münasibətlərinin uğurlu inkişafına da toxundu.

Prezident İlham Əliyevlə görüşdən məmnunluğunu bildirən qonaq İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Məsud Pezeşkiana çatdırmağı xahiş etdi.

Məhəmməd Baqir Qalibaf İranın çətin günlərində Prezident İlham Əliyev, Azərbaycan dövləti və xalqı tərəfindən göstərilən dəstəyə görə minnətdarlığını bildirdi.

Qonaq, eyni zamanda İranın ölkəmizdəki səfirliyinə gələrək, İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar başsağlığı verməsinə, həmçinin Ayətullah Seyid Müctəba Hüseyni Xameneiyə İran İslam Respublikasının Ali Rəhbəri vəzifəsinə seçilməsi münasibətilə göndərdiyi təbrik məktubuna görə dövlətimizin başçısına təşəkkür etdi.

Müharibənin böyük dərd və faciə olduğunu deyən qonaq həmin dövrdə ölkəmizin İranla mehriban qonşuluq münasibətlərinə sadiq qaldığını, humanitar yardımını əsirgəmədiyini, Azərbaycan xalqının İranın yanında olduğunu vurğuladı və qeyd etdi ki, bu, İran xalqının yaddaşında əbədi qalacaq.

Azərbaycanla İranın çətin günlərdə də daim bir-birinin yanında olduqlarını deyən Məhəmməd Baqir Qalibaf bunu ölkələrimizin birliyinin və həmrəyliyinin daha bir nümunəsi kimi qiymətləndirdi. Qonaq bu müharibənin, eyni zamanda İrana müsəlman ölkələri ilə təmasların nə dərəcədə vacib olduğunu göstərdiyini bildirdi. Məhəmməd Baqir Qalibaf qeyd etdi ki, İran müharibə dövründə dostunu və düşmənini tanıyıb. Bu xüsusda dost ölkə kimi Azərbaycan İranın yanında olub.

Söhbət zamanı Azərbaycan-İran əlaqələrinin gələcəkdə daha da dinamik inkişafına əminlik ifadə olundu, Ağbənd-Kələlə körpüsünün tikintisinin artıq başa çatdırıldığı və İran ərazisindən keçən Araz dəhlizinin də regionda nəqliyyat imkanlarının artırılmasına xidmət edəcəyi məmnunluqla vurğulandı.

Görüşdə ikitərəfli əlaqələrimizin perspektivləri, o cümlədən parlamentlərarası əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, hökumətlərarası komissiyanın fəaliyyətinə toxunuldu.

# "İslam həmrəyliyinin möhkəmləndirilməsi və böyük gücə çevrilməsi məqsədilə birgə səylərin səfərbər olunması üçün əlimizdən gələni əsirgəməyəcəyik"

## İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında səmimi-qəlbdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Qardaş ölkələrin qanunverici orqanlarını birləşdirən bu mötəbər platforma parlamentlərarası əməkdaşlığın gücləndirilməsi, siyasi, iqtisadi, sosial və humanitar sahələrdə əlaqələrin inkişaf etdirilməsinə xidmət etməklə yanaşı, islam həmrəyliyinin möhkəmləndirilməsini təmin edən vacib mexanizmlərdən biri kimi xüsusi əhəmiyyət kəsb edir.

Bu il Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv olmasından 35 il ötür. İƏT Azərbaycanın müstəqilliyinin bərpasından sonra qoşulduğu ilk beynəlxalq təşkilatlardandır. Qürurla qeyd edə bilərik ki, bu illər ərzində ölkəmiz islam həmrəyliyinin gücləndirilməsinə töhfə vermiş, İƏT-in fəaliyyətində təşəbbüskar və məsuliyyətli rol oynamış, məqsəd və prinsiplərinə sadiq qalmış, beynəlxalq müstəvidə nüfuzunun artırılmasında fəal iştirak etmişdir. Azərbaycan üzv dövlətlərlə ikitərəfli əsasda da möhkəm dostluq və qardaşlıq münasibətlərinə söykənən çoxşaxəli əməkdaşlıq əlaqələri qurmuşdur.

Biz də, öz növbəmizdə, İƏT-in ardıcıl dəstəyini daim hiss etmişik. İƏT Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən təcavüzü zamanı və postmüharibə dövründə qətiyyətli mövqe nümayiş etdirərək, işğalı şiddətlə qınayan, Azərbaycanın haqq işini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən, azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işlərini alqışlayan qətnamələr və bəyanatlar qəbul etmişdir. Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair İƏT çərçivəsində Təmas Qrupunun fəaliyyətini xüsusilə vurğulamaq istərdim. Biz qardaş ölkələrin bu münasibətini yüksək qiymətləndiririk.

Təəssüf ki, işğal dövründə Ermənistan tərəfindən urbisid və kultursidə məruz qalmış şəhər və kəndlərimizdə bəşəri əhəmiyyətə malik məscidlər və çoxəsrlik islam memarlığı abidələri qəsdən dağıdılmış və talan olunmuşdur. 67 məsciddən 65-i məhv edilmiş, qalan məscidlərə isə ciddi zərər vurulmuşdur. Bu müqəddəs yerlərin tövlə kimi istifadə olunması və orada dinimizdə haram sayılan heyvanların saxlanılması təkcə azərbaycanlıların deyil, bütün dünya müsəlmanlarının hisslərinə təhqirdir. ICESCO və İƏT-in Müstəqil Daimi İnsan Hüquqları Komissiyası bu vandalizm aktlarının işğaldan azad edilmiş ərazilərimizə təşkil etdiyi missiyaları zamanı əyani şahidi olmuşdur.

Bu gün işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı yenidənqurma işləri çərçivəsində dağıdılmış dini ocaqlarımız tarixi görkəmi nəzərə alınmaqla bərpa edilir, yeni məscidlər inşa edilir, minarələrdən uzun illərdən sonra yenidən azan sədaları ucalır.

Torpaqlarımızda islam mədəni irsinə qarşı törədilmiş bu cinayətlər şübhəsiz ki, islamofobiyanın açıq-aydın təzahürüdür. Bu gün dünyada müsəlmanlara qarşı nifrətin aşılanması, islam mədəni irsinin hədəfə alınması və islam dəyərlərinin təhqir olunması geniş vüsət almışdır. Müqəddəs kitabımız "Qurani-Kərim"in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturalarının nəşr edilməsi heç bir halda ifadə azadlığı ilə əsaslandırıla bilməz və tamamilə qəbuledilməzdir. İslamofobiya yalnız müsəlmanlara qarşı dözümsüzlük halı deyil, qarşılıqlı anlaşmaya və dinc birgəyaşayışa təhdid yaradan təhlükəli tendensiyadır. Məyusedici haldır ki, Qərbdə bəzi siyasi dairələr, Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi beynəlxalq təsisatlar anti-islam əhvali-ruhiyyəsini təlqin edərək, islamı ekstremizm və terrorizm ilə eyniləşdirməyə, dinimizə qarşı qərəzli təsəvvür yaratmağa və onu təhlükə mənbəyi kimi qələmə verməyə cəhdlər göstərir.

İslamofobiya ilə mübarizəyə beynəlxalq diqqətin daha da artırılması məqsədilə ölkəmizdə bu mövzuya həsr olunmuş beynəlxalq konfranslar təşkil edilir. İslamofobiyanın narahatedici şəkildə getdikcə yayıldığı bir dövrdə Azərbaycanın bu konfranslara evsahibliyi etməsi dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi və dinimizlə bağlı stereotiplərin aradan qaldırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan və dünyada milyardlarla insan üçün mənəvi dayaq və bələdçi rolunu oynayan islam dəyərlərinin qorunmasına Azərbaycanda həmişə böyük önəm verilmişdir.

Biz islamın həmrəylik və qarşılıqlı hörmət prinsiplərinin təbliği istiqamətində müxtəlif təşəbbüslərlə çıxış edir, mütəmadi olaraq İƏT və onun qurumlarının tədbirlərinə evsahibliyi edirik. İslam sivilizasiyasının zəngin mədəni-mənəvi irsini təcəssüm etdirən Bakı, Naxçıvan və Şuşa şəhərləri müxtəlif illərdə islam dünyasının mədəniyyət paytaxtı adına layiq görülmüşdür. 2017-ci ildə Azərbaycanda elan olunmuş "İslam Həmrəyliyi İli" çərçivəsində 54 ölkənin iştirakı ilə Bakıda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir.

Bir neçə gün öncə Bakıda müsəlman ölkələrinin dayanıqlı rifahı naminə regional inteqrasiya mövzusuna həsr olunmuş İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantıları uğurla təşkil edilmişdir.

2027-ci ildə Azərbaycanda İslam Zirvə Konfransının 16-cı Sessiyası keçiriləcək və ölkəmiz İƏT-də Sədrliyi öz üzərinə götürəcək. Sədrliyimiz dövründə üzv dövlətlərin ümumi maraqlarının təşviqi, təşkilat çərçivəsində əməkdaşlığın dərinləşməsi, islam həmrəyliyinin möhkəmləndirilməsi və böyük gücə çevrilməsi məqsədilə birgə səylərin səfərbər olunması üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Hörmətli tədbir iştirakçıları!

Hazırkı sessiyanın *"Parlament əməkdaşlığı vasitəsilə İƏT üzvü olan dövlətlərdə dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi"* mövzusuna həsr olunması Parlament İttifaqının üzv ölkələrinin tərəqqisi üçün ortaq çağırışlara birgə həll yolları tapmaq əzmini nümayiş etdirir.

Əminəm ki, sessiya çərçivəsində irəli sürülən faydalı təşəbbüslər qardaş xalqlarımızın rifahına töhfə verəcək, ölkələrimiz arasında yeni əməkdaşlıq imkanlarının yaranmasına xidmət edəcək.

Sizə ən xoş arzularımı yetirir, sessiyanın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyun 2026-cı il*

# "Azərbaycan Respublikasının ərazi müdafiəsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 415 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının ərazi müdafiəsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 415 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 416 (Cild I); 2024, № 5 (I kitab), maddələr 521, 529, № 12 (II kitab), maddə 1369; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 14 aprel tarixli 642 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.1.26-1-ci yarımbənd əlavə edilsin:

"3.1.26-1. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 415 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi müdafiəsi haqqında Əsasnamə"dən irəli gələn vəzifələri həyata keçirir;".

2. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 dekabr tarixli 823 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 12, maddə 718 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 9.3-1-ci bənd əlavə edilsin:

"9.3-1. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 415 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi müdafiəsi haqqında Əsasnamə"dən irəli gələn vəzifələri həyata keçirir;".

3. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli 394 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 326 (Cild I); 2025, № 6, maddələr 541, 559, № 11, maddə 1039; 2026, № 2, maddə 128) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8.36-1-ci bənd əlavə edilsin:

"8.36-1. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 415 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi müdafiəsi haqqında Əsasnamə"dən irəli gələn vəzifələri həyata keçirmək;".

4. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82 (Cild I); 2024, № 4, maddələr 375, 397, № 5 (I kitab), maddə 529, № 12 (II kitab), maddələr 1366, 1383; 2025, № 1, maddə 35, № 4 (I kitab), maddələr 325, 338, № 6, maddə 549, № 8, maddə 773, № 12 (I kitab), maddə 1153; 2026, № 2, maddə 123) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.0.5-1-ci yarımbənd əlavə edilsin:

"3.0.5-1. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 415 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi müdafiəsi haqqında Əsasnamə"dən irəli gələn vəzifələri həyata keçirmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 iyun 2026-cı il*

# Baş nazir Əli Əsədov Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşla görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 24-də ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Bakının İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasına evsahibliyi etməsi mühüm hadisə kimi qiymətləndirilib.

Azərbaycan ilə Türkiyə arasında qardaşlıq, müttəfiqlik və qarşılıqlı etimada əsaslanan münasibətlərin bütün sahələr üzrə uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub.

Parlamentlərarası əməkdaşlığın ikitərəfli əlaqələrin mühüm tərkib hissəsi olduğu vurğulanaraq, hər iki ölkənin qanunverici orqanları arasında sıx təmasların və qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd edilib.

Tərəflər Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının bundan sonra da yeni məzmunla zənginləşəcəyinə əminlik ifadə edərək, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivlərini müzakirə ediblər.

## Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 195** **Bakı şəhəri, 24 iyun 2026-cı il**

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2026-cı il 1 oktyabr saat 06:00-dək uzadılsın.

2. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1209 (Cild I); 2024, № 3, maddə 308, № 6 (II kitab), maddə 732, № 9, maddə 1103, № 12 (II kitab), maddə 1450; 2025, № 3, maddə 295, № 4, maddə 600, № 9, maddə 875, № 12 (II kitab), maddə 1252; 2026, № 3, maddə 282; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 20 may tarixli 154 nömrəli Qərarı) 1.1-ci bəndində "iyul" sözü "oktyabr" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İran İslam Şurası Məclisinin Sədri ölkəmizə səfərə gəlib




**İran İslam Respublikası İslam Şurası Məclisinin Sədri Məhəmməd Baqir Qalibaf Azərbaycana işgüzar səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində İran İslam Şurası Məclisinin Sədri Bakıda keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında iştirak edəcək.

*"Azərbaycan"*

# Şimali Kipr Türk Cümhuriyyəti Parlamentinin Sədri ölkəmizə səfərə gəlib



**Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) Parlamentinin Sədri Ziya Öztürkler Azərbaycana işgüzar səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində ŞKTC Sədri Bakıda keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında iştirak edəcək.

*"Azərbaycan"*

# XİN: Fransanın regionla bağlı köhnəlmiş və birtərəfli yanaşması etibarlı tərəfdaş imicinə zərbə vurur

**"Fransa Milli Assambleyasının üzvlərinin ünvanladıqları suallara cavab olaraq, "Dağlıq Qarabağdan köçürülmüş" ermənilərə dəstək, "erməni məhbuslarının taleyi və onların azad edilməsi", "erməni dini və mədəni irsi," "Azərbaycan-Ermənistan sülh prosesində insan hüquqları", habelə "Azərbaycanda insan hüquqları" kimi məsələlərə dair Avropa və Xarici İşlər Nazirliyinin iyunun 23-də Parlamentin internet səhifəsində dərc edilmiş əsassız cavablarını qətiyyətlə pisləyir və rədd edirik".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Fransa Milli Assambleyasının üzvlərinin suallarına verdiyi əsassız cavablara dair şərhində yer alıb.

Bildirilib ki, Fransa tərəfinin cavabları onun Azərbaycan-Ermənistan normallaşma prosesi ilə bağlı uzun müddətdir nümayiş etdirdiyi qərəzli yanaşmanın növbəti nümunəsidir.

Cavablarda Ermənistanın təhlükəsizliyi, "Dağlıq Qarabağdan olan ermənilər", "Azərbaycanda saxlanılan erməniəsilli şəxslər" kimi məsələlərə geniş yer ayrılsa da, Ermənistanın Azərbaycan ərazilərinin təxminən 30 il davam etmiş işğalı, bu müddətdə törədilmiş dağıntılar, bir milyondan artıq azərbaycanlının məcburi köçkün və qaçqın vəziyyətinə düşməsi, itkin düşmüş şəxslərin taleyi və Ermənistanın mina təhdidi kimi məsələlərə toxunulmaması təəssüf doğurur.

Fransa tərəfinin özünü sülh prosesinin tərəfdarı kimi təqdim etməsinə baxmayaraq, Ermənistanla müdafiə əməkdaşlığını xüsusi vurğulaması və EUMA missiyasının fəaliyyətini təşviq etməsi Fransanın regionda neytrallıqdan tamamilə uzaq olduğunu bir daha göstərir. Fransanın Ermənistanla hərbi əməkdaşlığı genişləndirməsi, onu silahlandırması və regionda birtərəfli siyasi mövqe sərgiləməsi sülhə xidmət etmir. Əksinə, bu cür addımlar revanşist meyilləri təşviq edir və normallaşma prosesinə zərbə vurur.

"Erməni əsirləri və saxlanılan şəxslər" barədə səsləndirilən iddialar reallıqlara tamamilə ziddir. Bu məsələnin siyasi manipulyasiya predmetinə çevrilməsi və məhkəmənin qərarının sual altına alınması cəhdləri qəbuledilməzdir. Azərbaycanda saxlanılan erməniəsilli şəxslər milli qanunvericiliyə və beynəlxalq hüquqa uyğun olaraq konkret cinayət əməllərinə görə məsuliyyətə cəlb ediliblər. Ermənistanla yanaşı, Fransanın da 30 ilə yaxın müddətdə qayğısına qaldığı separatçı liderlər və digər erməniəsilli şəxslər müharibə cinayətləri, etnik təmizləmə, hərbi təcavüz, işgəncə və digər ağır cinayətlərə görə məhkum ediliblər və cəzalarını çəkirlər.

Ermənistanda və keçmiş işğal olunmuş ərazilərdə Azərbaycan mədəni irsinin məhv edilməsi, məscidlərin dağıdılması və vandalizmə məruz qalması faktlarını görməməzliyə vuran Fransa tərəfinin "erməni mədəni və dini irsi" ilə bağlı iddiaları şərh etməsi gülüncdür.

Qeyd edilənlərlə yanaşı, siyasətçilərin çoxsaylı korrupsiya faktları, polis zorakılığı, etirazçıların sərt şəkildə dağıdılması, jurnalistlərə qarşı təzyiqlər, miqrantların hüquqlarının pozulması və dini ayrı-seçkiliklə bağlı çoxsaylı nümunələrlə, həmçinin Fransanın dənizaşırı ərazilərində, o cümlədən Yeni Kaledoniyada baş verən zorakılıqlarla yadda qalan Fransanın Azərbaycana insan hüquqları ilə bağlı dərs verməyə çalışması təəccüb doğurur.

Fransa XİN-in cavabları bir daha göstərir ki, Paris hələ də regionun reallıqlarını qəbul etməkdə çətinlik çəkir və Cənubi Qafqazda sülhün möhkəmlənməsinə töhfə vermək əvəzinə, köhnəlmiş və birtərəfli siyasi yanaşmaları davam etdirir. Bu isə Fransanın həm regiondakı nüfuzuna, həm də etibarlı tərəfdaş imicinə ciddi zərbə vurur.

## "Turizm mərkəzlərində dövlətə məxsus daşınmaz əmlakın icarəyə və istifadəyə verilməsi və investisiya layihələrinin icra edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 187** **Bakı şəhəri, 22 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Turizm və rekreasiya zonalarının Nümunəvi Əsasnaməsi"nin təsdiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 avqust tarixli 171 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Turizm mərkəzlərində dövlətə məxsus daşınmaz əmlakın icarəyə və istifadəyə verilməsi və investisiya layihələrinin icra edilməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən və fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə, habelə bələdiyyələrə qrant verə bilən qurumların, həmçinin Azərbaycan Respublikası Gənclər Fondunun, Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin qeyri-hökumət təşkilatlarının müsabiqə yolu ilə və müsabiqədənkənar yolla, dövlət sifarişləri və subsidiya daxil olmaqla bütün növ maliyyələşdirilməsinin "bir pəncərə" prinsipi əsasında Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə birlikdə həyata keçirməsi Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 188** **Bakı şəhəri, 22 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin fəaliyyətinin təkmilləşdirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 560 nömrəli Fərmanının 4.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən və fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə, habelə bələdiyyələrə qrant verə bilən qurumların, həmçinin Azərbaycan Respublikası Gənclər Fondunun, Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin qeyri-hökumət təşkilatlarının müsabiqə yolu ilə və müsabiqədənkənar yolla, dövlət sifarişləri və subsidiya daxil olmaqla bütün növ maliyyələşdirilməsinin "bir pəncərə" prinsipi əsasında Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə birlikdə həyata keçirməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydanın 1.2-ci bəndində qeyd edilən "Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi" informasiya sistemi fəaliyyətə başlayanadək həmin informasiya ehtiyatı vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan prosedurlar Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən həyata keçirilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Qaz təchizatı sisteminə dair Qaydalar"ın təsdiq edilməsi və "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 297 nömrəli Qərarının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 189** **Bakı şəhəri, 22 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 avqust tarixli 487 nömrəli Fərmanının 2.1.2.3-cü abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Qaz təchizatı sisteminə dair Qaydalar" təsdiq edilsin *(əlavə olunur)*.

2. Müəyyən edilsin ki:

2.1. "Qaz təchizatı sisteminə dair Qaydalar"da Elektron Hökumət İnformasiya Sisteminin xidmət kanalı üzərindən müvafiq sistem operatorunun informasiya sistemi vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan prosedurların təşkili təmin edilənədək həmin sistem vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan prosedurlar birbaşa, poçt və ya elektron poçt vasitəsilə həyata keçirilir;

2.2. "Qaz təchizatı sisteminə dair Qaydalar"da həyata keçirilməsi nəzərdə tutulan prosedurlar tikintiyə icazə və ya məlumatlandırma icraatı çərçivəsində tikinti obyektlərinin qaz şəbəkələrinə qoşulması üçün texniki şərtlərin və qaz təchizatı layihəsinin verilməsinə münasibətdə şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

3. "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 297 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8, maddə 1280 (Cild I); 2024, № 1, maddə 95, № 3, maddə 305; 2025, № 2, maddə 204, № 9, maddə 877, № 12 (II kitab), maddələr 1209, 1257) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Ortamüddətli dövr üçün hədəf göstəricilərinin müəyyən edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 190** **Bakı şəhəri, 22 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 245-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 avqust tarixli 466 nömrəli Fərmanının 2.1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Ortamüddətli dövr üçün hədəf göstəricilərinin müəyyən edilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 191** **Bakı şəhəri, 22 iyun 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 306-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 562 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 211 (Cild I); 2025, № 12 (II kitab), maddə 1257; 2026, № 1, maddə 84, № 2, maddə 196; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 20 may tarixli 153 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.10.3-cü yarımbənddə "qulluqçular," sözündən sonra "hərbi xidmətdə olmağın son yaş həddinə çatmamış ehtiyatda olan gizirlər və miçmanlar," sözləri əlavə edilsin və həmin yarımbənddə "hərbi vəzifəlilər (zabitlər istisna olmaqla)" sözləri "ehtiyatda olan əsgərlər, matroslar, çavuşlar" sözləri ilə əvəz edilsin.

2. 3.25.2-ci yarımbənddə "5 il" sözlərindən sonra "(hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini, habelə xarici ölkələrin analoji orta ixtisas təhsili müəssisələrini bitirmiş gizir və miçmanlar üçün - 10 il)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İƏT Pİ Konfransının 20-ci Sessiyasının açılış mərasimi olub









**İyunun 24-də Azərbaycan Respublikası Milli Məclisinin evsahibliyi ilə Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının (İƏT Pİ) 20-ci Sessiyasının açılış mərasimi olub.**










Mərasimdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra "Qurani-Kərim"dən ayələr qiraət olunub.

Azərbaycan Respublikasının Prezident cənab İlham Əliyev tədbir iştirakçılarına müraciət ünvanlayıb. Müraciəti Milli Məclisin Sədri Sahibə Qafarova səsləndirib (Müraciətin mətni mediada dərc edilib).

Sonra İƏT Pİ sədrliyinin təhvil-təslim mərasimi keçirilib və İndoneziya Nümayəndələr Palatasının, həmçinin İƏT Pİ Konfransının 19-cu Sessiyasının sədri Puan Maharani videomüraciətlə çıxış edib.

Puan Maharani müraciətində təşkilatın ötən dövrdə üzv ölkələr arasında dialoqun, sülhün və davamlı inkişafın təşviqinə mühüm töhfələr verdiyini deyib. O, konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə təşəkkürünü ifadə edib, sessiyanın məhsuldar müzakirələr, mühüm qərarlarla yadda qalacağına əminliyini bildirib və Azərbaycana təşkilata sədrlikdə uğurlar arzulayıb.

Sonra Milli Məclisin Sədri, İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının Sədri Sahibə Qafarova açılış nitqi ilə çıxış edib.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan Parlamenti İƏT Pİ-nin Sədrliyini öz üzərinə götürərək, ittifaqın prinsiplərinin, məqsədlərinin və ortaq dəyərlərinin inkişaf etdirilməsinə tam sədaqətlə yanaşır.

Spiker Sahibə Qafarova deyib ki, Milli Məclisin İƏT Pİ-yə Sədrliyi Azərbaycanın islam dünyası ilə həmrəyliyin və sıx əlaqələrin möhkəmləndirilməsinə olan sadiqliyini əks etdirir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, müsəlman ölkələri ilə həm ikitərəfli, həm də ortaq təşkilatlarımız çərçivəsində münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir.

Çıxışda qeyd olunub ki, İslam Əməkdaşlıq Təşkilatı və onun üzv dövlətləri ərazilərimizin işğalı dövründə, eləcə də münaqişədən sonrakı dövrdə Azərbaycanla həmrəyliklərini həmişə ifadə ediblər. Son 30 ildə İƏT və İƏT Pİ tərəfindən erməni təcavüzünü qınayan, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən 100-dən artıq qərar və qətnamə qəbul edilib.

Azərbaycanın haqlı mövqeyinə daimi dəstəklərinə görə üzv ölkələrə və parlamentlərə minnətdarlığını bildirən Milli Məclisin Sədri diqqətə çatdırıb ki, islam həmrəyliyi prinsiplərini yüksək qiymətləndirən ölkəmiz onun təşviqində və daha da möhkəmləndirilməsində fəal iştirak edir. Azərbaycan İƏT Gənclər Forumunun və İƏT Əmək Mərkəzinin yaradılması kimi müxtəlif təşəbbüslər irəli sürüb və dəfələrlə müxtəlif tədbirlər üçün ev sahibi ölkə kimi seçilib.

Spiker Sahibə Qafarova bildirib ki, Azərbaycan islam mədəniyyətini təşviq edən və islamın sülh və mərhəmət dini kimi həqiqi mahiyyətini nümayiş etdirən çoxsaylı tədbirlər təşkil edib və təşəbbüslər irəli sürüb.

O diqqətə çatdırıb ki, Azərbaycanın Fələstin məsələsində tutduğu mövqe və göstərdiyi humanitar yardımlar dünya ictimaiyyətinə yaxşı məlumdur.

Milli Məclisin Sədri bildirib ki, zəngin tarixinə və mədəni irsinə, böyük təbii və insan resurslarına baxmayaraq, bu gün İslam dünyası hələ də həllini gözləyən ciddi çətinliklərlə üzləşir. Yoxsulluq, sosial və iqtisadi bərabərsizliklər, silahlı münaqişələr, humanitar böhranlar, terrorizm və ekstremizm davamlı inkişaf səylərinə ağır şəkildə təsir edir və onları məhdudlaşdırır. Bu çətinlikləri aradan qaldırmaq və potensialını tam həyata keçirmək üçün islam dünyasının sülh, tolerantlıq, harmoniya və ədalət kimi əbədi islam dəyərlərinə uyğun olaraq birlik və həmrəyliyə ehtiyac duyduğunu bildirən spiker Sahibə Qafarovanın sözlərinə görə, getdikcə daha mürəkkəb və qarşılıqlı əlaqəli olan bir dünyada müsəlman ölkələri üçün birgə fəaliyyət göstərmək, bir-birinə dəstək olmaq və ortaq məqsədlər uğrunda çalışmaq heç vaxt bu qədər vacib olmayıb.

Çıxışda qeyd olunub ki, parlamentlər bütün bu məsələlərin həllində mühüm rol oynamalıdırlar. Eyni dinə sahib olan dost və qardaş xalqlarımızın nümayəndələri olaraq, ziddiyyət və bölünmələr əvəzinə, həmrəyliyi, dialoqu və birliyi təşviq etməliyik.

Milli Məclisin Sədri vurğulayıb ki, İƏT-ə üzv dövlətlərin Parlament İttifaqı həmrəyliyin möhkəmləndirilməsi üçün mühüm və effektiv bir çətir halına gəlib və əməkdaşlığın, birgə fəaliyyətlərin və ortaq məsələlər üzrə qəti mövqeyimizin inkişafı üçün vacib bir platformadır. Parlament diplomatiyası, dialoq və təcrübə mübadiləsi vasitəsilə cəmiyyətlərimizin üzləşdiyi çətinliklərin həllinə töhfə verə və xalqlarımızın rifahının artırılmasına nail ola bilərik.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, son bir neçə gün ərzində nümayəndə heyətləri Parlament İttifaqının orqanları çərçivəsində səmərəli və məhsuldar görüşlər keçiriblər. Bu müzakirələr əməkdaşlığımızı daha da möhkəmləndirmək və ortaq çətinliklərə birgə həllər tapmaq əzmimizin paylaşıldığını nümayiş etdirir. Bu kontekstdə, 20-ci sessiyanın mövzusu - "Parlament əməkdaşlığı vasitəsilə İƏT üzvü olan dövlətlərdə dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi" - həm vaxtında, həm də olduqca aktualdır.

Qlobal iqtisadiyyatın getdikcə artan qarşılıqlı əlaqələrin dövlətlərimiz arasında əməkdaşlıq üçün yeni imkanlar yaratdığını vurğulayan Sahibə Qafarova bildirib ki, iqtisadi əlaqələri möhkəmləndirməklə, münasibətləri genişləndirməklə, investisiyaları təşviq etməklə, bilik və innovasiya mübadiləsini asanlaşdırmaqla gələcək nəsillərin xeyrinə regionumuzun nəhəng potensialından daha yaxşı istifadə edə bilərik.

Milli Məclisin Sədri qeyd edib ki, davamlı və inklüziv iqtisadi inkişaf ölkələrimiz üçün ortaq məqsəddir. Bu məqsədə nail olmaq parlament əlaqələri vasitəsi də daxil olmaqla, bütün səviyyələrdə əlaqələndirilmiş səylər və əməkdaşlığa sadiqlik tələb edir. Onun sözlərinə görə, təşkilata üzv ölkələrin parlamentləri ticarət və investisiyalar qarşısındakı maneələrin aradan qaldırılmasına kömək etmək, gömrük əməkdaşlığını genişləndirmək və mövcud İƏT ticarət və iqtisadi əməkdaşlıq mexanizmlərinin effektiv tətbiqini təşviq etmək üzərində birgə işləyə bilər.

Spiker Sahibə Qafarova bildirib ki, qarşılıqlı əməkdaşlıq vasitəsilə həmçinin, regional əlaqələri möhkəmləndirən, ticarəti asanlaşdıran və İƏT-ə üzv dövlətlər arasında davamlı iqtisadi inteqrasiyaya töhfə verən təhlükəsiz, dayanıqlı nəqliyyat, tranzit və logistika dəhlizlərinin inkişafını da dəstəkləyə bilərik.

Bundan əlavə, Milli Məclisin Sədri qeyd edib ki, enerji təhlükəsizliyi, bərpaolunan enerji sahələrində əməkdaşlığın təşviqi də məqsədlərimizə nail olmağa töhfə verəcək.

O, çıxışına yekun vuraraq, diqqətə çatdırıb ki, İƏT üzvü olan dövlətlərin Parlament İttifaqı parlamentlərimiz arasında ünsiyyət, əlaqələndirmə və əməkdaşlıq üçün mühüm institusional çərçivə təmin edir. Azərbaycan Respublikasının Milli Məclisi İƏT Pİ-nin Sədrliyini öz üzərinə götürərkən, ittifaqın rolunu möhkəmləndirmək və ortaq prioritetləri inkişaf etdirmək üçün bütün üzv parlamentlərlə sıx əməkdaşlıq etməyə hazırdır.

Sonra İƏT Parlament İttifaqının baş katibi Muhammed Xurayçi Niyass mərasim iştirakçılarını salamlayıb.

Baş katib Muhammed Xurayçi Niyass çıxışında Azərbaycan Prezidenti İlham Əliyevə konfransa göstərdiyi diqqət və dəstəyə görə təşəkkürünü bildirib. O həmçinin Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərliyi ilə tədbirin yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb. Baş katib qeyd edib ki, hazırda dünya beynəlxalq sülhə və təhlükəsizliyə təhdid yaradan ciddi çağırışlarla üzləşir. O, bu şəraitdə sülhün, dialoqun və qarşılıqlı anlaşmanın təşviqinin xüsusi əhəmiyyət daşıdığını deyib.

Sonra sessiyanın gündəliyindəki məsələlərə baxılıb. Əvvəlcə bir sıra təşkilati məsələlər müzakirə olunub. Təşkilatın yeni büro üzvləri müəyyənləşdirilib. İƏT Pİ-də Azərbaycan nümayəndə heyəti rəhbərinin müavini Ceyhun Məmmədov sessiyanın məruzəçisi seçilib. Həmçinin təşkilatın baş katibinin hesabatı təsdiqlənib və digər məsələlər nəzərdən keçirilib.

Sonra üzv ölkələrin parlament sədrləri çıxış ediblər.

Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Numan Kurtulmuş, İran İslam Respublikası İslam Şurası Məclisinin Sədri Məhəmməd Baqir Qalibaf, Mozambik Respublikası Respublika Assambleyasının Sədri Marqarida Talapa, İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının Sədri Mazen Torki Əl-Qadi, Niger Respublikası Məsləhət Şurasının Sədri Mamoudu Haruna Cinqarey, Oman Sultanlığı Şura Məclisinin Sədri Xalid Hilal Nasir Əl-Maavali, Qətər Dövləti Şura Məclisinin Sədri Həsən bin Abdulla Əl-Qanim, Yəmən Respublikası Nümayəndələr Palatasının Sədri Sultan Səid Əlbarkani, Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) Parlamentinin Sədri Ziya Öztürkler tədbirdə çıxış ediblər. Spikerlər çıxışlarında islam dünyasının üzləşdiyi çağırışlara qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar. Natiqlər parlament diplomatiyasının sülhün, təhlükəsizliyin və davamlı inkişafın təşviqində mühüm rol oynadığını qeyd ediblər. Onlar müsəlman ölkələrini narahat edən problemlərin həllində birgə fəaliyyətin əhəmiyyətini diqqətə çatdırıblar. Çıxışlarda İƏT-ə üzv dövlətlər arasında dialoq və qarşılıqlı etimadın möhkəmləndirilməsinə, habelə əməkdaşlığın dərinləşdirilməsi istiqamətində fəaliyyətin bundan sonra da davam etdirilməsinə dəstək ifadə olunub.

Fasilədən sonra sessiyaya Milli Məclis Sədrinin müavini, İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin rəhbəri Rafael Hüseynov moderatorluq edib.

Sessiyada çıxış edən Rafael Hüseynov vurğulayıb ki, İslam Əməkdaşlıq Təşkilatı və onun Parlament İttifaqı artıq mühüm inkişaf yolu keçmiş, dəyərli təcrübə toplamış və qlobal proseslərə təsir göstərmək qabiliyyətini nümayiş etdirmişdir. O, bu əlaqələrin qarşılıqlı dəstəyin möhkəmlənməsinə və münaqişələrin həllində vasitəçilik imkanlarının yaranmasına töhfə verdiyini bildirib.

Sonra Burkina Faso Milli Assambleyasının vitse-spikeri Fofana Haoua, Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurası Sədrinin birinci müavini Tariq Humaid Altayer, İraq Nümayəndələr Şurası Sədrinin birinci müavini Adnan Faihan Musa, Çad Senatının vitse-spikeri Mbang Hadji Voli, Kot-d'İvuar Senatının vitse-spikeri Sako Nee Toure Sarra, Mərakeş Krallığı Nümayəndələr Palatası Sədrinin müavini Mohamed Qayat, Qırğız Respublikası Joqorku Keneşinin birinci vitse-spikeri Jıldız Taalaybek Kızı, Mali Milli Keçid Şurasının vitse-spikeri Muhammed Osman, Qvineya-Bisau Milli Keçid Şurasının birinci vitse-spikeri Sanha Garamba, təşkilata üzv ölkələrin parlament nümayəndələri və beynəlxalq təşkilatların təmsilçiləri çıxış edərək islam dünyasında həmrəyliyin, əməkdaşlığın və ortaq çağırışlara qarşı birgə fəaliyyətin əhəmiyyətindən danışıblar.

Sessiya öz işini bu gün davam etdirəcək.

*"Azərbaycan"*

# Azərbaycan-Türkiyə münasibətləri özünün ən yüksək səviyyəsinə çatıb

**Milli Məclisin Sədri Sahibə Qafarova İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının Bakıda keçirilən 20-ci Sessiyası çərçivəsində Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə yüksək səviyyədə inkişafından məmnunluq ifadə olunub. Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutan Azərbaycan və Türkiyənin bütün məsələlərdə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirdiyi diqqətə çatdırılıb. Spiker Sahibə Qafarova bildirib ki, prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında qarşılıqlı hörmət və etimada əsaslanan qardaşlıq münasibətlərinin, onların siyasi iradəsinin və qətiyyətinin nəticəsidir ki, münasibətlərimiz özünün ən yüksək səviyyəsinə çatıb.

Görüşdə ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsində parlamentlərin də vacib rolu qeyd olunaraq, bu istiqamətdə mövcud olan əlaqələrin səviyyəsindən məmnunluq ifadə edilib. Parlament sədrləri arasında qarşılıqlı səfərlərin və görüşlərin, o cümlədən deputatlar arasında sıx təmasların bu əlaqələrə mühüm töhfələri vurğulanıb. Qeyd olunub ki, qanunverici orqanlarımız parlament komitələri, dostluq qrupları və parlament aparatları səviyyəsində əməkdaşlıq həyata keçirirlər. Eyni zamanda parlamentlərimizin həm ikitərəfli, həm də üçtərəfli formatlarda əməkdaşlıq etdiyi, o cümlədən beynəlxalq parlament təşkilatlarında birgə fəaliyyət göstərdikləri diqqətə çatdırılıb.

Söhbət zamanı Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdüyünü məmnunluqla xatırladaraq, görüş barədə müsbət təəssüratlarını bölüşüb.

Türkiyə Böyük Millət Məclisinin Sədri İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının yüksək səviyyədə təşkilinə görə minnətdarlıq bildirərək, bu mühüm tədbirin İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində tərəfdaşlığın genişləndirilməsi və üzv ölkələrin parlamentləri arasında münasibətlərin daha da dərinləşdirilməsi baxımından əhəmiyyətini qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova İran İslam Şurası Məclisinin Sədri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının Bakıda keçirilən 20-ci Sessiyası çərçivəsində İran İslam Respublikası İslam Şurası Məclisinin Sədri Məhəmməd Baqir Qalibaf ilə görüşüb.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri qonağı salamlayaraq, Məhəmməd Baqir Qalibafla əvvəlki görüşlərini məmnunluqla xatırladıb.

Spiker Sahibə Qafarova İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqının mühüm rolunu qeyd edib və bu konfransın həm çoxtərəfli, həm də ikitərəfli əlaqələrin müzakirəsi üçün yaxşı imkan yaratdığını söyləyib. İran İslam Respublikası İslam Şurası Məclisi Sədrinin bu səfərinin də parlamentlərarası əlaqələrin inkişafına töhfə verəcəyinə inam ifadə edilib.

Söhbət zamanı Azərbaycan və İran arasında münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub. Milli Məclisin Sədri Sahibə Qafarova əlaqələrin bundan sonra da iki dost və qonşu ölkə arasında münasibətlərə uyğun şəkildə inkişaf edəcəyinə inamını bildirib. Qeyd olunub ki, hazırda iki ölkə arasında müxtəlif layihələr həyata keçirilir, yeni əməkdaşlıq perspektivləri nəzərdən keçirilir və bütün bunlar ikitərəfli əməkdaşlığın daha da inkişafına təkan verəcək.

Görüşdə regionda baş verən son proseslər də müzakirə olunub. Spiker Sahibə Qafarova ümidvar olduğunu bildirib ki, aparılan danışıqlar regionda gərginliyin azalmasına, davamlı sülhün və sabitliyin təmin olunmasına xidmət edəcək. Eyni zamanda diqqətə çatdırılıb ki, məlum hadisələr zamanı Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycan İrana ilk humanitar yardım göndərən ölkə olub. Milli Məclisin Sədri qeyd edib ki, Prezident İlham Əliyev İran səfirliyinə gələrək matəm kitabını imzalayıb və xarici ölkədəki İran səfirliyinə gedən yeganə dövlət başçısı məhz Azərbaycan Prezidenti olub.

Görüşdə parlamentlərarası əlaqələrin iki ölkə arasındakı münasibətlərdə özünəməxsus rolu qeyd olunaraq, tərəflərin parlamentlərarası əlaqələrin daha da genişləndirilməsində maraqlı olduqları diqqətə çatdırılıb.

Söhbət zamanı Azərbaycan Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla telefonla danışıqları, həmçinin müxtəlif səviyyələrdə digər təmaslar qeyd olunub. İran İslam Respublikası İslam Şurası Məclisinin Sədri Məhəmməd Baqir Qalibaf Prezident İlham Əliyevin İranın ölkəmizdəki səfirliyinə gələrək, İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar başsağlığı verməsini, matəm kitabını imzalamasını yüksək qiymətləndirib və buna görə təşəkkürünü ifadə edib. O, müharibə dövründə Azərbaycan dövləti və xalqının atdığı addımlara, göstərdiyi humanitar yardımlara görə minnətdarlığını bildirib və bunların İran xalqı üçün çox dəyərli olduğunu vurğulayıb.

İran Parlamentinin Sədri qeyd edib ki, onun Azərbaycana səfəri və tədbirdə iştirakı da bu təşəkkürün ifadəsidir. O, göstərilən dəstəyə və yardıma görə Azərbaycan Prezidentinə, dövlətinə və xalqına təşəkkür edib.

Qonaq son bir il ərzində Azərbaycan və İran arasında əlaqələrdə daha böyük inkişafın müşahidə olunduğunu, xüsusilə iki ölkənin prezidentləri arasında müntəzəm təmasları vurğulayıb.

Məhəmməd Baqir Qalibaf, həmçinin İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının uğurla təşkil olunduğunu vurğulayıb və İƏT Parlament İttifaqında növbəti dövr üzrə sədrlik fəaliyyətində Milli Məclisin Sədrinə uğurlar arzulayıb. O, regionda müsəlman ölkələri arasındakı münasibətlərin əhəmiyyətini qeyd edib.

İran Parlamentinin Sədri qanunvericilik orqanları arasında münasibətlərin mövcud səviyyəsindən razılığını bildirərək, əlaqələrin daha da genişlənməsinin parlamentlərarası əməkdaşlığın inkişafına mühüm təsir göstərəcəyini söyləyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Parlamentlərin qarşılıqlı əlaqəsi ölkələrimiz arasında münasibətlərə mühüm töhfə verir

**Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 24-də İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Oman Sultanlığı Şura Məclisinin Sədri Xalid Hilal Nasir Əl-Maavali ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən veriləb məlumata görə, söhbət zamanı bildirilib ki, parlamentlərin qarşılıqlı əlaqəsi ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm töhfə verir. Görüşdə qanunverici orqanlarımızın beynəlxalq parlament təşkilatlarında da birgə əməkdaşlığı qeyd olunub. O cümlədən, Parlamentlərarası İttifaq, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı kimi təşkilatlarda qarşılıqlı dəstəyin əhəmiyyəti ifadə edilib. Spiker Sahibə Qafarova Omanın Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin işində yaxından iştirakından məmnunluğunu bildirib.

Oman Sultanlığı Şura Məclisinin Sədri Xalid Hilal Nasir Əl-Maavali göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə görə minnətdarlığını ifadə edərək, İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının yüksək səviyyədə təşkilinə görə Azərbaycana təşəkkür edib və bu tədbir çərçivəsində müzakirə olunan məsələlərin əhəmiyyətindən danışıb. Qonaq ölkəsinin Azərbaycanla münasibətlərin inkişafında maraqlı olduğunu və bir çox sahədə əməkdaşlığın inkişafı üçün yaxşı imkanların mövcudluğunu bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# İnsan hüquqları komitəsinin iclası keçirilib

**İyunun 24-də Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasın gündəliyinə beş məsələ daxil edilib.**



Tədbirdə komitənin sədri Zahid Oruc məsələləri təqdim edib. O, əvvəlcə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə əlaqədar məlumat verib. Bildirilib ki, qanunda təklif edilən dəyişikliklər Azərbaycanın rəqəmsal suverenliyinin, virtual sərhədlərinin hüquqi əsaslarını gücləndirməyə xidmət edir. Layihə kibertəhlükəsizliklə bağlı risklərin əvvəlcədən aşkarlanmasını, insident zamanı xidmətlərin davam etdirilməsini və sistemlərin operativ bərpasını nəzərdə tutur.

Nəzərə çatdırılıb ki, layihəyə əsasən, qanuna informasiya infrastrukturu, informasiya infrastrukturu subyekti, kibertəhlükəsizlik, kiberməkan, kibergigiyena, rəqəmsal dəlil, rəqəmsal tədqiqat, kompüter insidentlərinə qarşı mübarizə mərkəzi (CERT), Təhlükəsizlik əməliyyatları mərkəzi (SOC), Milli CERT, Dövlət CERT və digər yeni anlayışlar əlavə edilir. Sənəddə dövlət orqanlarının, informasiya infrastrukturu subyektlərinin, CERT və SOC-ların kibertəhlükəsizlik sahəsində hüquq və vəzifələri müəyyən edilir, kibertəhdidlərin, kiberhücumların və kiberinsidentlərin aşkarlanması, qarşısının alınması, araşdırılması və aradan qaldırılması üzrə fəaliyyət mexanizmləri təsbit olunur. Həmçinin informasiya infrastrukturunun kibertəhlükəsizliyinin təmin olunması, kibertəhlükəsizlik üzrə monitorinq və auditlərin aparılması, kiberinsidentlər barədə məlumat mübadiləsinin həyata keçirilməsi, rəqəmsal tədqiqatların aparılması, rəqəmsal inkişaf layihələrinin maliyyələşdirilməsi ilə bağlı müddəalar müəyyən edilir.

Sonra komitənin sədr müavini Arzuxan Əlizadə, komitə üzvləri Bəhruz Məhər-rəmov, Vüqar Rəhimzadə, Elman Nəsirov, Sevil Mikayılova, Tural Gəncəliyev, parlament Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid məsələ barədə fikirlərini açıqlayıblar. Çıxışçılar qanun layihəsinin ölkədə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sisteminin təkmilləşdirilməsi, kibertəhdidlərə qarşı mübarizənin effektivliyinin artırılması, informasiya infrastrukturunun dayanıqlılığının gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini söyləyiblər.

Tədbirdə iştirak edən rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov, Milli Kibertəhlükəsizlik Agentliyi İdarə Heyətinin sədri Fərid Zeynalov, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Hüquq şöbəsinin müdiri Novruz Orucov da öz fikirlərini bölüşüblər. Bildirilib ki, 2023-2027-ci illəri əhatə edən informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə Dövlət Strategiyası qəbul olunub, bununla bağlı müxtəlif islahatlar həyata keçirilir. Bundan əlavə, 2026-2028-ci illəri əhatə edən rəqəmsal inkişafla bağlı Fəaliyyət Planında da kibertəhlükəsizliklə bağlı məsələlər öz əksini tapıb. Həmin Fəaliyyət Planının icrası ilə əlaqədar qanunvericiliyin təkmilləşdirilməsi nəzərdə tutulur. Təqdim edilən layihədə mühafizə tədbirlərinin görülməsi və gələcəkdə baş verə biləcək hadisələrin qarşısının alınması üçün rəqəmsal tədqiqat fəaliyyəti ilə bağlı məsələlərin ehtiva olunduğu qeyd edilib. Kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində kadr hazırlığı məsələlərinin vacibliyindən söhbət açılıb.

Sonra Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) baxılıb. Sənəddə "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunun 13-3-cü maddəsindəki dəyişikliyə əsasən, qanunun 13-2.3.5-13-2.3.9-cu və 13-2.3.10-1-ci maddələrində göstərilən informasiyaların yerləşdirilməsi hallarında internet informasiya ehtiyatına və ya onun müvafiq hissəsinə müraciət müvafiq icra hakimiyyəti orqanının qərarı əsasında müvəqqəti olaraq məhdudlaşdırılacaq.

Gündəliyin növbəti məsələsi - "Dövlət qulluğu haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə əlaqədar bildirilib ki, sənəddə vahid qurumun - Media və Yayım Şurasının yaradılması nəzərdə tutulur. Şura ilə bağlı vəzifə və öhdəliklər "Media haqqında" qanunda öz əksini tapıb.

İclasda habelə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) nəzərdən keçirilib. Qanun layihəsində uşaqların rəqəmsal mühitdə hüquqlarının müdafiəsinin gücləndirilməsi, təhlükəsiz informasiya mühitinin formalaşdırılması, sosial şəbəkə platformalarının fəaliyyətinə dair hüquqi mexanizmlərin təkmilləşdirilməsi ilə bağlı məsələlər ehtiva olunur.

Komitədə Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə də (üçüncü oxunuş) baxılıb. Layihədə məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə yaşayış sahələrinə köçürülməsi, onların mülkiyyət hüququnun təmini ilə bağlı məsələlər müəyyənləşdirilir.

İclasın gündəliyində olan qanun layihələrinin hər biri Milli Məclisin iclasına tövsiyə olunub.

Tədbirdə komitənin üzvü Mircəlil Qasımlı, parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# Seneqal Milli Assambleyasının nümayəndə heyəti ilə görüş

**İyunun 24-də Milli Məclisin deputatları İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyası çərçivəsində ölkəmizdə səfərdə olan Seneqal Milli Assambleyasının nümayəndə heyəti ilə görüşüblər.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə deputat Ceyhun Məmmədov Azərbaycanın bir sıra beynəlxalq parlament təşkilatlarının fəal üzvü kimi əməkdaşlığa xüsusi önəm verdiyini bildirib. O, parlamentlərarası əlaqələrin inkişafının vacibliyini diqqətə çatdıraraq qeyd edib ki, parlamentarilərin birgə səyləri və qarşılıqlı təmasları ölkələr arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə mühüm töhfə verə bilər.

Seneqal Milli Assambleyasının deputatı, nümayəndə heyətinin rəhbəri Elhaci Ababakar Tambedu Azərbaycanda göstərilən yüksək qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirib. O, Azərbaycanda müşahidə edilən sabitlik və təhlükəsizlik mühitini yüksək dəyərləndirib. İki ölkə arasında əlaqələrin yalnız parlament sahəsində deyil, digər istiqamətlərdə də genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb. Elhaci Ababakar Tambedu Bakıda keçirilən İƏT Pİ Konfransının 20-ci Sessiyasının yüksək səviyyədə təşkil edildiyini, tədbirdə müzakirə olunan məsələlərin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Söhbət zamanı deputatlar Tənzilə Rüstəmxanlı və Nigar Məmmədova Azərbaycan ilə Afrika ölkələri arasında əlaqələrin inkişafının, habelə parlamentlərarası əməkdaşlığın genişləndirilməsinin önəmli olduğunu qeyd ediblər.

Görüşdə Azərbaycanla Seneqal arasında mövcud dostluq münasibətləri, parlamentlərarası əlaqələrin hazırkı vəziyyəti və gələcək inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Beynəlxalq parlament platformalarında müntəzəm təmasların əməkdaşlığın inkişafına töhfə verdiyi söylənilib. Qarşılıqlı maraq doğuran digər məsələlərə də toxunulub.

*"Azərbaycan"*

# Milli yaddaşın yaddaşındakılar

*Hər bir millətin və xalqın özünəməxsus tarixi yaddaşı olur.*

*Mövcudluğu dövründə başına gələn və ya gətirilən hadisələr və faktlardan ibarət yaddaş...*

*Buna milli yaddaş da deyirlər.*

Milli yaddaşa yazılan hadisələrin bir qismi müxtəlif insanlar tərəfindən zamanında yazıya alınaraq saxlanılır.

**Digər qismi isə şifahi şəkildə, nəsillərdən-nəsillərə ötürülməklə hifz olunur.**

**Yaddaşsızlığın hər bir millət üçün haçansa faciəyə çevrilməsi də mümkündür.**

**Əgər nə vaxtsa başına gətirilənləri unudaraq yaddan çıxarsa.**

*Çünki belə halda hadisə və fəlakətlər yenidən təkrarlana bilər.*

Milli yaddaşın formalaşmasına kənardan da təsirlər olur.

Hətta təhriflər də mümkündür.

Çünki kimlərsə tutduğu əməllərin olduğu kimi deyil, təhrif olunmuş şəkildə yaddaşlarda qalmasına can atır.

**Məsələn, sovetlərin mövcud olduğu 70 il ərzində "sovet adamları"na, xüsusən gənc nəslə qəbul etdirmək istəyirdilər ki, Rusiyanın XI Qızıl Ordusu Azərbaycanı işğal etməyib, Azərbaycana azadlıq, "kommunizm idealları"nı gətirib.**

*Varlıların, bəylərin və xanların mal-mülkünün əllərindən alınaraq dövlətləşdirilməsini isə ədalətsizlik və soyğunçuluq yox, "sinfi mübarizə" kimi qələmə verirdilər.*

*Guya onlar xalqın düşmənləri idilər.*

Varlıların ailəliklə cəzalandırılmasını - sürgünə, həbsxanaya göndərilməsini və güllələnməsini isə "xalq düşmənlərinə qarşı mübarizə" adlandırırdılar.

**"Xalq düşməni" damğası vuraraq cismən məhv edilən azərbaycanlı ziyalılara sonradan bəraət verilməsi isə, əslində, caniliyin, cəlladlığın və qəddarlığın etirafı idi.**

*Xalq bələlərini öz yaddaşında "düşmən" obrazında deyil, işıqlı sima, haqq və ədalət uğrunda mübarizənin günahsız qurbanları kimi yaşadırdı.*

**Azərbaycan xalqı dövlət müstəqilliyi qazandıqdan sonra keçmişdə baş verənləri doğru-düzgün qiymətləndirərək əsl həqiqəti və ədaləti bərpa etdi.**

❖ ❖ ❖

Hər bir xalqın müəyyən əraziyə malik olması, hansısa torpaqda yerləşməsi mühüm şərtdir.

Ərazisi və torpağı olmayan xalq haylar kimi qaraçı həyatı sürməyə, dünyanın bütün ölkələrinin ərazilərinə səpələnməyə, ən yaxşı halda isə oğurluq torpaq hesabına özünə dövlət düzəltməyə məhkumdur.

İkinci mühüm şərt həmin ərazilərdə məskunlaşan insanların yaşaması və saxlanılması üçün kifayət qədər yeraltı və yerüstü sərvətlərin mövcudluğu, iqlim şəraitinin əkin-biçinə yararlı olmasıdır.

Yoxsa hamı həmin ərazini tərk edər.

Bütün bunlardan sonra dövlət qurmaq və onu yaşatmaq üçün kifayət qədər ağıllı, savadlı, vətənpərvər övladlara sahib olmalısan.

**Bu aspektdən yanaşanda Azərbaycan həm bəxti gətirmiş, həm də bəlalı bir ölkə sayılır...**

*Tanrı bizə hər şeyi səxavətlə verib:*

* Dünyada mövcud olan on iki iqlimdən doqquzunu;

* Zəngin yeraltı və yerüstü təbii sərvətləri;

* Vətənini, torpağını, xalqını sevən, dövrün və zamanın hadisələrindən dərindən baş çıxaran ağıllı, bilikli və bacarıqlı, vətənpərvər övladları;

* Azərbaycanın əlverişli geosiyasi mövqedə, Avropa ilə Asiyanın qovşağında yerləşməsi onun dəyərini daha da artırır.

**Tanrının bizə qismət etdiyi təbii sərvətlər və əlverişli mövqe daim qonşu dövlətlərin ağzını sulandırıb, ona sahib çıxmaq üçün min bir oyuna əl atanların, zorakılıqlardan belə çəkinməyənlərin mövcudluqlarını şərtləndirib.**

*Bütün bunlar isə xalqımızın tarixinə faciəvi və fəlakətli hadisələrin yazılmasına, onun sadiq övladlarının müsibətlərlə üzləşmələrinə səbəb olub.*

**Başqa sözlə desək, milli yaddaşımıza həkk edilən çoxsaylı hadisələrlə nəticələnib.**

❖ ❖ ❖

Təbii ki, kiçik bir qəzet məqaləsində xalqımızın taleyüklü məqamları ilə bağlı bütün məsələləri əhatə etmək qeyri-mümkündür.

Lakin mühüm və başlıca məqamlara toxunmağa çalışacağıq.

**Xanlıqlar dövründə Azərbaycan gah İranın, gah da Rusiyanın tərkibində olub.**

*Başqa sözlə, onun taleyini özü deyil, özgələri həll ediblər.*

*Lakin xalqımızın işıqlı zəka sahibləri daim müstəqilliyə can atıb, müstəqil dövlət yaratmaq arzusunda olublar.*

Belə bir niyyətin qarşısını isə bizə ağalıq etmək istəyənlər müxtəlif üsul və vasitələrlə almağa çalışıblar.

Özü də bu mənfur addımlar təkcə Azərbaycana qarşı deyil, bütün türk dünyasına qarşı yönəldilib.

**Bu məsələdə Rusiyanın xüsusi "xidmət"ləri olub.**

*Çar və sovet Rusiyası Azərbaycanı öz tabeliyində saxlamaqdan ötrü hərbi işğaldan tutmuş müxtəlif məkrli tələ və planlardan "məharət"lə istifadə edib.*

Dövr və zaman dəyişdikcə, Azərbaycan xalqı öz arzusunu gerçəkləşdirmək yönündə əməli addımlar atdıqca, bizi müstəqil dövlət qurmaqdan yayındırmaq, daim itaət boyunduruğunda saxlamaq üçün bütün vasitələrdən istifadə olunub.

**XIX və XX əsrlərdə başımıza gətirilən və milli yaddaşımıza həkk olunan hadisələri heç zaman unutmamışıq və unutmamalıyıq da!**

Tarixi yaddaşımızın səhifələrini yığcam şəkildə nəzərdən keçirək.

*Faktlar özü hər şeyi açıq şəkildə danışır:*

* Ermənilərin Cənubi Qafqaza köçü 300 il bundan öncə - 1724-cü ildə I Pyotrun fərmanı ilə başlayıb.

* "Türkmənçay" sülh müqaviləsinə əsasən (1828-ci il), ilkin olaraq 40 min erməni Azərbaycanın müxtəlif bölgələrinə köçürülüb.

* Sovet Rusiyası çar Rusiyasının ermənilərin Azərbaycan ərazilərində yerləşdirilməsi və bizim torpaqlar hesabına onlara dövlət yaradılması prosesini davam etdirib.

* 7 iyul 1923-cü ildə heç bir əsas və zərurət olmadan Moskvanın iradəsi ilə Azərbaycanın tərkibində erməni muxtariyyəti - DQMV adlı qondarma qurum yaradıldı.

* SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları əsasında 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi şəkildə və zorakılıqla Azərbaycana deportasiya edildi.

* 1918-ci ildə bolşevik-daşnak birləşmələri Bakıda, habelə Şamaxı, Quba və Lənkəranda dinc əhaliyə qarşı soyqırımları törətdilər.

* 22 fevral 1988-ci ildə Bəxtiyar və Əli adlı iki ağdamlı gəncin öldürülməsi ilə Ermənistanla Azərbaycan arasında Qarabağ uğrunda müharibə başladı.

* Həmin dövrdə ölkəyə maymaq və qorxaqların, AXC-Müsavat cütlüyü kimi təcrübəsiz, səriştəsiz və bacarıqsız insanların başçılıq etmələri səbəbindən vaxtında ordu yaradılmadı, torpaqların müdafiəsi təşkil edilmədi və nəticədə ölkə ərazisinin 20 faizi erməni-rus hərbi birləşmələri tərəfindən işğal olundu.

* AXC-Müsavat iqtidarının müdafiə naziri R.Qazıyev xalqına və vətəninə qarşı xəyanət əməlləri törətdi, Şuşa, Laçın və Kəlbəcərin düşmənə verilməsinə şərait yaratdı, xalqa verdiyi sözünə - "Şuşa əldən getsə, başıma güllə çaxacam" vədinə əməl etmədi.

* ABŞ Konqresi 1992-ci ildə Azərbaycana qarşı çox böyük ədalətsizlik törətdi, Ermənistan silahlı qüvvələri bizim ərazilərimizi işğal etdiyi halda bizə qarşı 907-ci düzəlişi tətbiq etdi.

* BMT-nin Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini qeyd-şərtsiz tərk etmələri ilə bağlı qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələri yerinə yetirmədi.

* Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məqsədilə yaradılan ATƏT-in Minsk qrupu 30 il ərzində heç bir iş görmədi, ikiüzlülük, riyakarlıq, ikili standartlar təbiqçisi və fərsiz bir qurum kimi tarixin zibilliyinə, qara arxivinə verildi.

* ATƏT-in həmsədr dövlətləri (onlar həm də BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvləridir) ABŞ, Rusiya və Fransa münaqişənin sülh yolu ilə həllinə heç bir kömək göstərmədilər, əksinə, riyakarlıq edərək hayları bir çox məqamda müdafiə etdilər, onlara maliyyə, hərbi və siyasi dəstək verdilər.

* 2016-cı ilin dördgünlük Aprel müharibəsində ilk dəfə Azərbaycan Ordusu hərbi qüdrətini nümayiş etdirdi!

* 2020-ci ildə Azərbaycan qazının "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya nəqlinə başlanıldı!

> "Ermənistanın işğalçı qüvvələrinin xalqımıza və şəhərlərimizə qarşı törətdiklərini heç vaxt unutmayacağıq. Onların 65 məscidi dağıtmasını, xalqımızın dini hisslərini təhqir etmək məqsədilə məscidlərdə heyvan, o cümlədən donuz saxlamalarını heç vaxt unutmayacağıq. Biz Xocalı soyqırımını da heç vaxt unutmayacağıq. Lakin gələcəyə baxmağı bacarmalıyıq. Biz qisasımızı döyüş meydanında aldıq və bu kifayətdir. Müharibə dayanmalı idi və onu dayandıran da biz olduq. Güclü tərəf olaraq biz müharibəyə son qoyduq və sülh təklif etdik. Beləliklə, bu gün sülh artıq reallıqdır".
>
> **İlham ƏLİYEV**



* Azərbaycan I Avropa (2015-ci il), VII İslam Həmrəyliyi (2017-ci il) oyunlarını, COP29 və WUF13 tədbirlərini ən yüksək səviyyədə keçirdi.

* 25 dekabr 2024-cü ildə Bakıdan Qroznıya uçan AZAL-a məxsus sərnişin təyyarəsi Rusiya tərəfindən vurularaq qəzaya uğradıldı.

**Yaxın tariximizin iki parlaq səhifəsi də olub:**

* Ulu Öndər Heydər Əliyev 15 iyun 1993-cü ildə xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdaraq müasir Azərbaycan dövlətini qurdu;

* Müzəffər Ali Baş Komandan İlham Əliyev ikiəsrlik Qarabağ münaqişəsinə 44 gündə Zəfərlə son qoydu!

Bu yığcam milli yaddaşımızı Müzəffər Ali Baş Komandan İlham Əliyevin zəngilanlılarla görüşündə (10 may 2026-cı il) söylədiyi nitqindən bir iqtibasla bitirmək istəyirik:

*"Bütün bu şanlı tarix bizimlə əbədi olacaq. Təbii ki, bizim nəsil bunu heç vaxt unutmayacaq, gənc nəsil isə bunu bilməlidir - məktəblərdə, ailələrdə, cəmiyyətdə. Bu parlaq tariximiz bizim qürur mənbəyimizdir, bu, əbədi belə olacaq".*

❖ ❖ ❖

**Milli yaddaşımızın ürəkparçalayan, qandonduran səhifələrindən birini işğal dövründə baş verən hadisələr təşkil edir.**

*Özünü "ən qədim xalq", "xristianlığı birinci qəbul etmiş millət", "mədəni xalq" adlandıran haylar 27 illik işğal dövründə törətdikləri vandallıq, barbarlıq və vəhşiliklərlə əsl simalarını ortaya qoydular.*

* Dinc əhaliyə qarşı Xocalıda, Qaradağlıda, Ballıca və Başlıbeldə, Bağanıs-Ayrımda soyqırımları törədildi, qocalar, qadınlar, uşaqlar vəhşiliklə qətlə yetirildi.

* Əsir düşmüş mülki vətəndaşlarımıza qarşı qəddarlıqlar törədildi, döyülərək öldürüldülər, əlil və şikəst edildilər, kəlbətinlə qızıl dişlərini çəkdilər.

* Ağdamı "ruhlar şəhəri"nə, qalan yaşayış məntəqələrini isə xarabalıqlara çevirdilər.

*İşğaldan sonra dünyanın hər yerindən Qarabağa gələn insanlar bütün bunları öz gözləri ilə gördülər.*

**Erməni barbarlığının 30 illik işğal dövründə vurduğu ziyanın faktlarda və rəqəmlərdə ifadəsi:**

* Birinci Qarabağ müharibəsi zamanı rəsmi məlumatlara görə, 11557 Azərbaycan hərbçisi şəhid olub.

* İtkinlər: Dövlət Komissiyasının məlumatına görə, 3890 nəfər Azərbaycan vətəndaşı itkin düşüb. Onlardan 3171 nəfəri hərbçi, 719 nəfəri mülki şəxsdir. Mülki şəxslərdən 71 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 267 nəfəri isə qadındır.

* 44 günlük Vətən müharibəsi və ondan sonra 3000 nəfərdən çox hərbi qulluqçumuz şəhid olub.

* Mina qurbanlarının sayı: Ümumilikdə Birinci Qarabağ müharibəsindən sonra 3000 nəfərdən çox Azərbaycan vətəndaşı mina qurbanı olub. İkinci Qarabağ müharibəsindən sonra 424 nəfər mina terrorunun qurbanına çevrilib. Onlardan 72 nəfəri həyatını itirib, 349 nəfəri xəsarət alıb. Həlak olanların 57 nəfəri mülki şəxs, 15-i isə hərbçidir. Xəsarət alanlardan isə 171 nəfəri mülki şəxs, 178 nəfəri hərbçidir.

* Ermənistan tərəfindən Qarabağ və Şərqi Zəngəzurda 700-dən çox tarixi abidə dağıdılıb və ya ciddi ziyan görüb.

* Mədəniyyət müəssisələri: 927 kitabxana, 22 muzey (o cümlədən 100 mindən çox eksponat) məhv edilib.

* Arxeoloji və memarlıq abidələri: 58 arxeoloji yaşayış yeri, 26 qala, müxtəlif məbədlər və saraylar vandalizmə məruz qalıb.

* Dini abidələr: İşğal dövründə 60-dan çox məscid dağıdılıb və ya təhqir edilib.

*Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində ətraf mühitə qarşı ekosid siyasəti yürüdərək ekoloji tarazlığı ciddi şəkildə pozub:*

* Meşələrin məhv edilməsi: 60 min hektardan çox meşə sahəsi qanunsuz olaraq qırılıb və yandırılıb.

* Ermənistanın işğal dövründə təbii resursları qanunsuz istismar etməsi nəticəsində dəyən ziyan 16 milyard manatdan (təqribən 9,5 milyard dollar) çoxdur.

* Su ehtiyatlarının çirkləndirilməsi: Oxçuçay Ermənistanın dağ-mədən sənayesinin tullantıları ilə zəhərlənib.

*İqtisadiyyat və infrastruktur:*

İşğal olunmuş ərazilərdə 900-dən çox yaşayış məntəqəsi, 6000-dən çox sənaye və kənd təsərrüfatı binası, 695 tibb müəssisəsi, 693 məktəb, 927 kitabxana, 855 uşaq bağçası, minlərlə kilometr kommunikasiya və elektrik xətləri dağıdılıb.

**İlkin hesablamalara və beynəlxalq ekspertlərin rəylərinə görə, 30 illik işğal dövründə dəymiş ziyanın ümumi miqdarı 800 milyard ABŞ dollarından çox qiymətləndirilir.**

❖ ❖ ❖

*Nə qədər xoş olmasa da, milli yaddaşımızın xəyanət səhifələri də var.*

*Bunlar isə müstəqillik uğrunda mübarizənin ilk illərinə təsadüf edir.*

Azərbaycan xalqı mərd xalqdır, dostluqda da daim etibarlıdır.

1941-1945-ci illər müharibəsi başlayanda o vaxtlar "böyük qardaş" sayılan Rusiyanı tək buraxmadı.

**Hitler faşizminə qarşı mübarizədə 600 mindən çox azərbaycanlı silaha sarılaraq "qızıl ordu"nun tərkibində döyüşdü, onların təqribən yarısı həlak oldu.**

**Bakı nefti müharibənin taleyinin həll olunmasında mühüm rol oynadı.**

Təəssüf ki, "böyük qardaş"ımız bütün bunları unutdu...

*Həm də nəinki unutdu, açıq şəkildə erməni faşizminin tərəfində dayanaraq onu pulsuz silah-sursatla təmin etdi, torpaqlarımızın işğalında hər cür yardım və kömək göstərdi...*

Hələ bu harasıdır...

Qırmızı imperiya laxlayaraq dağılanda Azərbaycanın müstəqil dövlət olmaq niyyətini görərək onu ciddi şəkildə cəzalandırmaq qərarına gəldi.

Digər müttəfiq respublikalara görk və nümunə olsun deyə...

**"Xilaskar ordu" növbəti dəfə işğalçı orduya çevrildi!**

1990-cı il yanvarın 20-də Kreml Azərbaycanın üzərinə ordu yeritdi, Bakı al qana boyandı, haqsızlığa qarşı etirazlarını bildirmək üçün küçəyə çıxan dinc sakinlər qanlarına batırıldılar, tank və zirehli transpartyorların təkər və tırtılları altında qoyuldular.

*"Şanlı Qızıl Ordu" xalqın müstəqillik istəyinin qarşısını ala bilməsə də, özünə olan etibarı birdəfəlik itirdi.*

**Digər xəyanət əməlləri isə "özümüzünkülər"dən gəldi.**

* "Xalq-Heydər" birliyinin qalib gələcəyini görən düşmənlərimiz "sapı özümüzdən olan baltalar"ı işə saldılar.

* 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə iki dəfə cəhd olundu!

**Hər dəfə Ulu Öndər Heydər Əliyev üzünü xalqa tutaraq insanları xəyanətkarlara qarşı birgə mübarizəyə səslədi.**

*Bir neçə saat ərzində yaşından və cinsindən asılı olmayaraq, on minlərlə insan sevimli rəhbərinin səsinə səs verdi, hamı küçə və meydanlara axışdı.*

Xalqın möhtəşəm birliyindən və kütləvi qəzəbindən qorxan xəyanətkarlar mənfur niyyətlərinə çata bilməyərək qaçıb gizləndilər.

**Milli yaddaşımıza isə belələrinin adları qara hərflərlə yazıldı.**

❖ ❖ ❖

Milli yaddışımızda tragikomik səhifələr də olub:

* 1992-ci ildə dövlət idarəçiliyindən xəbəri olmayanlar rəhbər vəzifələrə gəldilər:

* Bir gün belə "jek"ə müdirlik etməmiş şəxs prezident kürsüsündə əyləşdi;

* Bostan məhsulları üzrə "mütəxəssis" baş nazir oldu;

* "Elmlər namizədi" dissertasiyasını müdafiə edə bilməyən parlamentə rəhbərliyə başladı;

* "Ortabab riyaziyyat müəllimi" müharibə edən dövlətin müdafiə naziri təyin olundu, başına "kişi papağı" qoydu;

* Keçmiş OBXSS işçisi daxili işlər naziri vəzifəsini tutdu, bu vəzifədən yalnız jurnalistlərə "qəzet yedizdirmək" və onları maşının yük yerinə basmaq üçün istifadə edə bildi;

* Daxili işlər nazirinin müavini Rövşən Cavadov dövləti təhdidlərdən qorumaq əvəzinə OMON-çuları başına yığaraq dövlət çevrilişinə cəhd göstərdi.

*Sonda xalqın qəzəb və nifrətindən qorxaraq:*

* Uğursuz prezident postunu qoyub kəndinə qaçdı;

* İrili-xırdalı bütün vəzifələrdə oturan AXC-Müsavat iqtidarının biabırçı kadrları "vəzifələrini donduraraq" hərəsi bir tərəfə dağıldı.

**Azərbaycan tarixinin bu ironiyasından isə milli yaddaşımızda yalnız çoxsaylı və məzəli lətifələr qaldı.**

❖ ❖ ❖

*Milli yaddaşımızın qızıl səhifəsini isə 44 günlük müharibədə qazanılan Zəfər təşkil edir.*

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin mükəmməl hərbi-siyasi fəaliyyəti, müdrikliyi və uzaqgörənliyi, nəyi nə vaxt və necə etmək məharəti sayəsində müstəqil Azərbaycan ikiəsrlik Qarabağ münaqişəsinə birdəfəlik və əbədilik son qoydu!**

*Məhz İlham Əliyevin "dəmir yumruğ"u sayəsində:*

* İşğal altındakı torpaqlar azadlığa qovuşdu;

* Ölkənin ərazi bütövlüyü təmin edildi;

* Dövlət suverenliyi və Konstitusiya əsasları bərpa olundu;

* Hayların "Miatsum" hərəkatı iflasa uğradıldı;

* Ölkə ərazisindəki qeyri-qanuni hərbi birləşmələr və terrorçu qruplaşmaları ağ bayraq qaldıraraq qarşımızda diz çökdülər;

* Azərbaycan ərazisi erməni separatçılarından tamamilə təmizləndi;

* Azərbaycan qanunları əsasında ölkə ərazisində yaşamaq istəməyən erməni əhalisi torpaqlarımızı könüllü tərk etdi;

* Azərbaycana qarşı müxtəlif cinayətlər törətmiş keçmiş xunta başçıları açıq məhkəmə iclaslarında mühakimə edilərək ədalətli cəzalarına çatdırıldılar;

* Azərbaycan XXI əsrin müharibələr tarixində yeni səhifə açaraq müasir müharibə nümunəsi yaratdı;

* Bu gün isə cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağda və Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinin müasir nümunəsi yaradılmaqla, "Böyük qayıdış" proqramı sürətlə həyata keçirilir.

**Milli yaddaşımızın səhifələrinə sevinc və şərəf dolu yeni faktlar və hadisələr həkk edilməkdədir!**

**Bəxtiyar SADIQOV**

# Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir

# Pambıqçılıq: dirçəlişdən inkişafa

## Sabirabadda keçirilən regional müşavirədə bu mühüm sahənin intensiv inkişaf yolları araşdırıldı

**Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun gücləndirilməsi və regionların dayanıqlı inkişafının təmin edilməsi istiqamətində həyata keçirilən ardıcıl siyasət kənd təsərrüfatının ənənəvi sahələrinin də qarşısında yeni vəzifələr qoyur. Bu vəzifələr sırasında pambıqçılıq xüsusi yer tutur.**

Uzun illər ərzində ölkənin aqrar həyatında mühüm rol oynayan, minlərlə ailənin məşğulluğuna və rifahına töhfə verən pambıqçılıq artıq yeni inkişaf mərhələsinə qədəm qoyur. Müasir texnologiyalara, səmərəli idarəetməyə, elmi yanaşmaya və emal sənayesi ilə sıx inteqrasiyaya əsaslanan yeni inkişaf modeli pambıqçılığın iqtisadi əhəmiyyətini daha da artırmağı hədəfləyir.

Sabirabad rayonunda keçirilən regional müşavirə də məhz bu məqsədlərə xidmət edən mühüm tədbirlərdən biri oldu. Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda pambıqçılıq sahəsi üzrə müəyyən olunmuş hədəflərin müzakirəsinə həsr edilən müşavirə dövlət qurumlarının nümayəndələrini, pambıqçılıq üzrə ixtisaslaşmış rayonların rəhbərlərini, fermerləri, sahibkarları və pambıq şirkətlərinin nümayəndələrini bir araya gətirdi.

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev bildirdi ki, dövlət başçısının tapşırığına əsasən, iyunun 12-dən etibarən ölkənin 13 iqtisadi rayonunda yeni dövlət proqramının geniş müzakirələri keçirilib. Fermer və sahibkarların qatıldığı müzakirələr aqrar sahənin inkişafı istiqamətində yeni təşəbbüslərin formalaşmasına, dövlət və özəl sektor arasında əməkdaşlığın daha da möhkəmlənməsinə imkan yaradıb. Prezident Administrasiyasının rəsmisi çıxışında vurğuladı ki, son illər pambıqçılığın inkişafı istiqamətində həyata keçirilən sistemli tədbirlər nəticəsiz qalmayıb. Əkin sahələrinin optimallaşdırılması, dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, texnika təminatının yaxşılaşdırılması və aqrotexniki tədbirlərin gücləndirilməsi məhsuldarlığın yüksəlməsinə, kənd yerlərində məşğulluğun genişlənməsinə mühüm töhfə verib. Yeni dövlət proqramı isə artıq pambıqçılığın ekstensiv deyil, intensiv inkişaf modelinə keçidini nəzərdə tutur.




Kənd təsərrüfatı naziri Məcnun Məmmədov müşavirədə pambıqçılıq sahəsinin mövcud potensialından daha səmərəli istifadə olunmasının vacibliyini diqqətə çatdıraraq məhsuldarlığın yüksəldilməsi, klaster prinsipi əsasında inkişafın təmin olunması, texnika parklarının gücləndirilməsi və emal imkanlarının genişləndirilməsinin əsas prioritetlərdən olduğunu vurğuladı. Nazir pambığın yalnız xammal kimi deyil, əlavə dəyər yaradan məhsula çevrilməsinin qarşıdakı dövrün mühüm hədəflərindən biri olduğunu bildirdi.

Su təminatının yaxşılaşdırılması məsələsi də müşavirədə əsas müzakirə mövzularından biri oldu. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov qeyd etdi ki, son illər həyata keçirilən irimiqyaslı layihələr, yeni su mənbələrinin yaradılması, Şirvan və Qarabağ kanallarında aparılan yenidənqurma işləri pambıqçılıq rayonlarında məhsuldarlığın artmasına mühüm təsir göstərəcək. Müasir suvarma texnologiyalarının tətbiqi və su ehtiyatlarından səmərəli istifadə isə sahənin dayanıqlı inkişafının əsas şərtlərindəndir.

İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli isə pambıqçılığın qeyri-neft sektorunun inkişafında, ixrac potensialının genişləndirilməsində və regionlarda iqtisadi fəallığın artırılmasında mühüm rol oynadığını vurğuladı. Bildirdi ki, yeni iplik, parça və tekstil müəssisələrinin yaradılması əlavə dəyər zəncirinin genişlənməsinə, yeni iş yerlərinin açılmasına və ixrac gəlirlərinin artmasına xidmət edəcək.

Azərbaycan pambıqçılığının zəngin ənənələri var. Ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə respublikada pambıq istehsalı 1 milyon ton həddinə çatmış, Azərbaycan keçmiş ittifaqın aparıcı pambıqçılıq mərkəzlərindən birinə çevrilmişdi. Bu gün isə məqsəd həmin təcrübəni müasir texnologiyalar və innovativ yanaşmalarla birləşdirərək sahənin iqtisadi səmərəliliyini daha da artırmaqdır.

Müşavirədə pambıqçılıqla məşğul olan fermerlər və pambıqçılıq sahəsi ilə bağlı olan şirkətlərin nümayəndələrinin fikir və təklifləri də dinlənildi. Çıxış edənlər cari mövsümdə görülən işlər, məhsuldarlığın artırılması imkanları, su təminatının yaxşılaşdırılması, müasir aqrotexniki üsulların tətbiqi, texnika təminatı və dövlət dəstəyi mexanizmlərinin daha da təkmilləşdirilməsi ilə bağlı fikirlərini bölüşdülər. Qeyd olundu ki, son illər dövlətin aqrar sahəyə göstərdiyi hərtərəfli diqqət və dəstək pambıqçılığın inkişafı üçün yeni imkanlar açıb, kənd yerlərində məşğulluğun genişlənməsinə və fermerlərin iqtisadi marağının artmasına mühüm təsir göstərib. Çıxış edənlər qarşıya qoyulan hədəflərə nail olunacağına əminliklərini ifadə edərək aqrar sahənin inkişafına göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər, səsləndirdikləri təkliflərin yeni dövlət proqramının icrası prosesində nəzərə alınacağına inamlarını ifadə etdilər.

Sabirabadda keçirilən regional müşavirə bir daha göstərdi ki, pambıqçılığın inkişafı üzrə müəyyənləşdirilmiş hədəflərin həyata keçirilməsi üçün bütün imkanlar mövcuddur. Dövlət dəstəyi, fermerlərin zəhməti, müasir texnologiyalar və emal sənayesinin inkişafı qarşıdakı illərdə pambığın ölkə iqtisadiyyatına verdiyi töhfəni daha da artıracaq. Bu isə qeyri-neft sektorunun inkişafına, regionların sosial-iqtisadi tərəqqisinə və kənd insanının rifahının yüksəlməsinə xidmət edən mühüm amillərdən biri olacaq.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Ənənədən innovasiyaya

## Qusarda intensiv bağçılıq və müasir texnologiya yüksək məhsuldarlığı və ixrac potensialını təmin edir

**Qusar əlverişli təbii-iqlim şəraiti və zəngin kənd təsərrüfat ənənələri ilə seçilən bölgələrdəndir. Rayon iqtisadiyyatının əsas dayaqlarından olan kənd təsərrüfatı burada son vaxtlar müasir yanaşmalarla idarə olunur. Addımbaşı qarşılaşdığımız mənzərə də göstərir ki, Qusar iri kənd təsərrüfatı rayonlarından biri olmaqla yanaşı, müasir texnika və texnologiyalardan geniş yararlanan, yüksək ixrac potensialına malik məhsullar istehsal edən qabaqcıl rayonlar sırasındadır.**

Burada kənd təsərrüfatına yönəldilən investisiyalar əsasən yeni meyvə bağlarının salınmasına, müasir suvarma sistemlərinin qurulmasına, kənd təsərrüfatı texnikası və aqreqatlarının alınmasına, soyuducu anbarlarının tikintisinə və maldarlıq təsərrüfatlarının yaradılmasına xidmət edir. Hazırda rayon üzrə kənd təsərrüfatında 21000 nəfər əməkqabiliyyətli əhali çalışır ki, onların da 15800 nəfəri bitkiçilik, 5200 nəfəri heyvandarlıq sahəsində fəaliyyət göstərir.

Qusarda gözoxşayan bağlar çoxdur. Rayonda həm intensiv bağçılığın, həm də müasir tərəvəzçiliyin inkişafına xüsusi önəm verilir. Qusarda istehsal olunan ümumi məhsulun dəyərinin 53-55 faizi kənd təsərrüfatının payına düşür ki, intensiv bağçılıq bu sahədə xüsusi çəkiyə malikdir. Son illər köhnəlmiş, bioloji yaş həddini keçmiş meyvə bağları çıxdaş olunaraq onların yerində intensiv və superintensiv bağlar salınıb. Bununla yanaşı, tərəvəzçilik sahəsində də müasir suvarma sistemlərinin tətbiqi genişləndirilib. Həmin sistemlər su ehtiyatlarından daha səmərəli istifadə etməyə və məhsuldarlığı artırmağa imkan verir. Təsadüfi deyil ki, kənd təsərrüfatının inkişafı ilə bağlı 2026-2030-cu illəri əhatə edən yeni dövlət proqramında da müasir suvarma sistemlərinin tətbiqi, innovativ yanaşmaların genişləndirilməsi və səmərəliliyin artırılması əsas prioritetlər kimi müəyyənləşdirilib. Qusarda zəhmətin bəhrəsi statistik göstəricilərdə də özünü aydın büruzə verir. Rəsmi hesabatlara nəzər salsaq görərik ki, 2025-ci il ərzində rayonda ümumi məhsul istehsalının həcmi 471,1 milyon manat təşkil etmişdir və bu məbləğin 254,3 milyon manatı kənd təsərrüfatının payına düşmüşdür.

Rayonun kənd təsərrüfatı sahəsində əsas istiqamət olan bitkiçilik sahəsində son illər salınan intensiv və superintensiv bağ sahələri xüsusi qeyd olunmalıdır. Müasir meyvə bağlarının salınmasında əsas məqsəd xarici bazarlara çıxarıla bilən, rəqabətədavamlı məhsul istehsal etməkdir. Amma yerli mütəxəssislərlə söhbətdə bəzi narahatlıqlar da dilə gətirildi. Qusarda son illər bağçılıq sahəsinin sürətli inkişafı taxılçılıq sahəsinin xeyli geriləməsinə səbəb olmuşdur.

Qusarda kənd təsərrüfatının inkişafında vacib məqamlardan biri soyuducu anbar kompleksləridir. Əvvəllər meyvəçilik sahəsində mövcud olan əsas problemlərdən biri istehsal edilən məhsulun saxlanılması üçün zəruri şəraitin olmaması idi. Bu amil fermerlərin məhsulu uzun müddət qoruyub saxlamaq imkanlarını məhdudlaşdırır, bazara çıxarılmasında çətinliklər yaradırdı. Lakin dövlətin dəstəyi nəticəsində fermer və sahibkarlar tərəfindən soyuducu anbar komplekslərinin tikintisinə xüsusi diqqət yetirilməyə başlanmışdır. Hazırda rayonda 27 fiziki və hüquqi şəxsə məxsus, ümumi tutumu 92300 ton olan xırda və irihəcmli soyuducu anbar kompleksləri var. Müşahidələrimiz göstərdi ki, bu sahəyə maraq getdikcə artır və növbəti illərdə yeni anbarların istifadəyə verilməsi nəzərdə tutulur.

Rayonda yeni bağların bir hissəsi biçənək və təyinatı dəyişdirilmiş torpaq sahələri hesabına salınıb. Bunun nəticəsində rayonda bitkiçilik və heyvandarlıq sahələri paralel inkişaf edə bilmir. Bu vəziyyət malqaranın yem bazasının azalmasına səbəb olur. Nəticə etibarilə rayonun əksər kəndlərində qaramalın və davarın baş sayı xeyli azalıb. Mal-qaranın azalması təsərrüfatlarda üzvi gübrələrdən istifadənin də aşağı səviyyəyə düşməsinə gətirib çıxarıb.

Fermerlərlə söhbətimizdə dövlətin maliyyə dəstəyindən razılıq ifadə olundu. Bu məqamda xatırladaq ki, Azərbaycan Prezidentinin 27 iyun 2019-cu il tarixli fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na əsasən, 2020-ci ilin yanvar ayından etibarən subsidiyaların verilməsi Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) vasitəsilə həyata keçirilir. Bu şəffaflıq fermerlərin işini xeyli asanlaşdırıb.









2025-ci il ərzində Qusar rayonu üzrə ümumilikdə 13,2 milyon manat subsidiya ödənilmişdir.

Qusar Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) direktoru Rauf Minhacov qəzetimizə kənd təsərrüfatı sahəsində rayon üzrə bu ilin 6 ayı ərzində görülmüş işlər barədə ətraflı məlumat verdi. Bildirdi ki, rayonda 2026-cı ilin məhsulu üçün 18866,8 hektar sahədə payızlıq taxıl əkilmişdir. Bunun 9191,8 hektarı buğda, 9675 hektarı arpa sahələridir. Bağlarda gedən intensiv işlərdən də söz açan DAİM direktoru qeyd etdi ki, cari ilin 6 ayı ərzində rayon ərazisində 736,2 hektar ənənəvi və intensiv meyvə bağları salınmışdır: "Bunun 157,52 hektarı gilas, 41,76 hektarı fındıq, 298,08 hektarı nektarin və şaftalı, 174,73 hektarı alma, 64,11 hektarı digər meyvə bağlarıdır. Rayon ərazisində həmçinin 2856,6 hektarda tərəvəz əkini aparılmışdır ki, onun da 1548,5 hektarı kartof, 484,1 hektarı kələm, 438,8 hektarı pomidor, 112,5 hektarı xiyar, 272,7 hektarı digər tərəvəzlərdir".

Qusarda lizinq və texniki baxış sahəsində də canlanma var. Rayon ərazisində fəaliyyət göstərən fermerlər tərəfindən 6 ayda 75 traktor və 71 müxtəlif qoşqu və avadanlıq lizinq yolu ilə alınmışdır. Sahələrdə nizam-intizamı qorumaq üçün 524 texnikaya texniki baxış keçirilmiş, 212 texnikanın ilkin və təkrar qeydiyyatı aparılmış, 17 inzibati protokol tərtib edilmiş və 233 texnika texniki müayinədən keçirilmişdir.

Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması istiqamətində isə 6 ay ərzində 3227 baş qaramalda süni mayalanma aparılmış və 2120 baş buzov alınmışdır. Cins heyvanların alınmasına maraq göstərən fermerlərin müraciətləri də mərkəz tərəfindən araşdırılır. Kuzunqışlaq kənd sakini Qurbanov Qiyaməddin 1 baş, Avaran kənd sakini Niftəliyeva Pərinaz 20 baş, "Şahdağ Fermer Təsərrüfati" MMC 150 baş qaramal damazlıq heyvanın 60 faiz güzəştlə lizinq yolu ilə alınması üçün Qusar Dövlət Aqrar İnkişaf Mərkəzinə müraciət etmişlər. Qusar DAİM-in və rayonun Heyvan sağlamlığı və Baytarlıq Xidmətləri İdarəsinin nümayəndələri tərəfindən fermerlərə məxsus təsərrüfatlara yerində baxış keçirilmiş və baxış nəticələrinə uyğun rəylər verilmişdir.

Qusarda yerli fermerlərə hər cür diqqət göstərilir, yardımlar olunur. Əlaqədar təşkilatlar vaxtaşırı fermerlərlə görüşür, ortaya çıxan problemləri yerindəcə həll edir. Hazırda 50-dən artıq şirkət rayonda fermerlərin işinə geniş dəstək verir.

Rayon alma, armud, fındıq, gilas və digər meyvə bağlarının salınması istiqamətində mühüm potensiala malikdir. Dövlət tərəfindən tətbiq olunan birdəfəlik əkin subsidiyaları rayonda yeni bağların salınmasını ciddi şəkildə stimullaşdırmış və bağçılığın inkişafına birbaşa müsbət təsir göstərmişdir. Rəsmi rəqəmlər də bu dəstəyin miqyasını təsdiqləyir. 2024-2025-ci əkin ilində alma, armud, fındıq və gilas bağlarının salınmasına görə 221 fermerə 369,94 hektar sahə üzrə ümumilikdə 2,4 milyon manatdan çox subsidiya verilmişdir. Sahədə rastlaşdığımız fermer Müzafəddin Rəfixanov 20 ilə yaxındır ki, sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Qabaqcıl fermer kimi tanınan Müzafəddin 10 hektarda nektorin və gilas yetişdirir. Bizimlə söhbətində o, keçmiş günləri xatırlayaraq çətinliklərin geridə qaldığını dedi: "Əvvəllər müəyyən çatışmazlıqlar var idi. Amma işdən möhkəm yapışanda həmin problemləri dəf etmək olurdu. İndi isə həm problemlər azalıb, həm də onları həll etmək asanlaşıb".

Fermerin bağını gəzdik. 5 hektar sahədə innovasiyalardan istifadə edilərək yaradılan bağda suvarma damcı üsulu ilə aparılır. Su itkisinin qarşısı bu yolla alınır. Bağın yaxınlığında hovuz inşa etdirən fermer əvvəlki illərdə yaşanan susuzluğa biryolluq son qoyub. Sahibkar bildirdi ki, suvarma sahəsində bu qayda yaradılndan sonra ağacların böyüməsi və bəhrəsi də artıb.

Qovlar kəndi ərazisində yerləşən bağın hər hektarından 50 tona yaxın meyvə yığılması nəzərdə tutulub. Bağın sahibi M.Rəfixanov deyir ki, gilas ağacları əkmişik: "Gələn il inşaallah, həmin ərazidən məhsul götürəcəyik. Mənə elə gəlir ki, hər bir fermer öz sahəsinə balası kimi baxmalıdır. Sən torpağı nə qədər sevsən, o da borclu qalmaz. Aldığımız subsidiyalar işimizə böyük təkandır. Təsərrüfatda 15 nəfər çalışır. Bu da ailələrin büdcəsinə xeyirli təsir göstərir".

Yolumuzu Gündüzqala kəndindən də saldıq. Burada fəaliyyət göstərən fermer təsərrüfatına Mömin Babayev rəhbərlik edir. 70 hektarda arpa və buğda əkib. Sahibkar ötən ilin bərəkətindən söz açdı: "Ötən il hər hektardan 50 sentner məhsul biçdik. Bu il məhsuldarlıq daha çox olacaq". Təsərrüfatda 60 baş qaramal, 150 baş davar da bəslənilir. Heyvanların südü müqavilə əsasında şirkətlərə satılır. M.Babayev bizimlə gələcək hədəflərini də bölüşdü: "Gələn il yeni ferma tikməyi planlaşdırırıq. Yeni texnologiyalarla işləyən fermanı qurandan sonra heyvanların sayı da birə-beş artacaq".

Təsərrüfatdakı 6 hektar alma bağından söz açan fermer vurğuladı ki, yetişdirilən meyvələr hamısı dədə-baba sortlarıdır: "Cırhacı, simirinka, qəndisinab kimi növlər yalnız bu bağda yetişdirilir. Heç bir dərman pereparatlarından istifadə etmirik, məhsul tam ekoloji təmizdir".

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Məram bəlli, məqsəd aydın

## Eyni məqsədə xidmət edən adamların bir araya gəlməsi dövlət proqramının icrası üçün xüsusi əhəmiyyətə malikdir

**Artıq bir neçə gündür ki, Prezident İlham Əliyevin 25 may 2026-cı il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar bölgələrdə müşavirələr keçirilir. Xəbər verdiyimiz kimi, Qax rayonunda da Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonlarından olan fermer və sahibkarların iştirakı ilə belə tədbir keçirilib.**

Müşavirəni Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov açaraq dövlət proqramının uğurla həyata keçirilməsi üçün qarşıda duran vəzifələrdən danışıb. Kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyev isə aqrar sahənin inkişafı istiqamətində qarşıda duran əsas prioritetlər və dövlət proqramında nəzərdə tutulan hədəflər barədə müşavirə iştirakçılarına məlumat verib. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədrinin birinci müavini Xəyyam Məmmədov çıxışında dövlət proqramının kənd təsərrüfatının inkişafında çox mühüm bir mərhələ olacağından və bu istiqamətdə qarşıda duran vəzifələrdən bəhs edib. Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov isə çıxışında kənd təsərrüfatının dinamik inkişafının regionların sosial-iqtisadi yüksəlişinə əlavə təkan verəcəyini bildirib.

Müşavirədə çıxış edən fermerlər və sahibkarlardan Oğuz rayonundakı "Eden Agro" MMC-nin rəhbəri İbrahim Mehdiyev, Şəkidəki "Aqroinkişaf 2017" MMC-nin nümayəndəsi Nicat Əliyev, Zaqataladakı "Aqrarco" MMC-nin rəhbəri Vüqar Muhumayev, Balakəndəki "Balakən Toxum" MMC-nin rəhbəri Serhan Keltere, Qax rayonundakı "Tam Aqro" MMC-nin rəhbəri Tamerlan Musayev və "Ulu Aqro" MMC-nin rəhbəri Vüqar Xəlilov gələcəkdə həyata keçirəcəkləri layihələr barədə müşavirə iştirakçılarına ətraflı məlumat veriblər, dövlət proqramının əhəmiyyətini qeyd ediblər.

Müşavirə başa çatdıqdan sonra kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyev mətbuata müsahibəsində bildirib ki, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" kənd təsərrüfatının inkişafı üçün əlverişli zəmin yaradan əsas sənəddir: "Bu sənəd Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq hazırlanmışdır. Sənəd özündə sektorun əsas hədəflərini və bu hədəflərə xidmət edəcək tədbirlərin müvafiq dövlət dəstək mexanizmlərini əhatə edir. Sənədin səciyyəvi xüsusiyyəti həm istehsal, həm emal, həm də dəyər zəncirinin digər halqaları üzrə əsas istiqamətlərə yönləmiş tədbirləri və dəstək mexanizmini özündə əks etdirməsindədir. Burada hədəf istehsal artımına nail olmaqdır. İstehsal artımına nail olmaq üçün isə daha çox intensivləşmə usullarından istifadə etmək lazımdır".

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin birinci müavini Xəyyam Məmmədov da mətbuata açıqlamasında görüləcək işlərdən söz açdı. Dedi ki, əsas hədəf, əsas məqsəd kənd təsərrüfatını dayanıqlı və davamlı model üzərində qurmaqdır: "Belə müşavirələrin keçirilməsi çox önəmlidir. Çünki eyni məqsədə xidmət edən adamlar bir yerə toplaşırlar, başqa sözlə, həm dövlət qurumlarının nümayəndələri, həm fermerlər, həm də sahibkarlar bir araya gəlirlər. Bu da bizə ünsiyyət yaratmaq, dialoq qurmaq, həlli vacib olan hansısa bir məsələni müzakirə etmək üçün əlverişli imkan yaradır. Dövlət proqramının uğurla həyata keçirilməsində belə müşavirələrin çox böyük əhəmiyyəti var".

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Xəzərin birləşdirdiyi dost və qardaş ölkə

## Azərbaycan-Türkmənistan münasibətlərində strateji mərhələ başlayır

**Müasir dünyamızın beynəlxalq münasibətlər sistemində dövlətlərin strateji tərəfdaşlığı onların birlikdə yaratdığı nəqliyyat marşrutları, enerji təhlükəsizliyi mexanizmləri regional inteqrasiya təşəbbüsləri və ortaq geosiyasi baxışlarla müəyyənləşir. Bu baxımdan Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri ölkələrimiz arasında münasibətlərin tarixində növbəti diplomatik mərhələ olmaqla yanaşı, Xəzər hövzəsində və bütövlükdə Avrasiya məkanında formalaşan yeni geosiyasi reallıqların mühüm göstəricisi kimi qiymətləndirilə bilər.**



Səfər zamanı aparılan danışıqlar, imzalanan sənədlər və verilən siyasi mesajlar göstərdi ki, Azərbaycan və Türkmənistan münasibətləri artıq klassik ikitərəfli əməkdaşlıq çərçivəsini əhəmiyyətli dərəcədə aşaraq, regional təhlükəsizlik, beynəlxalq logistika, enerji əməkdaşlığı, türk dünyasının inteqrasiyası və çoxtərəfli diplomatiyanın əsas istiqamətlərindən birinə çevrilməkdədir.

### Tarixi köklər üzərində qurulan tərəfdaşlıq

Azərbaycan və Türkmənistanı birləşdirən amillər sırasında ortaq dil, din və etnik-mədəni yaxınlıqla bərabər, əsrlərlə formalaşmış ortaq tarix, Xəzər sivilizasiyası və türk dövlətçilik ənənələri də dayanır. Məhz buna görə Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan Prezidenti ilə mətbuata birgə bəyanatında münasibətlərimizin möhkəm təməl - tarixi bağlar, mədəni əlaqələr və mənəvi dəyərlər üzərində qurulduğunu xüsusi vurğuladı. Eyni zamanda Türkmənistan Prezidenti də xalqlarımızı ortaq tarix, dil, mədəniyyət və mənəvi dəyərlərin birləşdirdiyini bildirdi, ölkələrimiz arasında münasibətlərin bərabərhüquqlu və qarşılıqlı faydalı prinsiplər əsasında dinamik və ardıcıl şəkildə inkişaf etdiyini söylədi. Son illər Prezident İlham Əliyevlə türkmən xalqının Milli Lideri Qurbanqulu Berdiməhəmmədov və Prezident Sərdar Berdiməhəmmədov arasında yaranmış yüksək etimad və səmimi münasibətlər dövlətlərarası əlaqələri tamamilə yeni keyfiyyət mərhələsinə yüksəldib.

Dövlətimizin başçısının bəyanatında ən diqqətçəkən siyasi məqamlardan biri Türkmənistanın Qarabağın bərpasına verdiyi töhfələrlə bağlı oldu. Prezident İlham Əliyev Füzuli şəhərində Türkmənistanın dəstəyi ilə tikilən məscidi iki xalq arasında səmimi qardaşlığın rəmzi adlandırdı. Türkmənistan Prezidenti də bu layihənin xalqlar arasında mənəvi bağların ifadəsi olduğunu vurğuladı.

Səfər proqramı çərçivəsində Azərbaycan və Türmənistan prezidentləri Qarabağ bölgəsinə - Füzuliyə və Şuşaya da getdilər. Füzuli şəhərinin dağıdılmış yerlərinə baxdılar, ali qonağa bu məkanda aparılan yenidənqurma işləri barədə məlumat verildi. Hər iki ölkənin liderləri Şuşa şəhərində inşa edilmiş birinci yaşayış kompleksində, Heydər Əliyev Fondunun bərpa etdiyi Şuşa Yaradıcılıq Mərkəzində açılmış "Heydər Əliyev və Qarabağ" sərgisində, Bülbülün ev-muzeyində, hazırda inşa edilən Şuşa məscidi ərazisində oldular, Azərbaycanın tanınmış şəxsiyyətlərinin işğal dövründə güllələnmiş büstlərinə baxdılar. Türkmənistan Prezidentinə məlumat verildi ki, işğal dövründə erməni vandalizminə məruz qalan bu büstlərin talan edilərək Ermənistana aparıldığı və metal qırıntısı kimi əridilməyə cəhd göstərildiyi planlaşdırılmışdı. Məhz Ulu Öndər Heydər Əliyevin müdaxiləsi nəticəsində abidələr xilas edilərək Azərbaycana gətirildi. Bir müddət Bakıda Azərbaycan Milli İncəsənət Muzeyinin həyətində saxlanılan bu büstlər Şuşa işğaldan azad olunduqdan sonra əvvəlki yerlərinə qaytarıldı.

Bütün bunların siyasi mənası olduqca dərindir. Dost ölkə tərəfindən görülən işlər Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstəyin və postmünaqişə dövründə Qarabağın bərpasında iştirak etmək istəyinin real ifadəsidir. Dövlət səfərinin sonunda Azərbaycan Prezidenti İlham Əliyevin Sərdar Berdiməhəmmədova "Mərd" adlı Qarabağ atını hədiyyə etməsi də diplomatik protokoldan daha artıq məna daşıyırdı. Qarabağ atı Azərbaycan dövlətçiliyinin və milli irsinin rəmzidir. Belə bir hədiyyə ölkələrimiz arasında strateji dostluğun, qarşılıqlı etimadın yüksək səviyyəsini nümayiş etdirən simvolik jestdir.

### Xəzərdən Avropaya

Səfərin əsas istiqamətlərindən biri də nəqliyyat-logistika məsələləri oldu. Prezident İlham Əliyevin xüsusi vurğuladığı kimi, bu gün dünyada təhlükəsiz və etibarlı beynəlxalq nəqliyyat marşrutlarının sayı məhduddur. Azərbaycan və Türkmənistan isə bu marşrutların formalaşdırılmasında aparıcı rol oynayan dövlətlər sırasındadır.

Əslində, söhbət təkcə iki ölkə arasında yükdaşımaların artırılmasından deyil, ümumilikdə Orta dəhlizin gələcəyindən gedir. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu - Çin-Mərkəzi Asiya-Xəzər-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa xətti artıq qlobal iqtisadiyyatın mühüm arteriyalarından birinə çevrilməkdədir. Azərbaycanın Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, dəmir yolu infrastrukturu və "Şərq-Qərb" dəhlizindəki imkanları Türkmənistanın Türkmənbaşı limanı ilə birlikdə Avrasiyanın yeni logistika xəritəsini formalaşdırır. Sərdar Berdiməhəmmədovun Türkmənistan-Azərbaycan Nəqliyyat, Tranzit və Logistika Komissiyasının fəaliyyətinin gücləndirilməsi təşəbbüsü, Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə marşrutunun və Xəzər-Qara dəniz dəhlizinin inkişafına dair fikirləri isə göstərdi ki, Bakı və Aşqabad regional logistikanın əsas koordinasiya mərkəzləri kimi çıxış etmək niyyətindədirlər.

Azərbaycan və Türkmənistan həm də dünyanın mühüm enerji istehsalçıları sırasındadır. Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, hər iki ölkə geniş enerji ehtiyatlarına malikdir və bu sahədə səylərin birləşdirilməsi qarşıya qoyulan əsas məqsədlərdəndir. Bu əməkdaşlıq artıq yalnız neft və qaz ixracı ilə məhdudlaşmır. Avropanın enerji təhlükəsizliyi, "yaşıl enerji" layihələri, Xəzərin dibi ilə mümkün kommunikasiya xətləri, elektrik enerjisinin ixracı və bərpaolunan enerji istiqamətində yeni imkanlar Azərbaycan və Türkmənistanı gələcək onilliklərin strateji tərəfdaşlarına çevirə bilər. Dövlətimizin başçısı bəyanatında xüsusi vurğuladı: "Bu gün nəqliyyat-logistika sahəsi haqqında da çox danışıldı. Təbii ki, ölkələrimiz arasında bu sahədə əməkdaşlıq artıq uzunmüddətli xarakter daşıyır, hətta deyərdim ki, bu, təkcə bizim üçün deyil, təkcə qonşularımız üçün deyil, həm də geniş bir coğrafiya üçün strateji əhəmiyyətə malikdir. Çünki bu gün dünyada öz aralarında əməkdaşlıq edən ölkələri birləşdirən çox etibarlı, təhlükəsiz nəqliyyat marşrutları o qədər də çox deyil. Bu, böyük nailiyyətdir... Siyasi qarşılıqlı fəaliyyət olmasaydı, heç bir coğrafi şərait səylərimizi birləşdirməyə imkan verməzdi. Biz isə həm birgə səylərimiz nəticəsində artıq artan yük axınlarını daha da artırmaq, həm də üçüncü ölkələrdən yükdaşımaları cəlb etmək üçün nəqliyyat və logistika sektorundakı fəaliyyətimizi daha da əlaqələndirmək barədə razılığa gəldik. Buna görə də bu sahə təbii ki, həm ikitərəfli, həm də çoxtərəfli qarşılıqlı fəaliyyətimizin prioriteti olacaq".

Azərbaycan Prezidentinin səsləndirdiyi ən diqqətçəkən geosiyasi fikirlərdən biri Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasına tamhüquqlu üzv qəbul edilməsinin tarixi hadisə kimi qiymətləndirilməsi oldu. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan coğrafi baxımdan Mərkəzi Asiyada yerləşməsə də, tarixi, mədəni və nəqliyyat əlaqələri böyük Mərkəzi Asiyanın vahid geosiyasi və geoiqtisadi məkan kimi formalaşmasına zəmin yaradır. Bu yanaşma ölkəmizin xarici siyasətində yeni strateji baxışın ifadəsidir. Bakı özünü yalnız Cənubi Qafqaz dövləti kimi deyil, Avrasiya məkanında körpü rolunu oynayan mühüm aktor kimi təqdim edir.

### Türk dünyasının inteqrasiyasında mühüm halqa

Azərbaycan və Türkmənistan münasibətlərinin inkişafı türk dünyasının inteqrasiyasına da ciddi töhfə verir. Türkmənistanın neytral statusunu qorumaqla yanaşı, türk dövlətləri ilə əməkdaşlığını dərinləşdirməsi, Azərbaycanın isə bu istiqamətdə təşəbbüskar mövqeyi ümumi strateji baxışın formalaşdığını göstərir. Qarşılıqlı "Mədəniyyət günləri", "Qardaş şəhərlər" layihələri, humanitar əməkdaşlıq və təhsil sahəsində əlaqələrin genişləndirilməsi bu inteqrasiyanın sosial-mədəni dayaqlarını möhkəmləndirir.

İkitərəfli əməkdaşlığın hazırkı səviyyəsini yüksək qiymətləndirən ali qonaq humanitar əlaqələrin inkişafına xüsusi diqqət yetirdi. Görüşlər çərçivəsində mədəniyyət xadimlərimiz arasında təmasların davam etdirilməsinə və genişləndirilməsinə, həmçinin hər il mədəniyyət günlərinin keçirilməsinə ölkələrimizin hazır olduğunu bildirdi. Eyni zamanda qeyd etdi ki, həmin görüşlərin yekunlarına dair ikitərəfli mühüm sənədlər zərfi imzalanmışdır: "Türkmənistan və Azərbaycan Respublikası arasında əməkdaşlıq bütün əsas sahələr üzrə inkişaf edəcək. Bu, ölkələrimizin və xalqlarımızın uzunmüddətli maraqlarına cavab verir".

Səfər zamanı hər iki ölkənin liderləri BMT, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, MDB, Türk Dövlətləri Təşkilatı və Xəzər formatında qarşılıqlı dəstəyin davam etdirilməsinin vacibliyini vurğuladılar. Bu, Azərbaycan və Türkmənistanın çoxtərəfli diplomatiyada koordinasiyalı fəaliyyət göstərmək niyyətini təsdiqləyir.

Türmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri göstərdi ki, Bakı və Aşqabad münasibətləri artıq yalnız dostluq və qardaşlıq anlayışları ilə xarakterizə olunmur. Bu münasibətlər Avrasiyanın yeni nəqliyyat dəhlizlərinin qurulması, enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, Xəzər hövzəsində əməkdaşlığın genişləndirilməsi və türk dünyasının siyasi-iqtisadi inteqrasiyasının dərinləşdirilməsi kimi strateji hədəflərə söykənir.

Prezident İlham Əliyevin son illər həyata keçirdiyi çoxşaxəli xarici siyasət nəticəsində Azərbaycan Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında əsas geosiyasi və geoiqtisadi körpü statusu qazanıb. Türkmənistanla münasibətlərin yeni mərhələsi də bu strategiyanın mühüm tərkib hissəsidir.

Müasir beynəlxalq münasibətlər sistemində etimad ən qiymətli siyasi kapital hesab olunur. Azərbaycan və Türkmənistan arasında formalaşmış qarşılıqlı etimad, ortaq maraqlar və strateji baxışlar göstərir ki, iki qardaş ölkənin əməkdaşlığı yaxın illərdə təkcə ikitərəfli münasibətlərin deyil, bütövlükdə Xəzər regionunun və geniş Avrasiya məkanının inkişafına ciddi təsir göstərəcək.

***İradə ƏLİYEVA, "Azərbaycan"***

# Milli Aviasiya Akademiyasında "Süni intellekt texnologiyaları və aerokosmik problemlər" mövzusunda beynəlxalq konfrans təşkil olunub

**Milli Aviasiya Akademiyasının (MAA) təşkilatçılığı ilə "Süni intellekt texnologiyaları və aerokosmik problemlər" mövzusunda IV beynəlxalq elmi-praktik konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, açılışda çıxış edən MAA-nın birinci prorektoru professor Ədalət Səmədov Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayevin adından iştirakçıları salamlayıb, konfransın işinə uğurlar arzulayıb. Bildirib ki, süni intellektin sürətlə inkişaf etdiyi bir dövrdə bu elmi tədbirin keçirilməsi xüsusi aktuallıq kəsb edir.





Qeyd olunub ki, Azərbaycan Respublikasında süni intellektin inkişafı və tətbiqi istiqamətində həyata keçirilən dövlət siyasəti Prezident İlham Əliyev tərəfindən imzalanmış və 2025-2030-cu illəri əhatə edən "Rəqəmsal İnkişaf və Süni İntellekt Strategiyası" ilə sistemləşdirilib, strateji əsaslar üzərində qurulub. Prezident İlham Əliyevin təşəbbüsü ilə qəbul edilən bu sənəd ölkəmizdə rəqəmsal transformasiyanın aparıcı istiqamətlərini müəyyənləşdirib, süni intellektin iqtisadiyyat, elm, təhlükəsizlik və cəmiyyətin digər əsas sahələrinə inteqrasiyasını nəzərdə tutur.

Müasir dövrdə süni intellekt texnologiyaları qlobal elmi-texnoloji inkişafın ən aparıcı alətlərindən birinə çevrilməkdədir. Bu, yalnız informasiya texnologiyaları sahəsi ilə məhdudlaşmır, aviasiya, kosmik tədqiqatlar, təhlükəsizlik sistemləri, təhsil, idarəetmə, müdafiə sənayesi və digər strateji sahələrdə geniş tətbiq imkanları yaradır. Aerokosmik sahədə süni intellektin tətbiqi böyükhəcmli məlumatların emalı, uçuşların təhlükəsizliyinin artırılması, peyk müşahidələrinin təhlili, intellektual idarəetmə sistemlərinin qurulması və simulyasiya texnologiyalarının inkişafı baxımından yeni elmi və praktiki imkanlar açır.

Ə.Səmədov Milli Aviasiya Akademiyasının gələcək inkişafını müəyyən edən əsas strateji hədəflərdən bəhs edib. Qeyd olunub ki, akademiyanın prioritet istiqamətləri sırasında aviasiya və aerokosmik sahədə süni intellekt texnologiyalarının tətbiqinin genişləndirilməsi, pilotlu və pilotsuz uçuş aparatlarının idarə olunması, aerokosmik texnologiyaların inkişafı, uçuş aparatlarının layihələndirilməsi və struktur təhlili, aerodinamik modelləşdirmə, qərarların qəbuluna dəstək sistemləri və simulyasiya platformalarının yaradılması yer alır.

Bununla yanaşı, nəqliyyat və logistika sahəsində süni intellektin tətbiqi, hava hərəkətinin optimallaşdırılması, uçuşların planlaşdırılması, hava məkanından səmərəli istifadə, ağıllı nəqliyyat infrastrukturunun layihələndirilməsi və analitik sistemlərin inkişafı da əsas hədəflər sırasındadır.

Eyni zamanda süni intellektin hüquqi statusu, məsuliyyət bölgüsü, alqoritmik ədalət prinsipləri, vətəndaş hüquqları və fərdi məlumatların qorunması mexanizmlərinin tədqiqi, eləcə də innovativ təhsil mühitinin formalaşdırılması, yeni tədris metodlarının hazırlanması, nəzəri və praktiki biliklərin inteqrasiyası, təhsildə süni intellekt texnologiyalarının tətbiqi və elmi startap təşəbbüslərinin dəstəklənməsi akademiyanın strateji inkişaf prioritetləri kimi müəyyən edilib.

Prorektor bildirib ki, konfransda plenar çıxışlarla yanaşı, 6 bölmədə 90 məruzə dinləniləcək. Tədbirdə Türkiyə, Rusiya, İsveç, Danimarka, Qazaxıstan, Özbəkistan və Almaniyadan olan alim və mütəxəssislər iştirak edəcəklər. Azərbaycanın və xarici dövlətlərin 30-a yaxın ali təhsil müəssisəsindən, elm mərkəzlərindən, dövlət qurumlarından və şirkətlərdən tədqiqatçılar və alimlər tədbirə qatılıblar.

Professor Ə.Səmədov konfransın yüksək səviyyədə təşkilinə töhfə verən bütün təşkilatçılara, iştirakçılara və tərəfdaş qurumlara dərin təşəkkürünü bildirib. O, iştirakçılara məhsuldar fikir mübadiləsi, elmi axtarışlarda uğurlar və ikigünlük dialoqdan sonra davam edəcək ortaq layihələr arzulayıb.

AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru akademik Rasim Əliquliyev müasir dövrdə süni intellekt texnologiyalarının qlobal miqyasda baş verən proseslərin əsas hərəkətverici qüvvələrindən biri olduğunu bildirib. Alim superqüc dövlətlər arasında rəqabətin getdikcə texnoloji müstəviyə keçdiyi bir şəraitdə Azərbaycanın xarici siyasətində də süni intellektin strateji prioritet kimi xüsusi yer tutduğunu diqqətə çatdırıb.

İnstitutun baş direktoru ölkənin daxili siyasətinin qlobal tendensiyalarla uzlaşdırıldığını və bu çərçivədə süni intellekt və rəqəmsal inkişaf sahəsində sistemli yanaşmaların tətbiq olunduğunu diqqətə çatdırıb. Alim həmçinin vurğulayıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Rəqəmsal İnkişaf Şurasının yaradılması, eləcə də Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planının təsdiqlənməsi dövlət tərəfindən bu sahənin inkişafına göstərilən xüsusi diqqəti nümayiş etdirir.

Akademik Rasim Əliquliyev hazırda ölkəmizdə rəqəmsallaşma istiqamətində mühüm addımların atıldığını qeyd edərək, rəqəmsal dövlətin texnoloji, data və şəbəkə suverenliyi kimi əsas arxitektur tələblərə cavab verməsinin vacibliyini diqqətə çatdırıb.

Dövlət Təhlükəsizlik Xidmətinin Milli Kibertəhlükəsizlik Mərkəzinin məsul katibi Elvin Balacanov "Süni intellekt və aerokosmik sistemlərin kibertəhlükəsizliyi: yeni risklər və müdafiə yanaşmaları" mövzusunda çıxış edib.

Almaniyadan HADES eksperimentinin fizika üzrə koordinatoru professor Anar Rüstəmov "Qeyri-səlis intellekt: mürəkkəb sistemlərdə faza keçidlərinin aşkarlanması", Daşkənd Dövlət Nəqliyyat Universitetinin professoru Hamida Xusnutdinova "Süni intellektin təhsil prosesinə inteqrasiyası", ADA Universitetinin İnformasiya-Texnologiyaları və Mühəndislik Məktəbinin dekanı Abzətdin Adamov "Müasir süni intellektdə insan səviyyəli intellektə nail olunmasının mühəndislik problemləri" mövzularında videoməruzələrlə çıxış ediblər.

# "Rəsmi İrəvanın atacağı addımlar Azərbaycan-Ermənistan münasibətlərinin gələcək inkişaf trayektoriyasını müəyyən edən əsas amil olacaq"

**İyunun 7-də Ermənistanda keçirilmiş parlament seçkiləri ölkənin daxili siyasi gündəmi ilə yanaşı, regionda formalaşmaqda olan yeni geosiyasi reallıqlar baxımından da diqqətlə izlənildi. Seçkilər 44 günlük Vətən müharibəsindən, Azərbaycanın 2023-cü ildə həyata keçirdiyi antiterror tədbirlərindən sonra və Bakı ilə İrəvan arasında normallaşma prosesinin yeni mərhələyə qədəm qoyduğu bir dövrdə baş tutdu.**

**Milli Məclisin deputatı Sevinc FƏTƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, səsvermənin nəticələri Ermənistan cəmiyyətində mövcud siyasi meyillərin və ölkənin gələcək inkişaf istiqamətləri ilə bağlı gözləntilərin müəyyən mənzərəsini ortaya qoyub: "Nikol Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş Müqaviləsi" Partiyasının yenidən parlament çoxluğunu əldə etməsi onun hökumətinə siyasi legitimlik qazandırsa da, seçkilərin nəticələri qarşıdakı dövrdə Ermənistan rəhbərliyinin üzərinə götürdüyü öhdəlikləri hansı səviyyədə reallaşdıra biləcəyi ilə bağlı sualları tam aradan qaldırmır. Ermənistan Mərkəzi Seçki Komissiyasının açıqladığı nəticələrə əsasən, "Vətəndaş Müqaviləsi" partiyası səslərin təxminən yarısını toplayaraq, parlamentdə çoxluğu qoruyub saxlayıb. Bununla yanaşı, müxalif qüvvələrin də parlamentdə təmsil olunması ölkədaxili siyasi balansın qorunduğunu göstərir. Ekspertlərin fikrincə, seçkilərin əsas nəticələrindən biri Ermənistan cəmiyyətində təhlükəsizlik, iqtisadi inkişaf və regional sabitlik məsələlərinin əvvəlki illərlə müqayisədə daha çox ön plana çıxmasıdır".

Deputat qeyd edib ki, seçki kampaniyası dövründə Azərbaycanla münasibətlər, sərhədlərin delimitasiyası, nəqliyyat-kommunikasiya layihələri və sülh prosesi əsas müzakirə mövzuları sırasında yer alıb. Seçkilərdən sonra diqqət mərkəzində olan əsas məsələlərdən biri Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması və sülh müqaviləsinin yekunlaşdırılması perspektividir. Azərbaycanın mövqeyinə görə, dayanıqlı və hüquqi baxımdan etibarlı sülhün təmin olunması üçün Ermənistan konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarına hüquqi əsas yaradan müddəaların aradan qaldırılması vacib şərtlərdən biridir. 2025-ci il avqustun 8-də Vaşinqtonda paraflanmış sülh sənədi tərəflərin qarşılıqlı olaraq bir-birinin suverenliyi və ərazi bütövlüyünü tanıdıqlarını təsdiqləsə də, yekun hüquqi nəticənin əldə olunması üçün Ermənistanın daxili hüquqi bazasında müvafiq dəyişikliklərin həyata keçirilməsi aktual olaraq qalır. "Məhz bu məqam seçkilərdən sonra Paşinyan hökumətinin qarşısında duran əsas siyasi və institusional çağırışlardan biri kimi qiymətləndirilir. Mövcud parlament tərkibi hökumətə siyasi idarəetmə imkanı versə də, konstitusiya dəyişikliklərinin həyata keçirilməsi üçün daha geniş siyasi və ictimai konsensusun formalaşdırılması zərurəti qalır. Bu isə prosesin sürətinə və nəticələrinə birbaşa təsir göstərə biləcək amildir", - deyə S.Fətəliyeva əlavə edib.



Sevinc Fətəliyevanın sözlərinə görə, seçki kampaniyası dövründə Ermənistan rəhbərliyi bir neçə strateji istiqamət üzrə fəaliyyətini davam etdirəcəyini bəyan edib: "Bunlara Azərbaycanla sülh müqaviləsinin imzalanması, yeni konstitusiya layihəsinin hazırlanması, regional nəqliyyat-kommunikasiya layihələrinin inkişafı və Türkiyə ilə normallaşma prosesinin irəlilədilməsi daxildir. Bu istiqamətlərin hər biri Ermənistanın həm xarici siyasəti, həm də iqtisadi inkişaf perspektivləri baxımından mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, daxili siyasi mühit, müxalifətin mövqeyi və ictimai rəydə mövcud olan fərqli yanaşmalar bu proseslərin sürətinə təsir göstərə bilər. Müşahidəçilər hesab edirlər ki, yaxın dövrdə Ermənistan rəhbərliyi ilk növbədə konstitusiya islahatları ilə bağlı hazırlıq mərhələsini davam etdirəcək, delimitasiya prosesində iştirakını qoruyacaq və regional kommunikasiyaların açılması ilə bağlı müzakirələri davam etdirəcək. Bununla yanaşı, daxili siyasi mübarizənin kəskinləşməsi və ya islahatların yubadılması halında proseslərin uzanması ehtimalı da istisna edilmir. Bu halda normallaşma gündəliyinin həyata keçirilməsi daha uzun zaman tələb edə bilər".

Deputatın fikrincə, son seçkilərin nəticələri Ermənistan cəmiyyətində təhlükəsizlik, iqtisadi inkişaf və regional inteqrasiya məsələlərinə marağın artdığını göstərir: "Bu tendensiya İrəvanın xarici siyasət kursunda daha praqmatik yanaşmaların güclənməsi üçün əlavə stimul yarada bilər. Lakin siyasi bəyanatların real nəticələrə çevrilməsi yalnız konkret addımların atılması ilə mümkün olacaq. Bu baxımdan yaxın perspektivdə Ermənistan tərəfindən real addımların atılıb-atılmayacağı ilk növbədə Paşinyan hökumətinin siyasi iradəsindən, konstitusiya islahatlarının hansı tempdə həyata keçiriləcəyindən və ölkə daxilində bu proseslərə veriləcək ictimai-siyasi dəstəkdən asılı olacaq. Eyni zamanda beynəlxalq vasitəçilərin və regionda maraqları olan əsas aktorların mövqeyi də prosesin inkişafına təsir göstərən amillər sırasındadır. Azərbaycanın mövqeyi isə dəyişməz olaraq qalır. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, regionda dayanıqlı sülh yalnız qarşılıqlı suverenliyin tanınması, ərazi iddialarının tam aradan qaldırılması və əldə olunmuş razılaşmaların hüquqi təminat altına alınması əsasında mümkündür. Bu baxımdan rəsmi İrəvanın qarşıdakı dövrdə atacağı addımlar Azərbaycan-Ermənistan münasibətlərinin gələcək inkişaf trayektoriyasını müəyyən edən əsas amil olacaq".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Bakı Hərbi Prokurorluğunun inzibati binasının əsaslı təmirdən sonra açılışı olub

**Bakı Hərbi Prokurorluğunun əsaslı təmir edilərək yenidən qurulan inzibati binasının açılış mərasimi keçirilib. Tədbirdə Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev, həmçinin Baş Prokurorluğun və Hərbi Prokurorluğun rəhbər heyəti, digər rəsmi şəxslər və media nümayəndələri iştirak ediblər.**




Əvvəlcə mərasim iştirakçıları Ümummilli Lider Heydər Əliyevin binanın foyesində yerləşən büstü önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Məlumat verilib ki, uzun illər prokurorluq orqanlarının fəaliyyət göstərdiyi inzibati bina əsaslı təmir edilərək müasir standartlara uyğun yenidən qurulub. Bina prokurorluq əməkdaşlarının fəaliyyətinin daha səmərəli təşkili, iş proseslərinin operativliyinin artırılması və vətəndaşlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə tam yenilənib. Binada əməkdaşların rahat və funksional fəaliyyəti üçün zəruri texniki avadanlıqlarla təchiz edilmiş xidməti otaqlar, vətəndaş qəbulu bölməsi, akt və iclas zalları yaradılıb. Eyni zamanda bina enerji səmərəliliyi və təhlükəsizlik baxımından ən son tələblərə uyğun şəkildə modernləşdirilib.

Qeyd olunub ki, inzibati binada "Elektron Prokurorluq" informasiya sistemi tətbiq olunub. Sistem vasitəsilə sənəd dövriyyəsi rəqəmsal müstəvidə həyata keçirilir, fəaliyyətin çevikliyi və şəffaflığı daha da artırılır.

İnzibati bina ilə tanışlıqdan sonra akt zalında iclas keçirilib.

Açılış nitqi ilə çıxış edən baş prokuror Kamran Əliyev bildirib ki, Bakı Hərbi Prokurorluğunun inzibati binasının istifadəyə verilməsi Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının növbəti ildönümünə təsadüf etməsi baxımından xüsusi əhəmiyyət daşıyır. O qeyd edib ki, hərbi prokurorluq orqanları Silahlı Qüvvələrlə sıx qarşılıqlı fəaliyyət şəraitində qanunçuluğun, hüquq qaydasının və hərbi intizamın möhkəmləndirilməsi istiqamətində mühüm fəaliyyət göstərərək dövlətin müdafiə qabiliyyətinin gücləndirilməsinə töhfə verib.

Baş prokuror vurğulayıb ki, müasir və çevik prokurorluq sisteminin formalaşdırılması Azərbaycanın hüquqi dövlət quruculuğu siyasətinin əsas prioritetlərindən biridir və bu istiqamətdə həyata keçirilən islahatlar Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik strategiyasına əsaslanaraq Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. K.Əliyev diqqətə çatdırıb ki, prokurorluq orqanlarının maddi-texniki təminatının gücləndirilməsi və rəqəmsal idarəetmə imkanlarının genişləndirilməsi hüquq-mühafizə sistemində həyata keçirilən institusional islahatların mühüm istiqamətlərindəndir. İstifadəyə verilən yeni inzibati binanın iş proseslərinin çevikliyinin artırılmasına, vətəndaş müraciətlərinə daha operativ baxılmasına və xidmət keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verəcəyi bildirilib.

Kamran Əliyev həmçinin qeyd edib ki, Prezident İlham Əliyevin sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması ölkədə müasir və dayanıqlı infrastrukturun formalaşdırılmasına xüsusi təkan verir. O vurğulayıb ki, Bakı Hərbi Prokurorluğunun inzibati binası da müasir idarəetmə tələblərinə uyğun qurulmuş iş mühitinin nümunəsidir. Baş prokuror əməkdaşları yeni şəraitdən səmərəli istifadə etməyə, peşə hazırlığını daim artırmağa, fəaliyyətlərində qanunçuluq, obyektivlik və dövlətçilik prinsiplərinə sadiq qalmağa çağıraraq onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Çıxış edən Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev, baş prokurorun müavini - Azərbaycan Respublikasının hərbi prokuroru Bəhruz Əhmədov və Bakı hərbi prokuroru Fərid Şükürov dövlət tərəfindən həyata keçirilən institusional islahatların və yaradılan müasir iş mühitinin hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə verdiyi töhfələri qeyd ediblər. Bildirilib ki, yeni inzibati bina qarşıda duran vəzifələrin daha operativ və effektiv icrasına əlverişli şərait yaradır. Çıxışlarda yaradılan şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıq ifadə olunub.

Tədbirə yekun vuran baş prokuror Kamran Əliyev yaradılmış müasir iş şəraitinin hərbi prokurorluq əməkdaşlarının üzərinə düşən vəzifələri daha yüksək məsuliyyət və peşəkarlıqla yerinə yetirmələrinə xidmət edəcəyini bildirib. O, hərbi prokurorluq orqanlarının bundan sonra da Silahlı Qüvvələrdə qanunçuluğun təmin olunması, hərbi intizamın möhkəmləndirilməsi və dövlət maraqlarının etibarlı müdafiəsi istiqamətində fəaliyyətlərini uğurla davam etdirəcəklərinə əminliyini ifadə edib.

Sonda xatirə şəkli çəkdirilib.

*"Azərbaycan"*

# Qlobal internet şəbəkəsi təhdidlərdən sığortalanmayıb

**Qlobal internet infrastrukturu müharibə və geosiyasi münaqişələr qarşısında tamamilə müdafiəsiz qalıb. Dünyada baş verən qarşıdurmalar səbəbindən rəqəmsal şəbəkələrin hədəfə alınması dünya iqtisadiyyatının onurğa sütununu təşkil edən sualtı fiber-optik kabellərin və data mərkəzlərinin (məlumat bazalarının) fiziki təhlükəsizliyi məsələsini yenidən gündəmə gətirib. Müasir dövrdə rəqəmsal asılılığın pik həddə çatması bu infrastruktura yönələn hər bir təhdidi lokallıqdan çıxararaq qlobal xarakterli böhrana çevirir.**



Böyük Britaniyanın Açıq Məlumat İnstitutunun baş tədqiqatçısı Kalum İnveraritinin təhlilinə əsasən, bu strateji sahədə beynəlxalq hüquqi tənzimləmə sistemləri hələ də XIX əsr səviyyəsində qalıb. Texnoloji inkişafın sürəti ilə hüquqi tənzimləmə sistemləri arasındakı bu kəskin uçurum transmilli cinayətkar qruplar üçün nəzarətsiz bir fəaliyyət meydanı yaradır. Ümumiyyətlə, rəqəmsal sistemlər çökəndə zərər həm böyük texnologiya şirkətlərinə, həm də gündəlik həyatı bu xidmətlərdən birbaşa asılı olan sıravi vətəndaşlara dəyir. Bank xidmətlərindən tutmuş təbii fəlakətlər zamanı xəbərdarlıq sistemlərinə qədər hər şey bu şəbəkənin sabitliyindən asılıdır.

Dünya üzrə internet trafikinin və rəqəmsal maliyyə əməliyyatlarının əsas hissəsi okeanların dibi ilə uzanan kabellər vasitəsilə ötürülür. Hər gün bu sualtı naqillər vasitəsilə təxminən 10 trilyon dollar dəyərində maliyyə əməliyyatı həyata keçirilir. Bu rəqəm qlobal ticarət dövriyyəsinin və banklararası köçürmələrin tamamilə sualtı magistrallardan asılı olduğunu nümayiş etdirir.

Qlobal internet trafikinin 17 faizi, Avropa ilə Asiya arasındakı data mübadiləsinin isə 90 faizi məhz Qırmızı dənizdən keçir. Bu dar coğrafi keçid rəqəmsal dünyanın ən həssas və kritik nöqtəsi hesab olunur. Bölgədəki hərbi gərginlik və geosiyasi eskalasiya səbəbindən kabellər zədələndiyi təqdirdə, xüsusi təmir gəmiləri təhlükəsizlik mülahizələrinə görə hadisə yerinə daxil ola bilmirlər. Bu isə rəqəmsal kəsintilərin və internet sürətinin kəskin şəkildə düşməsinin aylarla uzanması riskini yaradır.

Digər ciddi problem isə qlobal internet şəbəkəsinin bir neçə özəl şirkətin inhisarında olmasıdır. Tədqiqatlara görə, "Google", "Meta", "Microsoft" və "Amazon" dünyadakı uzaq məsafəli sualtı kabellərin demək olar ki, hamısına sahibdir. Digər tərəfdən, bulud texnologiyaları sahəsində də oxşar mənzərə müşahidə olunur: "AWS" (Amazon Web Services), "Azure" (Microsoft) və "Google Cloud" qlobal məlumat mərkəzlərinin yarıdan çoxuna birbaşa nəzarət edir. Bu kabellər və mərkəzlər özəl mülkiyyət olsa da, dövlətlərin suveren sərhədlərini və beynəlxalq suları aşır. Sualtı kabellərin qorunması ilə bağlı əsas beynəlxalq müqavilə isə 1884-cü ilə təsadüf edir. Mövcud hüquqi boşluqlar səbəbindən texnologiya nəhənglərinin hibrid hüquqi və fiziki hücumlara, kiber-təxribatlara qarşı heç bir hüquqi müdafiə sistemi və beynəlxalq təminatı yoxdur.

Müasir münaqişələrdə tərəflərin rəqibi iflic etmək üçün ilk növbədə bu magistralları hədəfə alması real hərbi doktrinaların tərkib hissəsidir. Şimal dənizində, Baltik hövzəsində və Yaxın Şərqdə baş verən son hadisələr göstərir ki, sualtı infrastruktura edilən gizli müdaxilələrin müəlliflərini müəyyən etmək son dərəcə çətindir. Bu zəiflikdən istifadə edərək rəsmi olaraq müharibə elan olunmadan qarşı tərəfin iqtisadi və sosial həyatını tam daxili xaosla üz-üzə qoymaq mümkündür.

Ekspertlər və hətta indiyə qədər azad bazar prinsiplərini əsas gətirərək dövlət tənzimləmələrinə və nəzarətinə qarşı çıxan texnologiya şirkətləri artıq mövqelərini dəyişiblər. Onlar beynəlxalq birlikdən və dövlətlərdən rəqəmsal infrastrukturun qorunması üçün qəti, kollektiv addımlar tələb edirlər. Avropa İttifaqının tətbiq etməyə başladığı "Kabel Təhlükəsizliyi üzrə Fəaliyyət Planı" və Böyük Britaniyada parlamentdən keçən yeni qanun layihələri bu istiqamətdə atılan ilkin addımlar olsa da, qlobal təhlükənin miqyası qarşısında yetərsizdir.

Məlumat infrastrukturuna, sadəcə, fərdi kommersiya aktivi kimi baxmaq qlobal riski həndəsi silsilə ilə artırır. Bu, bəşəriyyətin ortaq taleyini bir neçə idarə heyətinin qərarından asılı vəziyyətə salır. Yeganə səmərəli çıxış yolu sualtı kabellərə və data mərkəzlərinə eynilə neft kəmərləri, strateji boğazlar və ya beynəlxalq dəniz yolları kimi "ortaq ictimai infrastruktur" statusunun verilməsidir. Bu obyektlərin toxunulmazlığını təmin etmək və beynəlxalq suların hüquqi rejimini müasir çağırışlara uyğunlaşdırmaq lazımdır. Hücum edən tərəflərə qarşı ağır sanksiyalar nəzərdə tutan yeni beynəlxalq hüquqi konvensiyanın qurulması artıq zamanın təxirəsalınmaz tələbidir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Avropa Məhkəməsinin ədalətsiz qərarı erməni lobbisinin maraqlarına xidmət edir

**Azərbaycanın 30 illik işğala son qoyaraq ərazi bütövlüyünü və suverenliyini təmin etməklə Cənubi Qafqazda yaratdığı reallıqlar Qərbin müəyyən siyasi dairələrində hələ də həzm olunmur. Regionda sülh prosesinin getdiyi, inteqrasiya və qlobal nəqliyyat layihələrinin müzakirə edildiyi bir vaxtda bəzi beynəlxalq təsisatlar hüquqi prinsipləri kənara qoyaraq aşkar siyasi təzyiq alətinə çevrilirlər.**



Bunun növbəti nümunəsi İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 18 iyun 2026-cı il tarixdə "V.T. və digərləri Azərbaycana qarşı" işi üzrə qəbul etdiyi ədalətsiz və birtərəfli qərardır. Heç bir ciddi və obyektiv araşdırmaya söykənməyən bu qərar erməni lobbisinin və korporativ maraqların diktəsinə xidmət edir.

Avropa strukturlarının bu qərəzli addımı Azərbaycan tərəfinin haqlı etirazına səbəb olub. İyunun 22-də Avropa Şurasının Bakı ofisinin rəhbəri Petr Zix Xarici İşlər Nazirliyinə çağırılaraq rəsmi Bakının kəskin etirazı onun diqqətinə çatdırılıb. Məlum qərarın ədalətsiz, qərəzli və beynəlxalq hüquq normaları ilə tamamilə ziddiyyət təşkil etdiyi vurğulanıb. Qeyd olunub ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 16 iyun 2015-ci il tarixli "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə qəbul etdiyi presedent qərarında Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal olunduğu, qondarma rejimin Ermənistanın birbaşa hərbi və maliyyə dəstəyi ilə mövcudluğu hüquqi təsbitini tapmışdı. Məhkəmənin yeni qərarda beynəlxalq hüquq tərəfindən heç vaxt tanınmamış və hazırda tarixin arxivinə gömülmüş qanunsuz separatçı strukturu "müstəqil subyekt" kimi təqdim etməyə çalışması heç bir məntiqə sığmır.

Avropa Məhkəməsinin qərarında istifadə olunan terminologiya da qurumun obyektivliyini tamamilə şübhə altına qoyur. Sənəddə ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə hörmətsizlik nümayiş etdirilərək "Azərbaycanla qondarma rejim arasında təmas xətti", eləcə də separatçıların "ordusu", "baş prokuroru" və "ombudsmanı" kimi qondarma ifadələrə yer verilib. Bu, faktiki olaraq qanunsuz bir strukturu legitimləşdirmək və Azərbaycan ilə cinayətkar rejim arasında saxta bərabərlik təsəvvürü yaratmaq cəhdidir.

Avropa Məhkəməsi məqsədyönlü şəkildə Ermənistan vətəndaşı olan və bu ölkədə doğulan bir hərbçinin Azərbaycanın suveren ərazilərində hansı əsasla yerləşməsi məsələsinə aydınlıq gətirməyib. Çünki beynəlxalq humanitar hüququ tətbiq etsəydi, bu şəxslərin işğalçı ordunun üzvləri olduğunu etiraf etməli olacaqdı. Lakin məhkəmə istədiyi qərəzli nəticəni əldə etmək üçün bu faktın üzərindən sükutla keçib. Üstəlik, iş üzrə "sübut" kimi təqdim olunan sənədlərin ərizəçilər tərəfindən deyil, birbaşa Ermənistan dövləti tərəfindən təqdim edilməsi prosesin siyasi koordinasiya olunduğunu təsdiqləyir.

Avropa institutlarının, o cümlədən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin birtərəfli yanaşması Azərbaycan ictimaiyyətinə çoxdan bəllidir. Onilliklər ərzində doğma yurd-yuvalarından didərgin salınmış, əmlakları talan edilmiş, hüquqları kütləvi şəkildə pozulmuş yüz minlərlə azərbaycanlının müraciətlərinə qarşı Avropa Məhkəməsi heç vaxt prinsipial mövqe nümayiş etdirməyib. Xocalı soyqırımı kimi bəşəri cinayətlərə, işğal dövründə dağıdılan mədəni-dini irsimizə göz yumanların bu gün uydurma şəxslərin əsassız iddiası və qondarma hesabatlar əsasında hökm çıxarması aşkar ədalətsizlik və riyakarlıqdır. Bu yanaşma beynəlxalq ədalət mühakiməsinin təməl prinsiplərini sarsıdır və hüququn universal xarakterini itirərək siyasi maraqlara görə necə manipulyasiya olunduğunu göstərir. Dünyanın bir çox yerində törədilən hərbi cinayətlərə və insan itkilərinə korkar kəsilən bir təsisatın Azərbaycanla bağlı saxta iddialara xüsusi həvəs göstərməsi bu orqanın neo-müstəmləkəçi dairələrin iradəsini icra edən siyasi qurum olmasından xəbər verir. Son illər bəzi Avropa strukturlarında baş verən korrupsiya və lobbiçilik qalmaqalları da bu təsisatların qərarlarının hansı şəraitdə və hansı sifarişlərlə qəbul edildiyini aydın göstərir.

Şübhəsiz, Azərbaycan tərəfi öz qanuni maraqlarını, dövlət suverenliyini qorumaq məqsədilə hüquqi müstəvidə bütün zəruri addımları atacaq və ədalətsizliyə qarşı prinsipial mübarizəsini davam etdirəcək. Lakin Avropadakı bəzi revanşist dairələr anlamalıdırlar ki, müstəqil inkişaf modelini quran, regionun lider dövləti olan və öz suverenliyini hərbi-siyasi müstəvidə təmin edən Azərbaycana təzyiq göstərmək mümkün deyil.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycanın islam dünyasındakı yüksək nüfuzunun növbəti təsdiqi

## "Parlament diplomatiyası milli maraqların dünyaya çatdırılmasında ən etibarlı vasitələrdən biridir"

**Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin xarici siyasət strategiyasının tərkib hissəsi kimi parlament diplomatiyası artıq, sadəcə, təmsilçilik funksiyası daşımır, o, milli maraqların qlobal müstəvidə müdafiəsi üçün çevik və effektiv bir alətə çevrilmişdir. Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli və müstəqil dövlətçilik xətti, siyasi sabitlik və Ulu Öndərin milli parlamentarizm fəlsəfəsi ölkəmizin parlament diplomatiyası üçün yeni, fundamental keyfiyyət mərhələsini müəyyən etmişdir.**



**Milli Məclisin deputatı Bəhruz MƏHƏRRƏMOV** qəzetimizə açıqlamasında deyib ki, Azərbaycanın son üç onillikdə əldə etdiyi tarixi nailiyyətlərin, xüsusilə işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərinin əsasında dayanan ən mühüm amil məhz Ulu Öndər Heydər Əliyev siyasi kursu əsasında Prezident İlham Əliyevin yaratdığı sarsılmaz siyasi sabitlikdir: "Prezident İlham Əliyevin dövlət idarəçiliyinə dərin strateji yanaşması parlamentarizm ənənələrinin möhkəmlənməsinə, qanunverici orqanın dövlətçilik maraqlarının təminatçısı qismində çıxış etməsinə yeni təkan verib. Dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın özlərinin zəngin parlament təcrübəsi - həm Milli Məclis, həm də beynəlxalq parlament qurumları çərçivəsindəki fəaliyyətləri bu gün Azərbaycan diplomatiyasının "parlament" qanadı üçün müsbət impulsdur. Bu təcrübə institusional yaddaşın və dövlətçilik ənənələrinin formalaşmasında həlledici rol oynayıb".

Deputat qeyd edib ki, Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərliyi dövründə Prezident İlham Əliyevin parlamentarizm vizyonu rəhbər tutulmaqla parlament diplomatiyası institusional və hüquqi baxımdan daha çevik xarakter alıb: "Bu dövr ilk növbədə Azərbaycanın beynəlxalq təşkilatlarda öz mövqeyini qətiyyətlə müdafiə etməsi ilə səciyyələnir. Parlament rəhbərliyi dövlət başçısının direktivləri əsasında islam dünyasının həmrəyliyi, dini tolerantlıq və mədəniyyətlərarası dialoq prinsiplərinə sadiqliyi beynəlxalq platformaların gündəliyinə Azərbaycanın milli maraqlarını uğurla inteqrasiya edib. Bu, sadəcə, ritorik bir dəstək deyil, beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə də dövlətlərin suverenliyi və ərazi bütövlüyünün toxunulmazlığı prinsipinə söykənən diplomatik fəaliyyətdir".

B.Məhərrəmov bildirib ki, Bakının İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı Konfransının 20-ci sessiyasına evsahibliyi etməsi təsadüfi deyil və bu, Azərbaycanın islam dünyasındakı artan nüfuzunun növbəti təsdiqidir: "40-dan çox ölkənin parlament nümayəndə heyətinin, 10-dan çox spikerin və nüfuzlu beynəlxalq təşkilatların bir araya gəldiyi bu tədbir bir neçə mühüm strateji hədəfə xidmət edir. Heç şübhəsiz ki, Bakının islam dünyasının parlamentarizm mərkəzi kimi çıxış etməsi ilk növbədə qlobal həmrəyliyin institusionallaşması yolunda mühüm mərhələdir. Azərbaycanın təşəbbüsü ilə Bakıda keçirilən bu sessiya "Parlament əməkdaşlığı vasitəsilə İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərdə dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi" kimi qlobal gündəliyi müəyyən edir. Bu, islam dünyasının qarşılaşdığı müharibələr, humanitar böhranlar və iqtisadi çağırışlar qarşısında vahid hüquqi və siyasi platformanın yaradılması deməkdir. Daha dəqiq desək, Azərbaycanın evsahibliyi etdiyi bu konfrans, sadəcə, bir toplantı deyil, həm də islam ölkələri arasında parlament diplomatiyası sahəsində yeni bir "Bakı formatı"nın formalaşmasıdır. Beynəlxalq hüquqi legitimlik baxımdan təhlil etdikdə isə konfrans çərçivəsində keçirilən müxtəlif komitə iclasları Azərbaycanın beynəlxalq hüquq müstəvisindəki tezislərinin geniş coğrafiyada dəstəklənməsi üçün mükəmməl zəmin, habelə beynəlxalq hüququn aliliyi və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə parlament töhfəsidir".

Milli Məclisin üzvü vurğulayıb ki, Bakı konfransı mahiyyət etibarilə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin ruhuna və məqsədlərinə, eləcə də beynəlxalq hüququn imperativ normalarına sadiqliyin qlobal tribunadan ifadəsidir: "Konfransın gündəliyindəki məsələlərin də dövlətlərin suveren bərabərliyi, güc tətbiq etməmək və mübahisələrin dinc yolla həlli kimi təməl prinsiplərin parlamentarizm vasitəsilə bərqərar olunmasını nəzərdə tutması Bakının regional təhlükəsizlik arxitekturasındakı rolunu önəmli dərəcədə möhkəmləndirir. Belə ki, Azərbaycanın təşəbbüsü ilə konfransda müzakirə edilən məsələlər BMT-nin Nizamnaməsinin 1-ci maddəsində təsbit olunmuş beynəlxalq sülh və təhlükəsizliyin qorunması məqsədilə bilavasitə uzlaşır. Parlamentlər səviyyəsində dialoqun təşviqi Azərbaycan Prezidentinin təşəbbüskarı və mütləq memarı kimi çıxış etdiyi yeni sülh konfiqurasiyasının ruhuna uyğun olaraq dövlətlərarası münasibətlərdə yaranan gərginliklərin siyasi və hüquqi müstəvidə, qarşılıqlı etimad şəraitində həllinə yol açır".

B.Məhərrəmov deyib ki, İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransı parlamentarilərin qətnamələr vasitəsilə beynəlxalq hüquqi normalara dəstək verməsi üçün ən geniş platformalardan biridir: "Azərbaycanın hərbi-siyasi zəfərləri ilə yeni geosiyasi şəraitdə formalaşan təcrübəsi göstərir ki, işğala və separatizmə son qoyulması, beynəlxalq hüququn aliliyinin təmin edilməsi istiqamətində qanunverici orqanlar birgə mövqe nümayiş etdirməlidirlər. İnklüziv inkişaf və beynəlxalq əməkdaşlığa böyük önəm verən Azərbaycan hesab edir ki, BMT-nin Nizamnaməsində göstərilən dövlətlər arasında dostluq münasibətlərinin inkişafı məhz iqtisadi, sosial və mədəni problemlərin həllində beynəlxalq əməkdaşlıqla mümkündür. Bakı konfransı islam dünyasını bu qlobal missiyaya səfərbər edərək BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə parlamentarizm arasında körpü yaradır".

Deputatın fikrincə, Azərbaycanın parlament diplomatiyası Prezident İlham Əliyevin müəyyən etdiyi strateji kursun icrasında məsuliyyətli, proaktiv və hüquqi əsaslara söykənən bir missiyanı yerinə yetirməklə Bakının qlobal təhlükəsizlik və rifah naminə səyləri üçün yeni bir dövr başladır: "İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasının Bakıda keçirilməsi bir daha təsdiq edir ki, parlamentarizm ölkəmizin dövlət maraqlarını, milli dəyərlərini və qlobal sülhə olan töhfəsini beynəlxalq tribunaların ən yüksək kürsülərindən dünyaya çatdırmaq üçün ən etibarlı vasitələrdən birinə, siyasi sabitlik, peşəkar idarəetmə və dövlətçilik təcrübəsi isə Azərbaycanı dünyada söz sahibinə çevirməkdədir".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Türkmənbaşı limanı Orta dəhliz üzərindən daha çox yükün daşınmasına imkan verir

## Dost ölkənin bu layihəyə qoşulmasında Azərbaycanın əvəzsiz rolu olub

**Orta dəhlizlə daha çox yük daşınmasında Türkmənistanın ərazi cəhətdən xüsusi əhəmiyyəti var. Dəniz qonşumuz Qazaxıstandan sonra Xəzər üzərindən yük daşımaq üçün geniş imkana malikdir. Türkmənistanın Türkmənbaşı (keçmiş Krasnovodsk) limanı hələ sovetlər dönəmindən iki respublika arasında logistika əlaqələrində önəmli rol oynayıb.**

Türkmənistan Prezidentinin ölkəmizə rəsmi səfəri çərçivəsində ölkələrimiz arasında aparılan səmərəli danışıqlarda logistika əlaqələrinin genişləndirilməsi də müzakirə olundu. Məqsəd ölkələrimiz və geniş coğrafiya üçün nəqliyyat əlaqələrini daha da dərinləşdirməkdir. Bununla bağlı Prezident İlham Əliyev türkmənistanlı həmkarı ilə görüşündə demişdir: "Bu gün nəqliyyat-logistika sahəsi haqqında da çox danışıldı. Təbii ki, ölkələrimiz arasında bu sahədə əməkdaşlıq artıq uzunmüddətli xarakter daşıyır, hətta deyərdim ki, bu, təkcə bizim üçün deyil, təkcə qonşularımız üçün deyil, həm də geniş bir coğrafiya üçün strateji əhəmiyyətə malikdir. Çünki bu gün dünyada öz aralarında əməkdaşlıq edən ölkələri birləşdirən çox etibarlı, təhlükəsiz nəqliyyat marşrutları o qədər də çox deyil. Bu, böyük nailiyyətdir. Belə olan halda nəqliyyat və logistika layihələrini siyasi qarşılıqlı fəaliyyətdən təcrid olunmuş şəkildə nəzərdən keçirmək mümkün deyil. Siyasi qarşılıqlı fəaliyyət olmasaydı, heç bir coğrafi şərait səylərimizi birləşdirməyə imkan verməzdi. Biz isə həm birgə səylərimiz nəticəsində artıq artan yük axınlarını daha da artırmaq, həm də üçüncü ölkələrdən yükdaşımaları cəlb etmək üçün nəqliyyat və logistika sektorundakı fəaliyyətimizi daha da əlaqələndirmək barədə razılığa gəldik. Buna görə də bu sahə təbii ki, həm ikitərəfli, həm də çoxtərəfli qarşılıqlı fəaliyyətimizin prioriteti olacaq".

Məlum olduğu kimi, Orta dəhlizin beynəlxalq ticarət marşrutuna çevrilməsi üçün Azərbaycan, Gürcüstan və Qazaxıstan arasında Trans-Xəzər Nəqliyyat Marşrutunun yaradılması barədə müqavilə bağlanmışdır. Bu tarixi sənəd Orta dəhlizin qlobal ticarət marşrutuna çevrilməsində önəmli rol oynayır. Ancaq bu marşrut üzərindən daha çox həcmdə yük daşınması üçün Türkmənistanın da bu müqaviləyə qoşulması vacib idi. Məhz Prezident İlham Əliyevin Türkmənistan tərəfi ilə apardığı səmərəli danışıqlar dost ölkənin bu layihəyə qoşulmasını təmin etdi. İki ölkənin müvafiq qurumları mövcud imkanları dəyərləndirərək ümumi razılığa gəldilər. Cari ilin yanvar ayında ölkələrimiz arasında əlaqələri genişləndirmək üçün Türkmənbaşı Beynəlxalq Dəniz Limanının direktoru Parahat Jumayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Bakı Beynəlxalq Dəniz Limanının rəhbərliyi arasında görüş oldu.

Görüşdə Bakı (Ələt) və Türkmənbaşı limanlarının Xəzər dənizində "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizinə xidmət edən əsas logistika mərkəzlərinə çevrilməsi müzakirə olundu. Qeyd edildi ki, hazırda bu marşrut üzrə neft, müxtəlif yüklər və dəmir yolu vaqonlarının daşınması həyata keçirilir. Modernləşdirmədən sonra Türkmənbaşı limanı iri nəqliyyat qovşağına çevrilib, Bakı limanı isə Ələt qəsəbəsində infrastrukturunu genişləndirərək yük və sərnişin daşımalarında rolunu artırıb.

Müzakirələrdə Xəzər dənizi-Qara dəniz beynəlxalq tranzit və nəqliyyat dəhlizinin inkişafı, Türkmənbaşı, Bakı, Poti, Batumi və Konstansa limanları vasitəsilə yükdaşımaların artırılması perspektivləri barədə də geniş fikir mübadiləsi aparıldı.

Mütəxəssislər tərəfindən aparılan araşdırmalar göstərir ki, Orta dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) inkişafı və Türkmənbaşı limanı vasitəsilə tranzitin stimullaşdırılması Mərkəzi Asiya ölkələrinin iqtisadiyyatlarının böyüməsinə və dünya bazarında mövqelərinin möhkəmlənməsinə mühüm töhfə verəcək.

Azərbaycan və Türkmənistan dövlət başçılarının əldə etdikləri razılaşmalardan sonra Türkmənistan tərəfi Türkmənbaşı dəniz limanı üzərindən daha çox yük daşınması üçün fəal addımlar atır. İlk növbədə tranzitin stimullaşdırılması üçün dəniz limanı rüsumları üzrə imtiyazların və daşımalarda güzəştlərin verilməsi də daxil olmaqla müxtəlif tədbirlər həyata keçirilir, o cümlədən Türkmənbaşı ilə Bakı arasında müntəzəm bərələr işləyir və quru yük gəmiləri fider daşınmasını təmin edir. Bunlardan əlavə, dost ölkə tərəfindən qərar qəbul edilib və həmin qərara görə, Türkmənbaşı limanında "gömrük anbarı" rejimi malları gömrük rüsumu ödəmədən 3 ilə qədər saxlamağa imkan verir.

Onu da vurğulayaq ki, Türkmənbaşı Beynəlxalq Dəniz Limanı bütün Mərkəzi Asiya regionunun əsas logistik mərkəzlərindən biridir. Liman Orta dəhlizin yükdaşıma imkanlarının artırılmasında önəmli rol oynayır. O, "Şərq-Qərb" dəhlizinin əsas halqası kimi Mərkəzi Asiyanın tranzit sistemində 17 milyon ton yükdaşıma qabiliyyətinə malik olan tək limandır.

Ötən ilin avqustunda Türkmənbaşı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Türkmənistanın Dəmir Yolu Nəqliyyatı Nazirliyi və Özbəkistan Respublikasının Nəqliyyat Nazirliyi arasında nəqliyyat-logistika əməkdaşlığı sahəsində Anlaşma Memorandumu" 3 ölkə arasında əməkdaşlığın genişlənməsinə mühüm töhfə verir. Bu sənəd imzalandıqdan sonra adları çəkilən ölkələr arasında nəqliyyat əlaqələrini genişləndirmək üçün yeni layihələr icra olunur.

Son illər dünya logistika sistemində baş verən hadisələr beynəlxalq yükdaşımaların istiqamətini ciddi şəkildə dəyişdirib. Rusiyaya qarşı tətbiq olunan sanksiyalar, Qırmızı dəniz və Bab əl-Məndəb boğazında yaranmış təhlükəsizlik problemləri, eləcə də ənənəvi nəqliyyat marşrutlarında artan risklər yük sahiblərini alternativ və daha etibarlı marşrutlar axtarmağa məcbur edib. Bu gün həmçinin Çin, Əfqanıstan, Tacikistan, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və digər Mərkəzi Asiya ölkələri Avropa bazarlarına daha sürətli və etibarlı çıxış əldə etməyə çalışırlar. Eyni zamanda Avropa ölkələri də öz məhsullarını, texnologiyalarını və investisiyalarını bu regionlara çatdırmaq üçün yeni marşrutlara ehtiyac duyurlar. Ona görə də Orta dəhliz birtərəfli deyil, Şərqlə Qərbi birləşdirən iki istiqamətli strateji ticarət marşrutudur. Həmin əlaqələrin yüksəlməsində isə Türkmənistan limanı önəmli rola malikdir. Bununla belə, Prezident İlham Əliyevin rəhbərliyi ilə nəqliyyat, logistika və tranzit infrastrukturunun inkişafı istiqamətində həyata keçirilən siyasət sayəsində ölkəmiz Orta dəhlizin əsas iştirakçılarından biri olaraq qalır. Limanların, dəmir yollarının, gömrük infrastrukturunun və beynəlxalq nəqliyyat əlaqələrinin inkişafı Azərbaycanın regional logistika mərkəzi kimi mövqeyini daha da gücləndirib. Amma Orta dəhliz üzrə yük axınının davamlı artması mövcud infrastrukturun modernləşdirilməsini və yeni texnoloji həllərin tətbiqini zəruri edir. Azərbaycanın tranzit və logistika potensialının gücləndirilməsi istiqamətində həyata keçirilən layihələr də məhz bu məqsədə xidmət edir.

*Rüstəm KAMAL, "Azərbaycan"*

**25 İyun Dənizçilərin Peşə Bayramı Günüdür**

# Bir arzunun izi ilə...

**Bəzən insanın həyat yolunu bir uşaqlıq arzusu müəyyənləşdirir. Kimi göylərə baxıb təyyarəçi olmaq istəyir, kimi ağ xalat geyinməyi xəyal edir. Salyanın Kürqaraşlı kəndində böyüyən balaca Ülfətin arzusu isə üfüqün o tayına keçmək, dünyanı görmək və dənizlərin sirrini öyrənmək idi.**



1989-cu ildə Kür çayının sahilində dünyaya göz açan Ülfət Əzizovun uşaqlığı böyük şəhərlərin səs-küyündən uzaqda keçib. Kənddə böyüsə də, xəyal dünyası həmişə geniş olub. O, uşaqlıqdan dünyanın müxtəlif ölkələrini görmək, fərqli mədəniyyətlərlə tanış olmaq istəyirdi. Odur ki, Bakıya hər gəlişi onun üçün kiçik bir macəraya çevrilirdi. Xəzərin sahilində dayanıb gözünü dənizdən, gəmilərdən çəkə bilmirdi. Bəlkə də elə həmin anlarda gələcək taleyi müəyyənləşirdi.

### Həyat yolu seçimi

2007-ci ildə orta məktəbi bitirən Ülfət artıq qərarını vermişdi. O dövrdə abituriyentlər qəbul zamanı 15 müxtəlif ixtisas seçə bilirdilər. Lakin onun üçün seçim etmək çətin deyildi. Sənədlərini yalnız Azərbaycan Dövlət Dəniz Akademiyasının



üç ixtisası üzrə təqdim etdi. Bu, sadəcə, universitet deyil, həyat yolunun seçimi idi.

Elə birinci sırada yazdığı gəmi sürücülüyü ixtisasına da qəbul olundu. Müsahibim həmin günləri xatırlayanda zarafatla deyir: "Bəzən məndən soruşurlar ki, nə vaxtdan dənizçisiniz? Deyirəm ki, 2007-ci ilin avqustundan. Atamla birlikdə sənədlərimi akademiyaya təhvil verməyə gəlmişdik. Həmin gün Bakı buxtasında gəzinti gəmisinə mindim və özümü dənizçi hesab etməyə başladım".

2008-ci ildə ilk dəfə təcrübəçi kimi gəmiyə çıxanda hiss etdiyi həyəcanı bu gün də unutmur. Yeni mühit, yeni insanlar, böyük məsuliyyət və qarşıda açılan naməlum üfüqlər… İlk səfər ona dənizçiliyin yalnız romantik tərəfini deyil, həm də ağır məsuliyyətini göstərdi. O anlayırdı ki, qarşısında uzun və çətin bir yol var. Lakin bu yolun sonunda onu böyük imkanlar gözləyirdi.

Magistr təhsili aldığı 2012-2013-cü illərdə iş axtarışına başlayır. Xəzər dənizində işləmək üçün müxtəlif təkliflər alsa da, onları qəbul etmir. Çünki arzusu daha böyük idi. O, okeanlara çıxmaq istəyirdi. 2013-cü il dekabrın 23-də 24 yaşı tamam olan gün Türkiyəyə yollanır və təcrübəçi matros kimi ilk beynəlxalq işinə başlayır. Kiçik və köhnə gəmilər, uzun iş saatları, yeni ölkə, tanımadığı insanlar… Lakin Ülfət Əzizov üçün bunlar çətinlik deyil, təcrübə idi. Hər gün öyrənir, hər gün inkişaf edir və məqsədinə bir addım daha yaxınlaşırdı.

### Dünya limanlarında bir azərbaycanlı

İllər keçdikcə peşəkar fəaliyyəti onu dünyanın müxtəlif nöqtələrinə aparır. Qara dəniz ölkələri, Aralıq dənizi hövzəsi, Baltik dənizi limanları, Afrika sahilləri, Karib hövzəsi, Uzaq Şərq ölkələri… Hər liman yeni təcrübə, hər səfər yeni dərs demək idi.

Dənizdə həyat çoxlarının düşündüyü kimi yalnız gözəl mənzərələrdən ibarət deyil. Günlər növbə sistemi ilə keçir. Nəzarət, texniki işlər, təhlükəsizlik yoxlamaları, sənədləşmə və gündəlik əməliyyatlar dənizçinin həyatının ayrılmaz hissəsidir. Lakin Ülfət Əzizov boş vaxtlarını da səmərəli keçirməyi bacarırdı. O, dənizçiliklə bağlı topladığı bilik və təcrübələri qələmə almağa başladı.

2013-2014-cü illərdə xarici sularda işlədiyi ilk dövrlərdə maraqlı bir müşahidə aparırdı. Limanlara daxil olduqda tez-tez böyük gəmilərə qonaq gedir, heyətlə tanış olurdu. Müasir və iritonnajlı gəmilərdə müxtəlif ölkələrdən olan dənizçiləri görsə də, azərbaycanlılara çox az rast gəlirdi. Bu vəziyyət onda yeni bir məqsəd formalaşdırdı.

Azərbaycan dənizçilərinin beynəlxalq sularda daha çox təmsil olunması üçün praktik biliklərə ehtiyac var. Müasir dənizçilik haqqında kitablar yazmaq, gəncləri məlumatlandırmaq və onların böyük gəmilərdə iş tapmasına yardım etmək lazımdır. Sonralar yazacağı kitabların və yaradacağı tədris mərkəzinin təməli də məhz həmin illərdə qoyuldu.

### Fırtınalar, sınaqlar, unudulmaz hadisələr

Dənizçinin həyatında çətin anlar da az olmayıb. Baş köməkçi vəzifəsində işlədiyi dövrdə güclü fırtınalar zamanı yaşadığı hadisələri bu gün də xatırlayır. Dəniz çox vaxt sakit görünsə də, bir neçə saat ərzində tamamilə dəyişə bilir. Belə anlarda hər bir qərar həyati əhəmiyyət daşıyır. Məhz bu çətinliklər peşəkar dənizçini formalaşdırır, ona soyuqqanlılıq və məsuliyyət hissi qazandırır.

"Gəmiçilik fəaliyyəti dövrümdə maraqlı hadisələr də az olmayıb. Yaddaşımda qalan ən maraqlı xatirələrdən biri Tunis limanında baş verib. Qızmar yay günlərindən biri idi. Gəminin kondisioner sistemi sıradan çıxmışdı. İsti hava səbəbindən gəmidə qalmaq çətin idi. Liman ərazisində gəzərkən yaxınlıqda dayanan başqa bir gəminin yanından keçirdim. Birdən qulağıma doğma sözlər gəldi. Təəccüblə gəmiyə yaxınlaşdım. Sən demə, gəmi heyətinin əksəriyyəti azərbaycanlılar imiş. Çalışdığım gəmidə isə yeganə azərbaycanlı mən idim. Həmin gün anladım ki, dünyanın harasında olursan ol, yurddaş ilə qarşılaşmaq tamam başqa hissdir. Həmyerlilərim məni qonaq çağırdılar. Söhbət zamanı kondisionerimizin işləmədiyini öyrənən elektrik mütəxəssisi köməyə gəldi və nasazlığı aradan qaldırdı. Sevincim yerə-göyə sığmırdı. Sonra heyət üzvlərinə zarafatla deyirdim ki, sizin kondisioneriniz azərbaycanlıların sayəsində işləyir", - deyə uzaq səfərlər kapitanı həmin günü gülümsəyərək xatırlayır.

### Dənizçilikdən müəllimliyə

30 yaşında kapitan olduqdan sonra peşəkar dənizçi yeni bir arzusunu həyata keçirməyə qərar verir. Uzun illər qazandığı təcrübəni paylaşmaq istəyirdi. 2020-2023-cü illərdə kitabları hələ çap olunmamışdı. Dərs vəsaitlərini adi kağızlarda çap edir, gənc dənizçilərlə görüşür, onlara peşə biliklərini öyrədirdi. Bu qeyri-rəsmi dərslər sonradan böyük bir layihənin əsasını qoydu.

2023-cü ilin dekabrında uzun müddətdir xəyalını qurduğu layihə reallaşır. Dənizçi dostlarının iştirakı ilə "Dənizçilər" Tədris Mərkəzi fəaliyyətə başlayır. Artıq o, yalnız kapitan deyil, həm də müəllim idi. 2024-cü ildə mərkəzin fəaliyyəti daha da genişlənir və Azərbaycan Dənizçilərinin Tədris və Heyət İdarəetmə Mərkəzi rəsmi dövlət qeydiyyatından keçərək ADTHİ MMC kimi fəaliyyətini davam etdirməyə başlayır. Mərkəzin əsas məqsədi sadə, lakin mühüm idi: azərbaycanlı dənizçiləri beynəlxalq şirkətlərin müasir gəmilərində işləməyə hazırlamaq.

Ülfət Əzizov bu gün də beynəlxalq sularda üzən böyük gəmilərdə çalışaraq təcrübəsini artırır və əldə etdiyi bilikləri tələbələri ilə bölüşür. O, yalnız təhsil verməklə kifayətlənmir, məzunlarının beynəlxalq şirkətlərdə iş tapmasına da dəstək göstərir. Bir vaxtlar bir neçə nəfərlə başlayan dərslər bu gün yüzlərlə tələbəni əhatə edir. Onun yetirmələri okeanlarda dünyanın müxtəlif dənizlərində üzür, böyük limanlarda çalışırlar. Lakin məsafələr onları müəllimlərindən uzaq sala bilmir. Harada olurlarsa-olsunlar, qarşılaşdıqları problem zamanı ilk müraciət etdikləri insan yenə Ülfət müəllim olur. Çünki onlar bilirlər ki, kapitanları həmişə yanlarındadır.

Bu gün Ülfət Əzizovun həyat hekayəsi, sadəcə, bir dənizçinin uğur tarixçəsi deyil. Bu, Kür sahilində böyüyən bir gəncin arzularına sadiq qalmasının, qarşısına çıxan çətinliklərdən geri çəkilməməsinin və qazandığı uğurları başqaları ilə bölüşməsinin hekayəsidir. Bir vaxtlar Bakı buxtasında gəzinti gəmisinə minən və özünü dənizçi hesab edən gənc bu gün dünya okeanlarında üzən kapitan, beş kitab müəllifi və yüzlərlə gəncin müəllimidir. Onun yolu hələ davam edir. Çünki dənizçilərin yaxşı bildiyi bir həqiqət var: üfüqə nə qədər yaxınlaşsan da, o, hər zaman bir az da irəlidə görünür.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*



# Dünya Çempionatı -2026





## Messi hələ bir müddət oynamaq istəyir

**Argentina millisinin və "İnter Mayami"nin hücumçusu Lionel Messi gələcəyi ilə bağlı danışıb.**

Forvard karyerasını nə qədər davam etdirəcəyi barədə sualı cavablandırıb: "Bəli, hələ bir müddət oynamağa davam edəcəyəm. Fayda verə bildiyim, fiziki cəhətdən özümü yaxşı hiss etdiyim və komanda yoldaşlarıma kömək edə bildiyim müddətdə futbol oynayacağam".

Xatırladaq ki, Messi dünya çempionatları tarixinin ən məhsuldar futbolçusudur. Onun aktivində 18 qol var. Bu göstərici ilə Messi Miroslav Kloze və Kilian Mbappeni 2 top qabaqlayır.

## Bacısından Ronaldoya dəstək

**Portuqaliya millisinin kapitanı Kriştianu Ronaldonun bacısı Katia Aveyro qardaşı ilə bağlı səslənən tənqidlərə münasibət bildirib.**

O, sosial şəbəkə hesabında paylaşım edərək Portuqaliya yığmasının uğursuz çıxışına görə bütün məsuliyyətin Ronaldonun üzərinə qoyulmasının düzgün olmadığını vurğulayıb.

Aveyro Portuqaliyanın Özbəkistana qarşı 5:0 hesablı qələbəsi və Ronaldonun dubl etdiyi oyundan sonra yazıb: "Bu həftə çətin keçdi. Ədalətsiz tənqidlərlə, bir-birinin ünvanına atılan amansız sözlərlə dolu qaranlıq bir həftə oldu, sanki tər, ağrı, intizam və izaholunmaz iradə üzərində qurulmuş karyeraları silməyə çalışırdılar. Onlar incitmək, ağrı vermək, alçaltmaq istəyirdilər. Kriştiano haqqında sanki onun artıq yeri yoxdur kimi, karyerası bitmiş kimi, futbola, Portuqaliyaya və dünyaya verdiyi hər şey bir gecədə unudula bilərmiş kimi danışmaq istəyirdilər.



Onlar onun bir oğul, bir ata, bir qardaş və sadəcə, bir insan olduğunu unutmuşdular. Bu qədər vəhşiliyi və nankorluğu oxumaq və eşitmək iyrənc idi.

Amma bu gün təəccüblü deyil ki, o, həmişəki kimi - meydanda tənqidlərə cavab verdi. Mətanətlə. Gözlərində qəzəblə. Döyüşmək üçün doğulmuş bir insanın gücü ilə. Heç vaxt işdən çəkinməyən, heç vaxt təslim olmayan bir döyüşçü ürəyi ilə. O, həmişə təzyiq altında idi və heç vaxt kənar səs-küyün onun kimliyini müəyyən etməsinə imkan vermədi. Ronaldo qolları ilə hamını susdurdu.

Bu, Kriştianu Ronaldodur. Dolores və Dinisin oğlu. Katya, Huqo və Elmanın qardaşı. Ailəcanlı, yorulmaz işçi, yüksəksəviyyəli peşəkar, milyonlarla insanın xəyalını gerçəkləşdirən və kimsə onu yerə yıxmağa çalışanda yüksəlməyə davam edən bir idmançı".

## 100-cü matçında "ən yaxşı" seçildi

**Fransa komandasının ulduzu Kilian Mbappe dünya çempionatında növbəti dəfə parlaq çıxışı ilə diqqət çəkib və matçın "ən yaxşı oyunçu"su seçilib.**



Futbolçu bu oyunda təkcə komandasına liderlik etməklə kifayətlənməyib, həm də şəxsi karyerasında yeni bir mərhələyə adlayıb.

Mbappe hazırda DÇ-də Miroslav Klozenin ümumi qol sayına çatıb və turnir tarixində ən çox qol vuran oyunçu olmaq uğrunda Lionel Messidən cəmi 2 qol geridədir.

Fransa millisində 100-cü oyununu keçirən Mbappe karyerasında inanılmaz bir göstəriciyə imza atıb: 100 oyun və 100 qol və məhsuldar ötürmə.

## FIFA prezidenti su fasilələrindən danışdı

**FIFA prezidenti Canni İnfantino DÇ-2026-da bütün oyunlarda tətbiq edilən su fasilələrinin səbəbi barədə danışıb. FIFA-nın rəhbəri qərarın yalnız hava şəraiti ilə bağlı olduğunu bildirib.**



"Əsas səbəb isti havadır. Nəzərə almalıyıq ki, dünya çempionatı kimi 39 gün davam edən turnirdə komandalar potensial olaraq 8 oyun keçirə bilərlər. Buna görə də futbolçuların qısa müddət dincəlmək imkanı əldə etməsi çox vacibdir", - deyə İnfantino qeyd edib.

O, bütün komandalar üçün bərabər şərait yaratmağın da vacib olduğunu vurğulayıb: "Bizim üçün daha önəmlisi odur ki, hər matçda bütün komandalar eyni şərtlər daxilində çıxış etsin. Bir oyunda hava daha isti olduğu üçün məşqçinin komandaya əlavə göstəriş vermək imkanı əldə etməsi, digər oyunda isə belə imkanın olmaması ədalətli deyil. Buna görə də fasilələri bütün matçlarda tətbiq edirik".

İnfantino bu qərarın maliyyə məqsədi daşımadığını da qeyd edib: "Bu fasilələr FIFA-ya əlavə gəlir gətirmir. Bütün kommersiya müqavilələri əvvəlcədən imzalanıb. Ona görə də bu, maliyyə məsələsi deyil, sırf idman məsələsidir".

FIFA prezidenti hesab edir ki, fasilələr futbolçuların oyunun son dəqiqələrində də yüksək temp saxlamasına kömək edir: "Oyunun son saniyələrinədək futbolçular hücum edir və aktiv oynayırlar. Ola bilsin ki, buna həmin qısa fasilələr də təsir göstərir. Futbolçular dincəlib meydançaya qayıdır və öz imkanlarını nümayiş etdirirlər".

Qeyd edək ki, DÇ-2026-da su fasilələri 22-ci və 67-ci dəqiqələrdə keçirilir və hər biri 3 dəqiqə davam edir. Bu vaxt sonradan kompensasiya olunmuş vaxta əlavə edilir. Belə praktika dünya çempionatları tarixində ilk dəfə tətbiq olunur.



## Qanalılar məqsədlərinə çatdılar

**Qana millisinin baş məşqçisi Karlos Keyruş dünya çempionatında İngiltərə ilə heç-heçə (0:0) etdikləri oyun barədə fikirlərini bölüşüb. BBC onun dediklərini belə çatdırıb:**

"İlk məqsədə çatdıq, növbəti mərhələyə yüksəldik. Oyunçularımızın oyunboyu necə mübarizə apardıqlarına, sistemə necə sadiq qaldıqlarına görə çox qürur duyuram. Onlar həmişə özlərinə inanırdılar. Səmimi deyirəm, İngiltərə dünya çempionatını qazanmağa nail ola bilər. Bu, azarkeşlərimiz üçün bir hədiyyədir. Qələbə qazanmaq üçün belə davranmaq lazımdır: müdafiə olunmaq lazım olanda arxada dayanmalısan. Onlar "rok-n-roll" oynayarkən mən "samba" oynaya bilmərəm. İngiltərə artıq ilk hissədən sonra məyus olmuşdu ki, bizi məğlub edə bilmir. Məhz o zaman biz yetkinləşdik və oyuna nəzarət etməyə başladıq. Qol vura bilərdik, amma təəssüf ki, alınmadı. Düşünürəm ki, İngiltərə də qol vura bilərdi, ona görə də heç-heçə ədalətli nəticə idi.

Bu nə deməkdir? Xoşbəxtlik. Qalib gəlmək xoşbəxtlikdir, amma bu mərhələdə qalib gəlməyin heç bir mənası yoxdur. Məqsədimiz növbəti mərhələyə çıxmaq idi, ona da çatdıq".

## FIFA şərhçini bağışlamadı

**FIFA paraqvaylı şərhçi Xorxe Veranın akkreditasiyasını ləğv etmək qərarına gəlib. Buna şərhçinin Migel Almironun meydandan qovulmasına emosional reaksiyası səbəb olub.**

İyunun 20-də Paraqvay milli komandası 2026-cı il dünya çempionatının ikinci turunda Türkiyə seçməsini 1:0 hesabı ilə məğlub edib. Birinci hissənin sonlarında hakim İvan Barton Mert Müldura müraciət edərkən ağzını bağladığına görə Migel Almironu meydandan qovub. Rəqibə ağzı bağlı şəkildə müraciət etdiyinə görə meydandan qovulma qaydası dünya çempionatı başlamazdan əvvəl tətbiq edilib.




"Oğru, oğru, oğru. Barton, sən oğrusan. Futbolu öldürdün. FIFA, futbolu öldürdün. İnfantino, buna görə sən məsuliyyət daşıyırsan. Oğrular. Bizdən bir oyunçu aldılar. Oğrular. FIFA, futbolu bu zibilə çevirməyin məsuliyyətini öz üzərinə götür", - deyə Xorxe Vera efirdə bildirib.

Jurnalist qısa müddət sonra dedikləri üçün üzr istəsə də, ABC telekanalı onu bütün dünya çempionatı proqramlarından kənarlaşdırıb.



## Seneqal millisi qapıçısını itirdi

**Seneqal millisinin qapıçısı Eduard Mendi qrup mərhələsinin 3-cü turunda İraqla keçiriləcək matçda komandasına kömək edə bilməyəcək. Bu haqda yığmanın sosial şəbəkə hesablarında məlumat yayılıb.**

34 yaşlı qolkiper dizindən aldığı zədə səbəbindən qarşıdakı oyunu buraxacaq. Mendinin zədəsinin ağırlıq dərəcəsini müəyyənləşdirmək və turnirdə iştirakını davam etdirib-etdirməyəcəyinə qərar vermək üçün əlavə tibbi müayinələr aparılacaq.

Qeyd edək ki, təcrübəli qapıçı Norveçlə keçirilən və Seneqalın 2:3 hesabı ilə uduzduğu görüşdə sol dizindən zədələnib. O, matçın 63-cü dəqiqəsində əvəzlənib.

## Xorvatiya millisində yeni rekordçu

**Xorvatiya millisinin hücumçusu Ante Budimir dünya çempionatında rekorda imza atıb.**



Sözügedən futbolçu buna qrup mərhələsinin 2 turunda Panamanı 1:0 hesabı ilə məğlub etdikləri matçda yeganə qola imza ataraq nail olub. 34 yaş 336 günlüyündə adını tabloya yazdıran ön xətt oyunçusu "dama-damalar"ın sıralarında mundiallarda qol vurmuş ən yaşlı futbolçu adına sahib çıxıb.

Əvvəlki rekord DÇ-2014-də Kamerunun qapısına yol tapan (4:0) İvitsa Oliçə (34 yaş 277 gün) məxsus idi.

Xorvatiya DÇ-2026-da növbəti oyununu iyunun 27-də Qana yığmasına qarşı keçirəcək.

## Bütün DÇ-ləri görən 100 yaşlı fanat

**Argentina millisinin kapitanı Lionel Messi dünya çempionatında növbəti rekordlarına doğru irəlilədiyi vaxt tribunadakı bir azarkeş də milyonların diqqətini cəlb edib.**

Argentina-Avstriya oyunu zamanı əlində "100 yaşım var. Messi fanatıyam" yazılmış plakat tutan yaşlı qadın qısa müddətdə sosial şəbəkələrin ən çox müzakirə olunan simalarından birinə çevrilib.




Söhbət sosial mediada "Nənə Smit" ("Grandma Droniak") kimi tanınan 100 yaşlı Polin Kanadan gedir. O, artıq uzun müddətdir ki, "TikTok" və "İnstaqram"da fenomen kimi tanınır. Polinin "TikTok"da 24 milyondan, "İnstaqram"da isə 4 milyondan çox izləyicisi var.

Argentina millisinin formasını geyinən və Messiyə həsr olunmuş plakat qaldıran Polin Kananın görüntüləri televiziya yayımı zamanı ekrana düşdükdən sonra internetdə sürətlə yayılıb. Azarkeşlər onun görüntülərini paylaşaraq 100 yaşlı qadını DÇ-nin ən sevilən simalarından biri adlandırıblar.

Bu, Polinin Messiyə sevgisini nümayiş etdirdiyi ilk hadisə deyil. O, daha əvvəl də argentinalı ulduza həsr olunmuş paylaşımlar edərək hətta zarafatla ona evlilik təklifi də edib.

Fenomen nənə dəfələrlə ən böyük arzusunun Lionel Messi ilə şəxsən görüşmək olduğunu bildirib. 2026-cı il dünya çempionatı isə bu arzunu yenidən gündəmə gətirib.

## DÇ-2026-nın pley-off mərhələsində yeni penalti qaydası

**FIFA DÇ-2026-da pley-off mərhələsinə təsir edəcək yeni qayda dəyişikliyi üzərində işləyir.**

"The Times" nəşrinin məlumatına görə, qurum penaltilər seriyası ilə bağlı sistemə yenilik etməyə hazırlaşır. Məqsəd qərarvermə prosesində daha ədalətli balans yaratmaqdır.



Yeni qaydaya əsasən, komandalar püşkdən sonra ya ilk zərbəni vurmaq, ya da azarkeşləri önündə oynamaq hüququndan birini seçə biləcək. Digər üstünlük isə rəqib komandaya veriləcək.

FIFA bu dəyişikliklə bir komandanın eyni anda iki üstünlük qazanmasının qarşısını almağı hədəfləyir. Məsələ ilə bağlı danışıqların aparıldığı bildirilir. Qərarın ilk 1/8 final oyunundan əvvəl təsdiqlənə biləcəyi qeyd olunur.

## "Nə etməli olduğumuzu düşünəcəyik"



**İngiltərə millisinin baş məşqçisi Tomas Tuxel dünya çempionatının qrup mərhələsinin ikinci turunda Qana ilə heç-heçə (0:0) etdikləri oyun haqda fikirlərini bölüşüb.**

FIFA-nın rəsmi saytı almaniyalı mütəxəssisin dediklərini belə təqdim edib: "Qalib gəlməyə layiq idik. Bu cür passiv müdafiə olunan komandalara qol vurmaq çətindir. Matç səbr oyununa çevrilmişdi. İlk hissədə çox çalışdıq, temp və intensivliyimiz var idi, amma, sadəcə, qol vura bilmədik. Onların əks-hücumlarını dayandırmaq üçün isə əla iş gördük. Əvəzetmədən oyuna qoşulanlardan da razı qaldım. Sonda iki əla şansımız oldu, fərqlənə bilmədik. Panama ilə oyuna dörd gün var, nə etməli olduğumuzu düşünəcəyik".

Qeyd edək ki, İngiltərə millisi 2 turda 4 xal toplayıb və turnir cədvəlində liderdir. Bununla belə, Tuxelin komandası pley-offa vəsiqəni rəsmiləşdirməyib.

## Məşqçi yetirmələrinə təşəkkür etdi

**Hazırda davam edən futbol üzrə dünya çempionatının 2-ci turunda Konqo Demokratik Respublikasını 1:0 hesabı ilə məğlub edən Kolumbiya millisinin baş məşqçisi Nestor Lorenso qələbəni şərh edib.**

O, K qrupunda baş tutan görüşün ardından təşkil edilən mətbuat konfransında belə danışıb: "Komanda üzvlərinə bütün cəhdlərinə və qələbəyə görə təşəkkür edirəm. Futbolçularımız sonadək oyun planına sadiq qaldılar. Daha yaxşı nəticəyə layiq idik. Sona yaxın rəqibimiz işimizi çətinləşdirdi. Amma fikrimcə, layiqli qələbə qazandıq".



## Fransızlar baş məşqçisiz qaldılar



**Fransa millisinin baş məşqçisi Didye Deşam komandanın düşərgəsindən ayrılacaq. Buna səbəb təcrübəli mütəxəssisin anasının vəfat etməsidir. Məlumatı Fransa Futbol Federasiyasının (FFF) mətbuat xidməti yayıb.**

Məşqçi dəfn mərasimində iştirak etmək üçün ABŞ-ni tərk edəcək. O, milli komandanın 26 iyunda Norveçlə keçiriləcək son qrup oyununda texniki zonada olmayacaq. Fransa Futbol Federasiyasının prezidenti Filip Diallo ilə razılığa əsasən, Didye Deşam qayıdana qədər komandanı onun köməkçisi Qay Stefan idarə edəcək.

Fransa milli komandası 2 turdan sonra 6 xalla I qrupun turnir cədvəlinə başçılıq edir.

*Hazırladı:*
***Dönməz ABBASOV***

# Leyla Əliyevanın təşəbbüsü ilə Dübəndi yaşayış sahəsində təmizlik aksiyası təşkil edilib





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Dübəndi yaşayış sahəsində təmizlik aksiyası təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, IDEA İctimai Birliyinin təşkilatçılığı və Fövqəladə Hallar Nazirliyinin dəstəyi ilə keçirilən aksiya çərçivəsində sahilboyu əraziyə yayılmış neft tullantılarının və neftlə çirklənmiş qalıqların təmizlənməsi işləri davam etdirilib.

İştirakçıların sağlamlığının və təhlükəsizliyinin yüksək səviyyədə təmin olunması məqsədilə aksiyadan əvvəl onlara neft tullantıları ilə davranış, fərdi mühafizə vasitələrindən düzgün istifadə və fövqəladə hallarda görüləcək tədbirlərlə bağlı ətraflı təlimat verilib.

Aksiya nəticəsində toplanan neft tullantılarının zərərsizləşdirilməsi məqsədilə müvafiq qaydada təhvil verilib.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Qocalmaya qarşı mübarizədə yeni mərhələ

## Gen terapiyası ilk dəfə insan üzərində sınaqdan keçirilib

**Min illər boyu bəşəriyyət ömrün uzadılmasının, yaşlanmanın təsirlərinin azaldılmasının yollarını axtarıb, müxtəlif nəzəriyyələr və müalicə üsulları irəli sürüb. Müasir biologiya və genetika sahəsində əldə edilən nailiyyətlər isə bu istiqamətdə yeni imkanlar açır.**



Son illər alimlərin diqqət mərkəzində olan ən maraqlı yanaşmalardan biri hüceyrələrin "yenidən proqramlaşdırılması" texnologiyasıdır. Bu üsul yaşlanmış hüceyrələrin müəyyən dərəcədə cavanlaşdırılmasını hədəfləyir və nəzəri olaraq insan orqanizminin funksiyalarının daha uzun müddət qorunmasına kömək edir. Həmin istiqamətdə aparılan tədqiqatlarda mühüm nəticə əldə edilib. ABŞ-də fəaliyyət göstərən "Life Biosciences" şirkəti yaşlı hüceyrələrin yenidən proqramlaşdırılmasına əsaslanan gen terapiyasını ilk dəfə insan üzərində tətbiq edib. Müalicə qlaukoma xəstəliyindən əziyyət çəkən könüllü iştirakçıya tətbiq olunub. Mütəxəssislərin fikrincə, bu sınaq yalnız qlaukomanın müalicəsi üçün deyil, həm də gələcəkdə qocalmaqla əlaqəli xəstəliklərin aradan qaldırılması istiqamətində yeni imkanların yaranması baxımından böyük əhəmiyyət daşıyır. Bununla belə, alimlər ehtiyatlı davranmağa çağırır və bildirirlər ki, texnologiyanın effektivliyi və təhlükəsizliyi barədə qəti nəticələr çıxarmaq üçün hələ uzun illər araşdırmalara ehtiyac var.

Qlaukoma dünyada korluğun əsas səbəblərindən biri hesab olunur. Xəstəlik zamanı göz ilə beyin arasında əlaqəni təmin edən görmə siniri zədələnir və nəticədə görmə qabiliyyəti tədricən zəifləyir. Problemin əsas çətinliyi ondadır ki, görmə sinirini təşkil edən neyronlar yetkin insan orqanizmində demək olar ki, öz-özünə bərpa olunmur. Buna görə də mövcud müalicə üsulları əsasən xəstəliyin inkişafını ləngitməyə yönəlib, itirilmiş görməni geri qaytarmaq isə çox çətindir. Yeni gen terapiyasının məqsədi məhz bu maneəni aradan qaldırmaqdır. Alimlər hesab edirlər ki, müəyyən genlərin aktivləşdirilməsi sayəsində zədələnmiş retinal qanqlion hüceyrələrinin yenidən bərpa olunması mümkün ola bilər. Əgər bu yanaşma uğurlu nəticə verərsə, gələcəkdə qlaukoma nəticəsində itirilmiş görmə qabiliyyətinin qismən də olsa bərpası mümkün olacaq.

Tədqiqatın əsasında "qismən yenidən proqramlaşdırma" adlanan üsul dayanır. Bu yanaşma hüceyrələri tam şəkildə kök hüceyrəyə çevirməyi nəzərdə tutmur. Əksinə, məqsəd hüceyrələrin bioloji yaşını müəyyən qədər geri çevirmək və onları daha gənc vəziyyətə yaxınlaşdırmaqdır. Beləliklə, hüceyrələr öz əsas funksiyalarını qoruyub saxlayır, eyni zamanda gənc hüceyrələrə xas olan bəzi xüsusiyyətləri yenidən qazanırlar. Bu proses üçün alimlər xüsusi genlərdən istifadə edirlər. Hüceyrələrə daxil edilən genlər müəyyən zülalların istehsalını təmin edir və nəticədə hüceyrələrin fəaliyyəti dəyişir. Nəzəri olaraq bu dəyişikliklər hüceyrələrin bərpa qabiliyyətini artıraraq onların daha sağlam işləməsinə şərait yarada bilər.

Maraqlıdır ki, istifadə olunan texnologiyanın əsası bir neçə il əvvəl aparılmış laboratoriya tədqiqatlarında qoyulub. 2020-ci ildə Harvard Tibb Məktəbində çalışan alimlər, o cümlədən tanınmış genetik Devid Sinklerin rəhbərlik etdiyi qrup siçanlar üzərində təcrübələr aparıb. Həmin araşdırmalar göstərib ki, müəyyən genlərin aktivləşdirilməsi zədələnmiş optik sinirlərdə regenerasiya prosesini sürətləndirə və görmə itkisini qismən geri qaytara bilər. Xüsusilə yaşlı və qlaukomaya meyilli siçanlarda əldə olunan nəticələr elmi ictimaiyyətin böyük marağına səbəb olmuşdu. Məhz bu nəticələr sonrakı illər insan üzərində klinik sınaqların aparılması üçün zəmin yaradıb. Lakin heyvanlar üzərində əldə olunan uğurlu nəticələrin insan orqanizmində də eyni şəkildə təkrarlanacağı hələ məlum deyil. Buna görə alimlər klinik sınaqların ilkin mərhələsində əsas diqqəti təhlükəsizliyə yönəldirlər.

Gen terapiyalarının tətbiqi müasir tibbin ən perspektivli sahələrindən biri hesab edilsə də, bu texnologiyalar müəyyən risklərlə müşayiət olunur. Xüsusən hüceyrələrin yenidən proqramlaşdırılması prosesində nəzarətsiz dəyişikliklərin baş verməsi ehtimalı alimləri rahatsız edir. Bəzi mütəxəssislər hesab edirlər ki, hüceyrələrin həddindən artıq aktivləşdirilməsi onların şiş hüceyrələrinə çevrilməsi riskini artıra bilər. Məhz buna görə "Life Biosciences" şirkəti müalicə sistemində əlavə təhlükəsizlik mexanizmi tətbiq edib. Genlər birbaşa aktiv vəziyyətdə deyil, idarə olunan formada hüceyrələrə çatdırılır. Onların fəaliyyəti xüsusi antibiotik preparatı olan doksisiklin vasitəsilə tənzimlənir. Dərman qəbul edildiyi müddətdə genlər aktiv olur, qəbul dayandırıldıqda isə fəaliyyətlərini dayandırırlar. Bu yanaşma alimlərə proses üzərində daha ciddi nəzarət imkanı verir. Şirkət nümayəndələri bildirirlər ki, bu sistem sayəsində genlərin lazım olduğundan artıq müddətdə aktiv qalmasının qarşısını almaq mümkündür.

Mütəxəssislərə görə, göz bu tip texnologiyaların sınaqdan keçirilməsi üçün münasib başlanğıc nöqtəsidir. Bunun bir neçə səbəbi var. İlk növbədə, göz bədənin digər hissələri ilə müqayisədə daha məhdud və lokal sahədir. Hər hansı gözlənilməz problem yarandıqda onun nəzarətdə saxlanılması daha asan olur. Bundan əlavə, həyati vacib orqanlarla müqayisədə risk səviyyəsi nisbətən aşağı hesab edilir.

Hazırda davam edən klinik sınaq 12 qlaukoma xəstəsini əhatə edir. Tədqiqatın sonrakı mərhələlərində isə digər görmə siniri xəstəliklərindən əziyyət çəkən şəxslərin də prosesə cəlb olunması nəzərdə tutulur. Xüsusilə qeyri-arteritik ön işemik optik neyropatiya (NAION) adlanan xəstəlik diqqət mərkəzindədir. Bu xəstəlik görmə sinirinə qəfil və ciddi zərər vuraraq qısa müddətdə görmə itkisinə səbəb ola bilir. Əgər gen terapiyası bu xəstəliklərdə müsbət nəticə göstərərsə, milyonlarla insan üçün yeni müalicə imkanları yarana bilər.

Dünyada qlaukoma və digər optik sinir xəstəlikləri səbəbindən görmə qabiliyyətini itirən insanların sayı sürətlə artır. Əhalinin yaşlanması ilə əlaqədar olaraq bu problemin gələcəkdə daha da aktuallaşacağı gözlənilir. Lakin mütəxəssislər ictimaiyyətin həddindən artıq optimist gözləntilər formalaşdırmasının doğru olmadığını bildirirlər. Elmi tarixdə laboratoriya şəraitində uğur qazanan, lakin insan üzərində gözlənilən nəticələri verməyən çoxsaylı layihələr olub. Buna görə də hazırkı sınaqların nəticələrini gözləmədən bu texnologiyanı qocalığın tam müalicəsi kimi təqdim etmək düzgün hesab edilmir.

Ən çox müzakirə olunan məsələlərdən biri də hüceyrələrin həqiqətən cavanlaşıb-cavanlaşmamasıdır. Alimlərin bir hissəsi hesab edir ki, qismən yenidən proqramlaşdırma hüceyrələrin bioloji yaşını müəyyən qədər geri qaytara bilir. Digər tədqiqatçılar isə bu fikrə ehtiyatla yanaşır və bildirirlər ki, müşahidə olunan dəyişikliklər yalnız hüceyrə funksiyalarının müvəqqəti yaxşılaşması ola bilər. Bu səbəbdən texnologiyanın insan ömrünü uzatmaq potensialı barədə danışmaq hələ tezdir. "Life Biosciences" şirkəti də hazırda əsas diqqəti "bütün bədənin cavanlaşdırılması" ideyasına deyil, yaşla əlaqəli konkret xəstəliklərin müalicəsinə yönəltdiyini bildirir. Şirkət bu texnologiyanı yalnız göz xəstəliklərində deyil, qaraciyər patologiyaları və digər degenerativ xəstəliklərdə də sınaqdan keçirməyi planlaşdırır. Elm tarixində bir çox böyük yeniliklər məhz kiçik addımlarla başlayıb. Bu gün qlaukoma xəstəsinin üzərində tətbiq edilən gen terapiyası da gələcəkdə geniş tibbi tətbiqlərin başlanğıcı ola bilər.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# "Allianz": İran körfəzində 1150 gəmi bloklanıb

**ABŞ və İran arasında razılaşmalara baxmayaraq, Hörmüz boğazı üzərindən gəmi daşımaları hələ də bərpa olunmayıb. Bunun səbəbi gəmi sahiblərinin riskləri qiymətləndirə bilməməsidir. Bu barədə "Allianz" sığorta şirkəti məlumat verib.**



Alman sığorta şirkətinin təhlilinə görə, ABŞ və İran arasında hərbi əməliyyatlara son qoymaq üçün əldə edilən razılığa baxmayaraq, İran körfəzində təxminən 1150 gəmi ilişib qalıb. DPA xəbər agentliyinin məlumatına əsasən, Almaniyanın ən böyük sığorta şirkəti olan "Allianz" tıxanmış gəmilərin və onların yükünün dəyərini təxminən 125 milyard dollar məbləğində qiymətləndirir.

Yaranmış vəziyyətdə gəmiçilik probleminin həllinin həftələr çəkəcəyi proqnozlaşdırılır. Şirkətin mütəxəssisləri hesab edirlər ki, vəziyyət normallaşsa belə, bu məsələnin həlli xeyli müddət aparacaq. "Allianz Commercial"ın dəniz sığortası üzrə baş eksperti Yustus Haynrix bildirib ki, "gəmiçilik bu münaqişənin girovudur". Müharibədən əvvəl Hörmüz boğazından hər gün təxminən 140 gəmi keçirdi. Ekspertin sözlərinə görə, əldə edilən razılaşmalara baxmayaraq, dənizdə qeyri-müəyyənlik davam edir. Haynrix izah edib: "Beynəlxalq Dəniz Təşkilatı və Alman Gəmiçilik Şirkətləri Assosiasiyası (VDR) hələlik heyətlər və gəmilər üçün riskləri qiymətləndirə bilmirlər. Vəziyyət aydınlaşana qədər gəmiçilik bərpa olunmayacaq. Vəziyyət normallaşsa belə, bütün bloklanmış gəmilərin Hörmüz boğazından keçməsi həftələrlə çəkəcək".

Bundan əlavə, Qırmızı dəniz və Süveyş kanalı da gəmilər üçün çətin ərazi olaraq qalır. "Allianz" ekspertinin dediyinə görə, hazırda Süveyş kanalından 80 faiz az gəmi keçir.

Xatırladaq ki, İranın dəstəklədiyi Yəmən husiləri İsrailin Qəzza zolağında 2023-cü ilin payızında hərbi əməliyyatına başladığı vaxtdan bəri bu marşrut boyunca beynəlxalq gəmiçiliyi təhdid edir. Nəticədə əksər gəmiçilik şirkətləri gəmilərini Afrika ətrafına istiqamətləndirir ki, bu da marşrutun bir neçə min dəniz mili uzanması deməkdir.

Məlum olduğu kimi, ABŞ və İran iki ay müddətinə bütün cəbhələrdə hərbi əməliyyatları dayandırmaq barədə razılığa gəliblər. İyunun ortalarında Vaşinqton və Tehran iki aylıq Anlaşma Memorandumu imzalayıblar. Memorandumda, Livan da daxil olmaqla bütün cəbhələrdə hərbi əməliyyatların dayandırılması, Tehrana qarşı sanksiyaların ləğvi və İran üçün bərpa fondunun yaradılması müddəaları yer alıb. Buna baxmayaraq, ötən həftəsonu İran Livanın cənubunda razılaşdırılmış atəşkəsin pozulmasını əsas gətirərək Hörmüz boğazının blokadasının bərpa olunduğunu elan edib.

"Fars" xəbər agentliyinin məlumatına görə, İran Silahlı Qüvvələri artıq boğazı açıb. Lakin hazırda gündə yalnız məhdud sayda gəminin keçməsinə icazə verilir.

Vaşinqton və Tehran arasında sülh sazişi üzrə danışıqlar davam edir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Paytaxtda yağış yağacaq

**Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakının və Abşeron yarımadasının bəzi yerlərində arabir yağış yağacağı proqnozlaşdırılır. Gecə yarımadanın ayrı-ayrı yerlərində intensiv olacağı, şimşək çaxacağı ehtimalı var. Gündüz hava dəyişkən buludlu olacaq, əsasən yağmursuz keçəcək. Şimal-şərq küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəzlənəcək. Atmosfer təzyiqi 757 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 55-60 faiz təşkil edəcək. Havanın temperaturunun gecə 19-22, gündüz 27-32 dərəcə isti olacağı ehtimal edilir.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, gecə və axşam yağıntıların bir qədər güclənəcəyi proqnozlaşdırılır. Bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 19-22, gündüz 30-35, dağlarda gecə 9-14, gündüz 18-23, bəzi yerlərdə 25-27 dərəcə isti olacağı bildirilir.

# Yüksək qan təzyiqinin gizli təhlükəsi aşkarlanıb

**Yüksək arterial təzyiq hələ infarkt, insult və ya digər nəzərəçarpan simptomlar meydana çıxmazdan da əvvəl orqanizmə ciddi zərər vura bilər. Orqanlarda gizli zədələnmələri aşkar etmək üçün süni intellekt sistemi hazırlayan Oksford Universitetinin tədqiqatçıları bu nəticəyə gəliblər.**

AZƏRTAC xəbər verir ki, araşdırmanın nəticələri "Circulation" jurnalında dərc olunub.

Alimlər hipertoniyanın eyni vaxtda bir neçə orqana təsirini qiymətləndirən "HyperScore" adlı alqoritm hazırlayıblar. Yalnız qan təzyiqi göstəricilərinə əsaslanan ənənəvi yanaşmadan fərqli olaraq, bu sistem ürəyin, beynin, böyrəklərin, qan damarlarının, qaraciyərin, ağciyərlərin fəaliyyəti və maddələr mübadiləsi ilə əlaqəli yüzlərlə göstəricini təhlil edir.

Modelin öyrədilməsi üçün mütəxəssislər Böyük Britaniyada həyata keçirilən "UK Biobank" layihəsinin 27 mindən çox iştirakçısının məlumatlarından istifadə ediblər. Daha sonra əldə olunan nəticələr ABŞ-dən olan daha 5,5 min nəfərin məlumatları əsasında yoxlanılıb. Təhlil göstərib ki, hipertoniyaya bağlı ən azı altı müxtəlif zədələnmə növü mövcuddur. Bəzi insanlarda xəstəlik daha çox ürəyə, digərlərində isə beyinə, böyrəklərə, damarlara və ya maddələr mübadiləsinə təsir göstərir.

Araşdırma həmçinin göstərib ki, "HyperScore" göstəricisi yüksək olan şəxslər gələcəkdə ürək-damar fəsadları ilə daha çox üzləşirlər. Bu hal hətta onların qan təzyiqi göstəriciləri ciddi narahatlıq doğurmadığı hallarda da müşahidə olunub. Gizli zədələnmənin ən mühüm əlamətlərindən biri maqnit-rezonans tomoqrafiyası zamanı aşkar edilən beyindəki dəyişikliklər olub.

Tədqiqatın müəlliflərinin sözlərinə görə, yeni texnologiya həkimlərə insult, ürək çatışmazlığı və böyrək xəstəlikləri riski yüksək olan pasiyentləri daha erkən mərhələdə müəyyən etməyə kömək edə bilər.

## ALLAH RƏHMƏT ELƏSİN!

Şəki Apellyasiya Məhkəməsinin kollektivi Şəki Apellyasiya Məhkəməsinin hakimi Akif Eyvazova bibisi

**FƏRİDƏ HÜMBƏTOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3778**
**Sifariş 809**

**Qiyməti 60 qəpik**